Xalqın qəzeti!

# Xalq qəzeti

№ 46 (30450) 29 fevral 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## Qərbin Cənubi Qafqazda uğur qazanması Azərbaycana münasibətdən asılıdır

### Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsi sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



**Fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Almaniya Federativ Respublikasının aparıcı şirkətlərinin rəhbərlərindən ibarət nümayəndə heyətinə Almaniya-Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann, “Falk” konsaltinq şirkətinin icraçı direktoru Tomas Falk, “Uniper Global Commodities SE” şirkətinin birinci vitse-prezidenti Uve Fip, “Rhenus Group” beynəlxalq nəqliyyat şirkətinin layihələr üzrə idarə heyətinin direktoru Heinrix Kerstgens, “VNG” Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Ulf Heitmüller və “HHLA International” şirkətinin icraçı direktoru Filip Sveens daxildir.

Dövlətimizin başçısı alman iş adamları ilə ötən il Berlində, bu yaxınlarda isə Münxendə keçirdiyi görüşlərini məmnunluqla xatırlayaraq, indi də böyük nümayəndə heyətinin iqtisadi əməkdaşlığın gündəliyinin müzakirəsi üçün Azərbaycana səfər etməsinin önəmini qeyd etdi.

Almaniya Federativ Respublikasının Azərbaycandakı səfiri Ralf Horlemann nümayəndə heyətinin adından İlham Əliyevin yenidən Prezident seçildiyi vaxtda qəbula görə minnətdarlığını bildirdi. Səfir Prezident İlham Əliyevin Münxen səfəri zamanı Almaniya Kansleri ilə keçirdiyi görüşlərinin təəssüratı altında olduqlarını dedi. O, eyni zamanda, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün bu gün Berlində keçirilməsindən məmnunluqlarını ifadə etdi və ölkəsinin sülh prosesini konstruktiv şəkildə dəstəklədiyini vurğuladı.

**(ardı 2-ci səhifədə)**

## Qərbin Cənubi Qafqaz cəbhəsi: Ermənistana səngər yox, qəbir qazdırırlar

### İrəvanın yeni müharibə ritorikasındakı etüdlər



**Ermənistan dövləti böyük güclərin layihəsi kimi yaranmışdı. Bu güclər erməni amilini türk dünyasını parçalamaq naminə istifadə etmişdilər. Əvvəl sözügedən amildən Qərb dünyası yararlanmış, sonra estafet Rusiyaya keçmişdi. Uzun müddət ermənilər Rusiyanın boyunduruğu altında olmuşdur.**

İndi Ermənistan daxilində gedən proseslərə, ayrı-ayrı qütblərin bir-birinə qarşıçıxma tematikasına diqqət yetirəndə, acınacaqlı mənzərə yaranır. Elə bil, mübarizələri hansı tərəfə yıxılmaq üstündə gedir. Bir qisim Rusiyanı seçir və bildirir ki, ölkənin nicatı Şimaldadır. Digər qütbün tərəfdarları isə belə düşünürlər ki, Ermənistan çiynini Qərbə söykəməlidir. Yəni, heç bir cinah müstəqil siyasi xətt yürütməkdən söz açmır. Mütləq kiməsə, kimlərəsə arxalanmaq məntiqi əsas götürülür və deməli, qlobal oyunlarda yer almaq məqsədi güdülür. Təəccüblənmirik, axı erməni xisləti üçün mövcudiyyət faktoru budur. Bu xislət dövlət barədə düşünmək üstünlüyündən məhrumdur.

Bəli, xəstə xislət daşıyıcıları üçün dövlətçilik şüuru, yalnız dövlətin maraq və mənafelərindən çıxış etmək kimi prinsip yoxdur. Görünür, vəziyyətin səbəbi dövləti özlərinin yaratmamalarıdır. Dövlət onlara hədiyyə edilib. Düşündükləri ancaq xəstə xislətlərini doydurmaqdır. Buna görə hazırda Azərbaycana qarşı çıxırlar və sülhə gəlmək niyyətindən uzaqdırlar.

Amma, necə deyərlər, indi çərxi-fələk tərsinə dövran edir. Artıq ermənilərin boyunduruğu Qərbin əlindədir. Ermənistan adlı dövlət Qərbin anti-Rusiya siyasətində alətdir. Azərbaycanla əks mövqedə dayanmaq, bu alətin özünütəsdiq paradiqmasıdır. Erməni xislətindəki tarixi “mahiyyət” dəyişmir. Axı özünütəsdiqdə başlıca meyar işğalçılıqdır.

***(ardı 4-cü səhifədə)***

## Bakı Limanı – Avrasiyanın iri logistik mərkəzi




Səhifə ➩ 7

## Berlinin Cənubi Qafqazda “sülh buzu”nu əritmək cəhdi



Səhifə ➩ 5

## Ailə xoşbəxtliyin isti yuvasıdır, gərək ora öz vaxtında gələsən



Səhifə ➩ 8-9

## Parisin xam xəyalı və məkrli planı



Səhifə ➩ 4

## Putinə başsağlığı teleqramı: Rıjkovun ölümü və subliminal mesaj



Səhifə ➩ 3

## Sumqayıt hadisələri erməni separatizminin ilk gizlin ssenarisi idi



Səhifə ➩ 6

## Orta dəhliz Şərqi Qərblə qovuşdurur



Səhifə ➩ 7

## “Xıdır Nəbi, xan İlyas, açdı çiçək, gəldi yaz...”



Səhifə ➩ 10

# Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsi sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

**(əvvəli 1-ci səhifədə)**

Səfir qeyd etdi ki, COP29-un keçirildiyi bu ildə sülh müqaviləsinin imzalanmasına nail olmaq üçün bir imkan yaranıb, bu da öz növbəsində sabitlik, iqtisadi inkişaf, əmin-amanlıq baxımından çox önəmlidir. O dedi ki, iş adamlarından ibarət böyük nümayəndə heyətinin Azərbaycana səfərinin əsas məqsədlərindən biri də ölkəmizlə əməkdaşlıqda maraqlı olduqlarını nümayiş etdirməkdən ibarətdir. Səfir vurğuladı ki, Azərbaycan Prezidentinin də inauqurasiya nitqində dediyi kimi iqtisadi, o cümlədən enerji sahəsində transformasiya məsələlərinin gündəlikdə durması əməkdaşlıq üçün böyük imkanlar yaradır. Xüsusi olaraq vurğuladı ki, Almaniya biznes dairələri və şirkətləri bu gündəliyə böyük töhfələrini verməyə hazırdır.

O, qəbula görə bir daha dövlətimizin başçısına minnətdarlığını bildirərək, nümayəndə heyətinin səfərinin əməkdaşlığın genişlənməsi baxımından səmərəli nəticələr verəcəyinə ümidvar olduğunu ifadə etdi.

Böyük nümayəndə heyətinin Azərbaycana səfərini yüksək qiymətləndirən dövlətimizin başçısı iqtisadi sahənin ikitərəfli münasibətlərimizdə həmişə mühüm rol oynadığını deyərək bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev keçən il Berlinə səfəri zamanı Almaniya Kansleri ilə görüşündə əlaqələrimizin geniş gündəliyinə daxil olan məsələlərin, o cümlədən iqtisadi əməkdaşlıq məsələlərinin müzakirə olunduğunu qeyd etdi. Eyni zamanda, Kansler Şoltsun təşəbbüsü ilə bu yaxınlarda Münxendə Ermənistanın baş naziri Nikol Paşinyanla keçirilən görüşün sülh prosesinə dinamizm gətirilməsi baxımından önəmini vurğuladı. Bununla yanaşı, Almaniya tərəfinin təklifi ilə xarici işlər nazirləri arasında Berlində görüşün keçirilməsinin də Azərbaycan tərəfindən dəstəkləndiyini qeyd etdi. Belə ki, Almaniya qonşuluğunda yerləşən, necə deyərlər, alovun üstünə benzin tökən və Ermənistanı öldürücü silahlarla təchiz edən Fransadan fərqli olaraq sülh prosesində neytrallıq nümayiş etdirir.

"Beynəlxalq hüququn normaları bizim tərəfimizdədir", – deyən Prezident İlham Əliyev vurğuladı ki, ölkəmizin suverenliyini və ərazi bütövlüyünü təmin etməsi ilə bağlı bizi hər hansı günahlandırma cəhdləri tamamilə əsassız və qərəzlidir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini təmin etməklə bağlı digər ölkələrin atdığı addımlardan fərqli addımlar atmır. Dövlətimizin başçısı təəssüf hissi ilə qeyd etdi ki, bu gün ikili standartlar bir sıra beynəlxalq institutlar, o cümlədən Avropa İttifaqı üçün adi hala çevrilib. Bu baxımdan Cozef Borrelin qeyri-adekvat bəyanatları bizi çox məyus edib. Əvvəla, onun bu bəyanatları heç bir reallığı əks etdirmir və beynəlxalq hüququn normalarına ziddir. İkincisi, Azərbaycan tərəfi bu bəyanatları ölkəmizə qarşı pərdələnmiş təhdid kimi qiymətləndirir. Belə ki, Borrel bildirib ki, Azərbaycan Ermənistana hücum edərsə, bunun acı nəticələrini görəcək. Əvvəla, Borrel bu məlumatı haradan alıb ki, Azərbaycan Ermənistana hücum etməyi planlaşdırır? Bizdə belə planlar yoxdur. Onlar cənab Makronun insinuasiyalarıdır. Bütün bunlar Fransanın, guya, Azərbaycanın Ermənistana hücuma hazırlaşması ilə bağlı ölkəmizin demonizə edilməsinə əsaslanan anti-Azərbaycan siyasətinin bir hissəsidir. Ermənistanla sərhəddə son dəfə 2023-cü ilin sentyabrında ciddi gərginləşmədən sonra bu ilin fevralınadək olan dövrdə sərhəddə vəziyyət sakit idi. Lakin fevral ayında erməni snayperi Azərbaycan əsgərini ağır yaraladıqdan sonra biz buna vaxtında adekvat və dəqiq cavab verməli olduq. Bizim bu cavab bir neçə dəqiqə çəkdi və Ermənistanın bunu dərk etməsinə kifayət etdi ki, azərbaycanlıların öldürülməsi cəhdi cəzasız qalmayacaq və dediyim kimi, ötən ilin sentyabrından bu hadisə istisna olmaqla sərhəddə sakitçilik hökm sürür. Deməli, cənab Borrel və cənab Makron bu informasiyanı reallıqdan deyil, öz xəyallarından götürürlər.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan sülh prosesinə sadiqdir. Məhz biz İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış etdik. Əslində, biz sülh yolu ilə həllin beş əsas prinsipini işləyib hazırladıq və sülh müqaviləsinin mətninin layihəsini təqdim etdik. Beləliklə, biz əgər sülh istəmiriksə, niyə bunların hamısını hazırlamışıq?!

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan əraziləri 30 il Ermənistanın işğalı altında olub. Ermənilər torpaqlarımızın 20 faizini işğal edərək həmin əraziləri dağıdıblar, o vaxt 1 milyona yaxın soydaşımız məcburi köçkün vəziyyətinə düşdü. Torpaqlarımızı işğal altında saxlayan Ermənistan bu müddətdə BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə, beynəlxalq hüququn normalarına, o cümlədən humanitar normalara məhəl qoymadı. İki gün əvvəl ildönümünü qeyd etdiyimiz Xocalı soyqırımını törətdilər. İndi biz suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdikdən və Qarabağda separatizm yuvasını dağıtdıqdan sonra hücumlara məruz qalmışıq. Biz Makron, Borrel və onlar kimi digər insanlar tərəfindən günahlandırılırıq. Ukraynanı götürək, Ukrayna öz ərazi bütövlüyünü bərpa etmək istəyir. Almaniya və digər ölkələr Ukraynaya silahlar göndərir. Siz hamınız bəyan edirsiniz ki, Ukrayna öz ərazi bütövlüyünü təmin etməlidir. Bəs bizim ərazi bütövlüyümüz?! Məgər bu məsələ Ukrayna məsələsindən daha az önəmlidir? Əfsuslar olsun ki, biz Cənubi Qafqazda ayırıcı xətlərin qurulması cəhdlərini görürük. Bununla bağlı Azərbaycanda bir çox insanlar belə düşünürlər ki, Avropa institutları tərəfindən Cənubi Qafqazda Gürcüstan və Ermənistanı çox yaxın qəbul etdikləri, Azərbaycanın isə demonizə edildiyi bir şəraitdə yeganə çıxış yolu bizim İslam dinimizdir. Mən demirəm ki, bu mənim şəxsi fikrimdir, insanların çoxu belə düşünür. Biz öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdikdən sonra Avropa Şurası Parlament Assambleyası Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərar qəbul edir. Əfsuslar olsun ki, bu qərar Almaniya parlamentinin üzvünün təşəbbüsü ilə qəbul olunub və o şəxs Kansler Şoltsun rəhbərlik etdiyi partiyanın üzvüdür. Bu, ikili standart deyilmi, yoxsa bizimlə aparılan bir oyundur?! Almaniya Kansleri qərəzsizlik nümayiş etdirir, onun bəyanatları və fəaliyyəti bunu əks etdirir. Onun rəhbərlik etdiyi partiyanın üzvü isə AŞPA-da 2 qeyri-xristian ölkəsindən biri olan Azərbaycanı uzaqlaşdırmaq istəyir və bunu nümayişkaranə və məqsədyönlü şəkildə edir. Bildiyiniz kimi, biz bu qurumun sessiyalarında iştirak etməmək qərarına gəlmişik. Çünki əgər bizim öz mövqeyimizi bildirmək hüququmuz yoxdursa, nəyə görə orada olmalıyıq?!

Prezident İlham Əliyev bildirdi ki, əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik. Dövlətimizin başçısı bir məsələni də təəssüf hissi ilə qeyd etdi ki, Almaniya mətbuatında Azərbaycan, guya, azadlıqların təmin olunmadığı, insanların öz fikirlərinə görə həbs olunduğu, diktaturanın hökm sürdüyü despotik bir ölkə kimi təqdim edilir. "Bu, tamamilə yalandır və mən bundan təəssüf hissi keçirirəm", - deyən Prezident İlham Əliyev bunu həmin yazıların müəlliflərinin özlərinin də yaxşı bildiyini vurğuladı və qeyd etdi ki, Azərbaycanda bir neçə ildir fəaliyyət göstərən Almaniya səfiri də ölkəmizdə gedən proseslərin şahididir. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan haqqında bilərəkdən çox mənfi təəssürat yaradılır. Dövlətimizin başçısı dedi: "Bütün bunlar bizim həyata keçirdiyimiz işlərə mane ola bilərmi?! Xeyr! Biz istər ərazi bütövlüyünün bərpası, istər iqtisadi gündəliyimizlə bağlı öz xalqımızın, ölkəmizin rifahı naminə işlər görürük".

Azərbaycanın özünü təmin edən ölkə olduğunu qeyd edən dövlətimizin başçısı bildirdi ki, bizdə gedən proseslər və həyata keçirilən işlər normal həyatı təmin edir. Kimsə bizim inkişafımıza töhfə vermək istəyirsə biz minnətdar olarıq. Bu olmazsa biz yenə də təəssüflənməyəcəyik.

Sovet dövründə 70 il ölkəmizin dövlətçilikdən məhrum olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenicə bərpa etdiyi vaxtda Ermənistanın ölkəmizə qarşı təcavüzü ilə üzləşdi və müstəqilliyin bərpasından 4 ay sonra ermənilər Xocalı soyqırımını törətdilər. Yüzlərlə şəhər və kəndimizi işğal etdilər, oraları dağıtdılar. Otuzillik bir müddətdə özlərini beynəlxalq birlik adlandıran Fransa, ABŞ və Rusiya – həmsədrlər ədalətin bərpa olunması üçün heç bir addım atmadılar. Biz öz torpaqlarımızı azad etməyə başlayanda bu üç ölkə bizə təzyiqlər göstərməyə başladı. Hər biri bizi öz yolumuzdan döndərmək üçün müxtəlif alətlərdən istifadə etdi. Onlar istəmirdilər ki, biz öz torpaqlarımızı azad edək.

Ötən ilin sentyabrında biz separatizmə son qoyduğumuz zaman onlar yenə də səhv etdilər. Onların bəziləri indi də səhv edirlər. Mən ABŞ və Fransanı nəzərdə tuturam. Düşünürəm ki, Rusiya indi nəyin baş verdiyini yaxşı anlayır və yeni reallıqları qəbul edir. ABŞ və Fransa da eyni cür hərəkət etməlidirlər. Əks təqdirdə, vəziyyət onların planlaşdırdığı kimi olmayacaq. Bu ölkələr Cənubi Qafqazda buranın aparıcı ölkəsi, iqtisadiyyatı, ordusu, geniş beynəlxalq əlaqələri olan Azərbaycan ilə işləməlidirlər.

Almaniyanın ölkəmizdəki səfiri verilən məlumatlara görə dövlətimizin başçısına minnətdarlığını bildirdi və qeyd etdi ki, həqiqətən ölkəmiz haqqında təəssüratlara malik olmaq üçün buradakı prosesləri öz gözləri ilə görmək vacibdir və elə nümayəndə heyətinin səfərinin məqsədlərindən biri də bundan ibarətdir.

Mixael Harms Münxendəki görüşdən az müddət sonra yenidən Azərbaycan Prezidentinin qəbulundan şərəf hissi keçirdiklərini bildirdi və buna görə minnətdarlığını ifadə etdi. Qonaq ölkəmizə infrastruktur, sənaye, kənd təsərrüfatı, bank və maliyyə, alternativ enerji və digər sahələrlə məşğul olan 40-dan artıq şirkətin rəhbəri və nümayəndələri ilə gəldiklərini vurğulayaraq, Azərbaycanda səmərəli görüşlər keçirdiklərini bildirdi. O, müzakirələr zamanı belə bir nəticəyə gəldiklərini qeyd etdi ki, Azərbaycan iqtisadi islahatlarla bağlı böyük işlər həyata keçirir. Digər nəticə bundan ibarətdir ki, ölkələrimizin yalnız ənənəvi enerji sektorunda deyil, başqa sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanları var.

O vurğuladı ki, Almaniya biznes dairələri Azərbaycanın Cənubi Qafqazda sülh proseslərinə sadiqliyini yüksək qiymətləndirir və bu da öz növbəsində bütün regionda müsbət inkişafın əsasını qoya bilər.

Görüşdə iqtisadi əlaqələrin perspektivləri, o cümlədən energetika, birgə layihələr, investisiya və digər sahələrdə əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Koreya Respublikasının hökuməti və xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Uzaqgörənliyiniz və liderliyiniz sayəsində Azərbaycan Respublikasının davamlı şəkildə inkişaf edəcəyinə əminəm.

Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulduğu 1992-ci ildən bəri müxtəlif sahələrdə dostluq və əməkdaşlıq münasibətlərimiz genişlənmişdir. Son dövrlərdə enerji, infrastruktur, səhiyyə, "ağıllı kənd" və digər sahələrdə əməkdaşlığın möhkəmləndirilməsindən xüsusilə böyük məmnunluq duyuram.

Əminəm ki, birgə səylərimizlə ölkələrimiz arasında ikitərəfli əlaqələr daha da inkişaf edəcəkdir.

Sizə cansağlığı, Azərbaycan Respublikasına daimi inkişaf arzu edirəm.

**Hörmətlə,**

***YunS h YOL,***
***Koreya Respublikasının Prezidenti***

***

**Cənab Prezident!**

Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin Sizin rəhbərliyinizlə bundan sonra da möhkəmləndirilməsi istiqamətində Kubanın qətiyyətli mövqeyini bir daha ifadə edirəm.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Migel Dias-Kanel BERMUDES,***
***Kuba Respublikasının Prezidenti***

***

**Möhtərəm cənab Prezident!**

Qardaş Azərbaycan xalqının etimad göstərərək Sizi yenidən Prezident seçməsi münasibətilə Zati-alinizə türkmən xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuruq. Bu etimad ötən illər ərzində Sizin müdrik rəhbərliyinizlə quruculuq, tərəqqi və firavanlıq istiqamətində görülmüş işlərin məntiqi təzahürüdür.

Seçkilərdəki qələbəniz ölkənizdəki nailiyyətləri və uğurlu islahatları cəsarət və bacarıqla davam etdirmək əzminizin, qardaş Azərbaycan xalqının inkişaf, rifah və yüksəliş arzularını həyata keçirməkdə Zati-alinizə yüksək inamın təcəssümüdür.

Uca Allahdan Sizə möhkəm cansağlığı, Azərbaycan Respublikasına uğurlar diləyirik.

**Dərin ehtiramla,**

***Casim Məhəmməd Cəfər Əl-BAYATİ,***
***İraq Türkmənləri İslam Birliyinin baş katibi,***
***İraqın sabiq gənclər və idman naziri və deputatı***

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə Ümumdünya Ərzaq Proqramının adından ən səmimi təbriklərimi çatdırıram.

Həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın ev sahibliyi edəcək ölkə kimi seçilməsi ilə əlaqədar Sizi təbrik edirəm. Azərbaycan Respublikası üçün bu tarixi məqam qida təhlükəsizliyi, iqlim dəyişikliyi və sülh kimi məsələlərin qlobal siyasi gündəliyin ön sıralarına qoyulması baxımından fürsətdir.

Zati-aliləri, əminik ki, Sizin müdrik liderliyinizlə Azərbaycan Hökuməti münaqişədən əziyyət çəkən və digər həssas bölgələrdə iqlim dəyişikliyinin qida təhlükəsizliyinə təsiri kimi qlobal çağırışlarla mübarizəni davam etdirəcək.

BMT-nin Ümumdünya Ərzaq Proqramı qida təhlükəsizliyi və iqlim dəyişikliyi kimi prioritet məsələləri qlobal gündəliyin əsas mövzusu kimi saxlamaq üçün birgə çalışmağa hazırdır.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul edin.

**Dərin hörmətlə,**

***Sindi MAKKEYN,***
***BMT-nin Ümumdünya Ərzaq Proqramının icraçı direktoru***

***

**Hörmətli cənab Prezident!**

Bu il fevralın 7-də keçirilmiş seçkilərdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Britaniya parlamentində Azərbaycanla dostluq qrupu adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırıram. Bu inamlı qələbə Sizin Azərbaycan xalqına sədaqətli xidmətinizin və xalqın Zati-alinizə olan güclü etimadının göstəricisidir.

Ölkələrimiz arasında strateji tərəfdaşlıq adlandırdığımız güclü ikitərəfli əlaqələr mövcuddur. Böyük Britaniya ilə Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsində və genişlənməsində parlamentlərarası əlaqələrin mühüm rolu olmasından məmnunluq duyuruq.

Qarşıdakı illərdə Böyük Britaniya-Azərbaycan əlaqələrini daha da gücləndirmək üçün Sizinlə sıx əməkdaşlıq etməyi səbirsizliklə gözləyirəm.

Fürsətdən istifadə edərək Azərbaycanı bu ilin noyabrında COP29-a ev sahibliyi etməsi münasibətilə təbrik edirəm və Böyük Britaniyanın COP-un uğurla keçirilməsində ölkənizə dəstək verməyə hazır olduğunu vurğulayıram.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və bütün işlərinizdə davamlı uğurlar, o cümlədən Azərbaycan Respublikasına daimi rifah diləyirəm.

**Hörmətlə,**

***Bb BLƏKMƏN,***
***Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycanla dostluq qrupunun sədri***

# Prezident Administrasiyasının rəhbəri yeni ədliyyə nazirini kollektivə təqdim edib

**Fevralın 28-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev ədliyyə naziri Fərid Əhmədovu kollektivə təqdim edib.**



Təqdimat mərasimində çıxış edən Samir Nuriyev müstəqil Azərbaycan Respublikasında müasir ədliyyə sisteminin formalaşması və inkişafının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. Qeyd edib ki, ulu öndərin rəhbərliyi ilə həyata keçirilmiş ardıcıl və məqsədyönlü hüquqi islahatlar nəticəsində Azərbaycan ədliyyəsi beynəlxalq norma və prinsiplərə uyğun yeni inkişaf yoluna qədəm qoydu, onun çoxşaxəli fəaliyyətini tənzimləyən normativ-hüquqi baza formalaşdırıldı, nazirliyin səlahiyyətləri genişləndirildi, cəmiyyətdə rolu artdı.

Prezident Administrasiyasının rəhbəri bildirib ki, hüquqi dövlət quruculuğu prosesini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ədliyyə sisteminin inkişafı məsələlərini və ümumilikdə hüquq islahatlarını daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısının təsdiq etdiyi qanunvericilik aktları ilə Ədliyyə Nazirliyinin yeni fəaliyyət istiqamətləri, vəzifə və hüquqları, ədliyyə orqanlarında qulluq keçmənin qaydaları və şərtləri müəyyən olunub, ədliyyə orqanlarının inkişaf etdirilməsi məqsədilə müvafiq addımlar atılıb. Azərbaycan Prezidentinin hüquqi dövlət quruculuğu prosesində ədliyyənin rolunun gücləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər dövlət başçısının qanunun aliliyinin təmin olunmasına və insan hüquqlarının etibarlı qorunmasına xüsusi önəm verdiyini aydın göstərir.

Qarşıdan gələn dövrdə nazirliyin qarşısında duran vəzifələrlə bağlı Prezident İlham Əliyevin tapşırıqlarını diqqətə çatdıran Samir Nuriyev kollektivin öz səylərini əsirgəməyəcəyinə inandığını bildirib, bu işdə yeni təyin olunmuş nazirə və kollektivə uğurlar arzulayıb.

***XQ***

# XII Azərbaycan-Rusiya Regionlararası Forumunun iştirakçılarına

**Hörmətli Forum iştirakçıları.**

İlk növbədə, sizi XII Azərbaycan-Rusiya Regionlararası Forumunun açılışı münasibətilə təbrik etmək istərdim. Artıq yaxşı ənənəyə çevrilmiş bu tədbirin keçirilməsi Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verir.

Bu formatda regionlararası forumlar artıq öz səmərəliliyini sübuta yetirib. Hakimiyyət nümayəndələrinin, işgüzar və ekspert dairələrinin Forum çərçivəsində görüşləri keçirilir, konstruktiv və açıq dialoq aparılır. Bu, əlaqələr qurmağa, gələcək birgə fəaliyyət naminə səylərimizi əyani surətdə koordinasiya etməyə, əməkdaşlığın genişləndirilməsi perspektivlərini müzakirə etməyə imkan verir. Forum Azərbaycan Respublikasının regionları ilə Rusiya Federasiyasının subyektləri arasında birbaşa qarşılıqlı faydalı əlaqələrin yaradılması üçün tələbat duyulan platformadır.

Məmnuniyyətlə qeyd etmək istərdim ki, qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan tərəfdaşlığımız çoxşaxəlidir və demək olar ki, bütün sahələri əhatə edir. Bu gün ölkələrimiz arasında iqtisadi-ticari əməkdaşlıq dinamik şəkildə inkişaf edir, ticarət dövriyyəsi artır, yeni istiqamətlər üzrə işlər davam etdirilir. Forum çərçivəsində nəqliyyat-logistika, sənaye, kənd təsərrüfatı və ekoloji sahələrdə qarşılıqlı fəaliyyətin müzakirəsi iki ölkənin regionlararası səviyyədə əlaqələri daha da dərinləşdirmək istəyini əyani şəkildə nümayiş etdirir.

Əlamətdar haldır ki, bugünkü Forum Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin imzalanmasının ikinci ildönümündə keçirilir. İki il bundan əvvəl - 2022-ci ilin fevralında xalqlarımız arasında tarixi dostluq və mehriban qonşuluq ənənələrinə, dərin mədəni və humanitar əlaqələrə əsaslanaraq, dövlətlərarası münasibətlərimizi keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldıran bu mühüm sənəd imzalanıb.

Əminəm ki, bu Forum əvvəlkilər kimi, yaradıcı atmosferdə keçiriləcək, ümumi yanaşmaların işlənib hazırlanması üçün əlamətdar hadisə olacaq və dost ölkələrimizin rifahı naminə nəzərdə tutulan bütün məqsədlərə nail olmağa kömək edəcək.

Forumun bütün iştirakçılarına uğurlu və səmərəli iş arzulayıram!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 24 fevral 2024-cü il**

# Şimal qonşumuzla isti münasibətlər

**Fevralın 28-də Rusiyanın Stavropol diyarının Mineralnıe Vodı şəhərində Azərbaycan İqtisadiyyat Nazirliyinin və Rusiya İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə 12-ci Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib.**



Forum işini KOB sahəsində əməkdaşlığa həsr olunmuş B2B və B2G formatlarında görüşlər və müxtəlif istiqamətlər üzrə dəyirmi masalarda təşkil olunmuş müzakirələrlə başlayıb.

Yekunda keçirilən plenar iclasda Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putinin forum iştirakçılarına müraciətləri oxunub.

Azərbaycan Respublikasının Prezidentinin müraciətində qeyd olunub ki, qarşılıqlı hörmət və etimada əsaslanan tərəfdaşlığımız praktik olaraq bütün sferaları əhatə edir.

Baş nazirin müavini, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev qeyd edib ki, Rusiya Azərbaycanın mühüm ticarət tərəfdaşlarından biridir və qeyri-neft məhsullarımızın ixracında birinci yerdədir. 2023-cü ildə Rusiya ilə ticarət dövriyyəsi 17,5 faiz artaraq 4,4 milyard dollara çatmışdır.

Bildirilib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ölkələrimizin əraziləri vasitəsilə Cənubi Asiyadan Avropaya yüklərin daşınması üçün optimal imkanların yaradılmasına yönəlib və 2023-cü ildə dəhlizlə yükdaşımaların həcmi təxminən 17 faiz artıb.

İclasda çıxış edənlər ölkələrimiz arasında tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsinə dair fikir və təkliflərini bölüşüblər.

***XQ***

# Bakı Təşəbbüs Qrupu: neokolonializmlə mübarizədə yeni tarixi səhifə

**II MƏQALƏ**

**Mən zənciyəm, zənci olaraq da qalacağam.**

**Eme Sezer**

## Sezerin müstəmləkə hekayəsi

Eme Sezer şair və siyasətçi olmuşdur. 1913-cü ildə Bas-Puentdə dünyaya gəlmişdir. Ölkəsinin adı Martinikadır. Bu, Atlantik okeanında yerləşən adadır. Qərb sahillərini Karib dənizi yuyur. Ərazisi 1.128 kvadratkilometrdir. Xristofor Kolumb onu dünyanın ən gözəl ölkəsi adlandırmışdır. 1946-cı ilə qədər Fransanın müstəmləkəsi olmuşdur. 1946-cı ildə E. Sezerin də fəaliyyəti sayəsində Fransanın dənizaşırı departamenti hüququnu qazanmışdır. Bu ölkənin müstəqilliyi uğrunda "Martinikanın Müstəqillik Hərəkatı" və "Ekoloqların və demokratların suveren Martinika Uğrunda Hərəkatı" mübarizə aparır. Çünki Fransa istismarı ölkənin təbiətini böyük təhlükə qarşısında qoymuşdur!

Eme Sezerin həyatı Martinikanın kiçik hekayəsidir. Belə ki, Fransada kollecdə təhsil almışdır. 1930-cu illərdə Parisdə "Qara tələbə" jurnalını yaratmışdır. İkinci dünya müharibəsi zamanı Martinikaya qayıtmışdır. Paytaxt For-de-Fransın 1945-2001-ci illərdə meri olmuşdur ki, bu da bir epoxadır. Eyni zamanda, 1946-1956-cı illərdə və 1958-1993-cü illərdə Fransa Milli Məclisində işləmişdir. 2008-ci ildə dünyasını dəyişmşdir.

O, "mən zənci olaraq qalacağam" fikrini elə-belə söyləməmişdir. Bu, bir Martinika müstəmləkə məmləkətinin vətənpərvər ziyalısının Fransa müstəmləkəçilik siyasətinə daxili və intelektual etirazı idi. Onu nəzərə almaq lazımdır ki, Martinikanın müstəmləkə statusundan dənizaşırı Fransa departamenti statusuna yüksəlməsində E.Sezerin rolu çox olmuşdur. Lakin yenə də fikir verin: Paris Fransa mühitində təhsil almış bir xarici insanla iş görmüşdür! O, milli olanlara yuxarıdan aşağı baxır və onları mədəniyyətsiz hesab edirdi! İndi Fransanın mövqeyində nə dəyişib ki?...

## Kolonialist Fransa – yazıq fransızlar!

Fransa XXI əsrə 13 müstəmləkə ərazisində ağalıq etməklə başladı. Bu ərazilərdəki təbii sərvətləri qəsb etdi. Bu proses indi də davam etməkdədir. Qəribəsi odur ki, ərazicə çox-çox uzaqlarda olan özgə torpaqlarını işğal altında saxlayan, əsrlərlə onların var-dövlətini talan edib Fransaya daşıyan bir Avropa dövləti Cənubi Qafqazda mövcud olan bir münaqişəni ədalətli həll etmək iddiasını ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi davam etdirirdi. Maraqlıdır ki, Azərbaycan torpaqlarının işğalı səbəbindən başlayan Azərbaycan-Ermənistan münaqişəsinin "ədalətli" həll edilməsinə müvəkkil olunmuş hər üç dövlət (ABŞ, Fransa və Rusiya) müstəmləkəçi idi. Onlardan ABŞ və Fransa aktiv müstəmləkəçi idilər, Rusiya isə Cənubi Qafqazı xeyli öncə işğal etmiş dövlətdir. Bu üç dövlətin münaqişənin ədalətli həllində uğursuzluqlarının kökündə, məncə, məhz bu faktor dayanır. Yəni, onlar faktiki olaraq problemi ədalətli və hüquqi əsasda aradan qaldırmaqda dərindən maraqlı deyildilər.

Fransanın müstəmləkəçi xisləti isə daha qabarıq özünü göstərir. Bunu onun həmsədr kimi fəaliyyəti ilə yanaşı, məsələni Azərbaycan təkbaşına ədalətli həll edəndən sonra rəsmi Parisin atdığı addımlar da sübut etməkdədir. Fransa Afrikadakı istismarçılığını bir heç sayaraq, ona münasibəti ilə Cənubi Qafqazda erməni işğalına açıq dəstək verməyi birləşdirmişdir. Ona elə gəlir ki, Afrikada müstəmləkəçi Qafqazda isə "ədalətli vasitəçi", "liberalizm və demokratiya tərəfdarı" ola bilər. Eyni zamanda, özü bu "geosiyasi bataqlığın" içində qalmaqla başqalarını nədəsə ittiham edə bilər. Qarşılığında da heç bir əks-təsir görməli deyil!

Azərbaycan həm ölkə rəhbərinin dərin diplomatiyası, həm beynəlxalq təşkilatlardakı fəaliyyəti, həm də xüsusi Bakı Təşəbbüs Qrupunu yaratmaqla Parisin bu xülyalarını darmadağın etdi. İndi Eyfel qülləsi mədəni dünyanın "fəxarət zirvəsi" kimi deyil, haqlı olanlara şər-böhtan yuvası kimi görünür. Bu prizmadan baxanda Azərbaycan, əslində, həm bütövlükdə dünya ictimaiyyətinə, həm də ayrıca Fransanın dövlət kimi imicini bərpa etməyə böyük yardım göstərir. Fikrimizi izah etməyə çalışaq.

## Xaos və təhlükələrlə mübarizədə dünya seçimi

Sözün əsl mənasında, dünya xaosla mübarizədə çox çətinlik çəkir. Bir sıra böyük dövlətlərin əsassız iddiaları qarşısında sülhün başı "aşağı" düşmüşdür. Dünyanın əksər dövlətləri haqqa, ədalətə və beynəlxalq hüquq normalarının işlədiyinə inanmırlar. Müxtəlif ölkə rəhbərləri bu və ya digər kontekstlərdə bunu ifadə etmişlər və o, davam edir. Bu xüsusiyyət yalnız dünyanın müəyyən regionlarına xas olan geosiyasi reallıq deyildir – bütövlükdə bəşəriyyəti silkələyən prosesdir. Çox təəssüfedicidir ki, bu fəlakəti görə-görə bir sıra böyük dövlətlər öz xislətlərindən əl çəkmirlər və meydana yeni-yeni risklər çıxır. Afrikada, Avrasiyada, Uzaq Şərqdə, Latın Amerikasında, Yaxın Şərqdə bunun əlamətlərini aydın görmək mümkündür.

Deməli, bütövlükdə bəşəriyyət xaos və təhlükələrlə mübarizə dövründədir. Belə bir şəraitdə özlərini güclü hesab edən dövlətlər necə davranmalıdırlar? Onlar, hər şeydən öncə, bəşəriyyəti bürüməkdə olan bu xaos alovunu söndürməyə çalışmalıdırlar. Reallıq isə başqa proseslərin getdiyini nümayiş etdirir. Fransanın Afrika və Qafqaz istiqamətlərində yeritdiyi siyasətə də vahid bucaq altında baxanda həmin qeyri-müəyyənliyi, riskləri və təhdidləri görə bilərik.

Fransa hazırda XVI əsrdə ispanların Latın Amerikası siyasətindən fərqli davranmır. İspanlar hansı vəhşiliklə İnka İmperiyasının başçısını siyasi riyakarlıq işlədərək məhv etdilərsə, Fransa "daha sivil" üsularla, lakin mahiyyətcə ispan davarınışdan fərqlənməyən üsullarla 13 müstəmləkə ərazisini talayır. Onların dilini, təhsilini, mentalitetini, mədəniyyətini, azad olmaq və müstəqil dövlət ola bilmək düşüncələrini vəhşicəsinə məhv edir. Ümumiyyətlə, Avropa dövlətlərinə xas olan bu xüsusiyyəti B.Anderson, P.Feyerabend, O.Şpenqler və digər vicdanlı alimlər kəskin tənqid etmişlər. Onlar açıq yazmışlar ki, avropalılar özlərinin qərəzli, riyakar və müstəmləkəçi siyasətləri ilə çox sayda tayfaları, onların mədəniyyətlərini, mental özəlliklərini məhv etmişlər və bununla, bütövlükdə, dünyaya böyük zərər vermişlər. Fransanın Afrikada etdiyi bundan başqa bir şey deyildir. Onun müstəmləkəçiliyinə qarşı üsyanlar həmişə olmuşdur və indi də davam edir. Təsadüfi deyildir ki, Bakı Təşəbbüs Qrupunun tədbirlərinə müstəmləkə altında olan Afrika ölkələrinin təmsilçiləri aktiv surətdə qatılır və Fransanın orada etdiklərini sərt formada tənqid atəşinə tuturlar. Deməli, Bakı afrikalılara öz haqlarını tanımaqla yanaşı, onun uğrunda hüquqi mübarzə aparmağı da öyrədir. Bu da bəşəri bir xidmətdir!

## SOS! Fransa Qafqazda

İndi Fransanın Qafqazdakı fəaliyyətinə nəzər yetirək. Təəccüblüdür ki, rəsmi Paris Qafqaza da Afrika kimi baxır. Fransanın enerji və təbii sərvətlər izində olduğu haqqında KİV-də xeyli yazılar dərc edilmişdir. Rəsmi Paris müxtəlif üsullarla bu məqsədinə çatmağa çalışır. O, burada ermənilərdən vasitə kimi istifadə edir. Ermənilər də buna gedirlər, çünki onların siyasi şüuru əsrlərdir ki, kölə şüurudur. Bəzi hallarda erməni siyasi şüuru mazoxistcəsinə istismar olunmasını və təhqir edilməsini istər. Fransa da, bundan istifadə edir. Ermənistan rəhbərliyinə şişirdilmiş vədlər verərək, onları müxtəlif təxribatlara sürükləyirlər. Azərbaycandan aldıqları sərt cavablar erməniləri durdurur. Lakin onlar hələ də tamamilə fransız müstəmləkə hikkəsindən yaxa qurtara bilmirlər.

Həmin aspektdə Fransanın "erməni hüququ"ndan danışması boş sözlərdən başqa br şey deyildir. Çünki əgər, doğrudan da Parisi kimlərinsə hüququ real olaraq maraqlandırsaydı, öncə Ermənistandan və Qarabağdan qovulan milyon nəfər azərbaycanlının hüquqlarını dilə gətirərdi. Ermənilərə deyərdi ki, azərbaycanlılara qarşı işlətdiyiniz hüquqi pozuntuları bərpa etmədən hər hansı erməni hüququndan danışmağın yeri yoxdur. Eyni zamanda, Azərbaycan ermənilərin hüquqlarını pozan bir addım belə atmamışdır. Azərbaycan dövlət, xalq və toplum olaraq öz torpaqlarını işğaldan azad etmişdir. Vəssalam!

İndi bir neçə yüksəkliyi Azərbaycan Ordusunun nəzarətdə saxlaması da Azərbaycan ərazisinə qarşı törədilən təxribatların qarşısını almaq üçündür və faydasını hər kəs görür. Artıq ermənilər geniş əl-qol aça bilmirlər.

Belə çıxır ki, Fransa Qafqazda da üstüörtülü müstəmləkəçi siyasətini davam etdirməyə çalışır. Bunun qarşısında isə dayanan yeganə Azərbaycandır. Təcrübə göstərdi ki, hətta, Gürcüstan müəyyən məqamlarda müstəmləkəçi qarşısında geri çəkilir. Saxta "Avropa dəyərləri universaldır" tezisi gürcü siyasi şüurunu da çaşdırır. Bakı Təşəbbüs Qrupu bütün bunlara görə, real xilas platformasıdır! Səbəblərini izah etməyə çalışaq.

## Bakı Təşəbbüs Qrupu – strateji platforma

### a) Qlobal kontekst

Məsələnin bu aspekti qlobal miqyasda aktualdır. Çünki hazırda dünyanın əksər dövlətlərində indi mövcud olan qlobal güclərin ədalətsiz və beynəlxalq hüquqa uyğun olmayan hərəkətlərinə qarşı real addım atmağın faydasına inanmırlar. Bu inamsızlıq, bütövlükdə, bəşəri səviyyədə bir bədbinlik yaradır ki, bunun da inkişaf etmiş forması psixoloji natamamlıq kompleksidir. Dünya xalqları öz gələcəklərinə psixoloji natamamlıq sindromu ilə baxarlarsa, heç bir sahədə etibarlı inkişafdan danışmaq mümkün olmaz.

Digər tərəfdən. hələ keçən əsrin 80-90-cı illərindən siyasilər, alimlər, iş adamları, KİV




nümayəndələri mövcud əməkdaşlıq formatının qlobal miqyasda yeniləşməsi zərurətindən bəhs edirlər. Deməli, illərdir ki, dünya siyasi şüuru dilemma qarşısındadır və faktiki olaraq, "qapalı psixoloji dairədə" çapalayır: bir tərəfdən hüquqsuzluğu, ədalətsizliyi hamı görür, digər tərəfdən ona qarşı mübarizə aparmağın müsbət nəticə verəcəyinə inanmır. Məhz bu kimi qapalı psixoloji dairələri qırmaq üçün liderlərin aktiv fəaliyyəti lazımdır.

Keçən əsrin 90-cı illərində Ulu öndər bunun nümunəsini BMT-nin tədbirlərində göstərdi. Açıq ifadə etdi ki, dünya belə davam edə bilməz – böyük dövlətlərin özlərinə və dünyaya münasibətləri yenilənməlidir. Sonra R.T.Ərdoğan Ulu öndərin izi ilə gedərək "dünya beşdən böyükdür" tezisini ifadə etdi. Bunlarla yanaşı, XXI əsrdə Azərbaycan Prezidenti İlham Əliyev həm konseptual fikirlər irəli sürdü, həm də onları birbaşa praktikada reallaşdırmağa başladı. Yeni müstəmləkəçiliyə qarşı Bakı Təşəbbüs Qrupunun yaradılması birbaşa həmin fəaliyyətin məntiqi və praktiki davamıdır.

### b) Regional və beynəlxalq təşkilatlar çevrəsi

Fiolosof və politoloqların qənaətinə görə, dünyanın qlobal miqyasda ziddiyyətlərə düçar olmasının kökü hazırda öz iradələrini diktə etməyə çalışan 5 dövlətə alternativ gücün olmaması ilə bağlıdır. Başqa yöndən baxanda, bu, o deməkdir ki, dünya miqyasında gücləri balanslaşdıra biləcək yeni qlobal geosiyasi qüvvə yaranmalıdır. Bu keyfiyyətdə Qoşulmama Hərəkatına müəyyən ümidlər vardır. Azərbaycan Prezidenti İlham Əliyev də Qoşulmama Hərəkatının dünyanın yeni geosiyasi güc mərkəzi kimi balanslaşdırıcı funksiya yerinə yetirə biləcəyini ifadə etmişdir. İlham Əliyevin təşkilatdakı fəaliyyəti məhz bu strateji məqsədə çatmağa tam uyğundur. Pandemiya mərhələsində Azərbaycan Prezidentinin təbəbbüsü ilə Qoşulmama Hərəkatının təklifi kimi BMT beynəlxalq miqyasda ədalət məsələsini müzakirə etdi. İndi isə yenə də Azərbaycan Prezidentinin təşəbbüsü və təklif etdiyi format əsasında dünyada yeni müstəmləkəçiliyə qarşı mübarizə üçün Bakı Təşəbbüs Qrupu yaradılmışdır. Bununla Azərbaycan həm yeni qlobal geosiyasi gücün özünütəsdiqi üçün təşəbbüslərə davam edir. Həm dünya xalqlarını nikbinliyə və fəaliyyətə səsləyir, həm də regional və milli miqyaslarda ciddi bir prosesi motivə edir.

## Türk dünyası və Bakı Təşəbbüs Qrupu

Bakı Təşəbbüs Qrupu yeni müstəmləkəçiliyə qarşı fəal mübarizə aparmaqla ən azı iki straeji məqsədi aktuallaşdırır. Birincisi, Cənubi Qafqazın lider dövləti kimi Azərbaycanın dünya miqyasında geosiyasi statusuna yeni məna çaları verir. Azərbaycan Avrasiyada yeganə dövlətdir ki, beynəlxalq təşkilat çərçivəsində yeni müstəmləkəçiliyə, konkret olaraq, Fransa müstəmləkə siyasətinə qarşı dövlətlərin mübarizəsini yönləndirir, onlara məzmun və məqsəd verir. Bu, müstəqil bir dövlətin regional miqyası aşaraq, yeni səviyyədə təsir gücünü artırması deməkdir. Özü də Qərb siyasilərinin çox sevdiyi "yumşaq güc" vasitəsilə bunu etməkdədir. Belə ki, müstəmləkə siyasətinin qurbanlarının özləri bu mübarizəni sırf hüquqi müstəvidə aparırlar. Bununla onlar həm özlərinə inam yaradırlar, həm də Fransa kimi istismarçıların real simalarını dünyaya göstərirlər. Fransa artıq insanların təsəvvürlərində demokratiya beşiyi deyildir!

Lakin Bakı Təşəbbüs Qrupunun fəaliyyətinin təsir dairəsi strateji aspektdə yalnız Cənubi Qafqazla məhdudlaşmır. Bütövlükdə, Türk dünyası üçün bu, çox vaclb faktordur. Biz məsələnin türklərin hüquqlarının bütün dünya üzrə təmin oluması tərəfini nəzərdə tuturuq. Afrikalıların təbii hüquqlarını müdafiə edən türk dövləti Azərbaycan avtomatik olaraq, dünyanın hər guşəsində həm də azərbaycanlıların və digər türk xalqlarının hüquqlarını qorumaq haqqı qazanır. İndən belə kimsə ciddi surətdə Azərbaycanın bu təşəbbüsünün qarşısında dura bilməz. Azərbaycan və digər türk dövlətləri insanların hüquqlarını hər zaman aktiv və real surətdə qoruya bilmək təcrübəsi qazanır və başqalarına da qazandırırlar. Yəni, Bakı Təşəbbüs Qrupu müstəmləkəçiliyə qarşı mübarizə platforması kimi bütün dünyaya nümunə ola bilər! Azərbaycan buna da nail olacaq!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Putinə başsağlığı teleqramı: Rıjkovun ölümü və subliminal mesaj

## Paşinyan nə demək istədi?

**Ermənistan baş naziri Nikol Paşinyan Rusiya Prezidenti Vladimir Putinə SSRİ-nin sonuncudan əvvəlki baş naziri Nikolay Rıjkovun ölümü ilə bağlı teleqram göndərib. Paşinyanın Putinə belə bir başsağlığı mətni ünvanlaması maraq doğurmaya bilməz.**

Doğrudur, Rıjkov adi biri deyildi. Ölümünə qədər Rusiya Federasiya Şurasının üzvü və senator olmuşdu. Ancaq 95 yaşlı bu şəxsin hazırkı statusu bir dövlət liderinin başqa dövlətin liderinə başsağlığı verməsi üçün əsas sayıla bilməz. Belə nəticəyə gəlirik ki, Nikolun məqsədi başqadır, o, öz aləmində, subliminal mesaj verir. Bu mesajın hansı məqsəd daşıdığından söz açacağıq. Hələlik isə bəzi məqamlara diqqət yetirək.

İlk növbədə bu suala cavab verək: 1929-cu ildə Ukraynada anadan olmuş Nikolay Rıjkov kim idi? Artıq qeyd etdik ki, o, SSRİ-nin sonuncu baş naziri olub. 1985-1991-ci illərdə keçmiş SSRİ Nazirlər Sovetinin Sədri işləyib. Sovet İttifaqı Kommunist Partiyasının Baş katibi Mixail Qorbaçovun ən yaxın adamı kimi tanınıb. Qeyd edək ki, əgər Qorbaçovun yarıtmaz idarəçiliyinə görə SSRİ-də millətlərarası münaqişələr yaranmışdısa, baş nazir kimi Rıjkov ölkə iqtisadiyyatının məhvində həlledici rol oynamışdı.

Paşinyan isə başsağlığı teleqramında xatırladıb ki, Rıjkov Ermənistanın Spitak bölgəsindəki minlərlə insanın ölümünə səbəb olmuş dəhşətli zəlzələnin nəticələrinin aradan qaldırılmasında fəal rol oynayıb. Əlbəttə, demək olmaz ki, artıq dünyasını dəyişmiş dövlət xadimi yalnız buna görə Ermənistanın milli qəhrəmanı adına layiq görülüb. Hər halda, Spitakda zəlzələ 1989-cu ildə olduğu halda, Rıjkova Ermənistanın milli qəhrəmanı adı 2008-ci ildə verilmişdi. Elə isə Nikolun öz teleqramında daha nələrdən söz açdığına nəzər salaq. O, Rıjkovun müxtəlif məsul vəzifələrdə çalışarkən, ən çətin anda kömək əlini uzatmış sadiq dost kimi adını erməni



xalqının yaddaşına əbədi həkk etdirdiyini vurğulayıb.

Maraqlıdır, 2019-cu ildə Rusiyanın Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş Rıjkov Rusiya Krımı ilhaq etdiyi üçün Avropa İttifaqı, ABŞ, Böyük Britaniya və başqa ölkələrin tətbiq etdiyi sanksiyaya məruz qalanlardan idi. Məlum olduğu kimi, o, kifayət qədər, aydın formada Krımı rus torpağı kimi qələmə verən fikirlər səsləndirmiş, təbliğat aparmış və bu, Qərbdə böyük hiddət doğurmuşdu. Əlbəttə, Qərbpərəst Paşinyanın əvvəldə yaşananları düşünməməsi mümkünsüzdür. Ancaq, heç şübhəsiz, onun düşündüyü fərqli mətləblər var.

Yəni, məsələ təkcə Rıjkovun Spitak zəlzələsi kimi çətin durumda ermənilərə göstərdiyi dəstəkdə deyil. SSRİ-nin baş naziri postunu tutmuş bu şəxs, ümumən, belə demək mümkünsə, erməni sevdalısı idi. Nəzərə alaq ki, Sovetlər Birliyinin gözəgörünməz, üzdə olmayan idarəedicilərindən sayılan Rıjkov dövlətdə ən məsul vəzifəni 1985-1991-ci illərdə tutmuşdu. O illərdə ki, erməni avantürası baş qaldırmış və özünün ekstremizmə söykənmiş işğalçı mahiyyətini ortaya qoymuşdu. Heç şübhəsiz, SSRİ-nin ikinci şəxsinin də prosesdə "rolu" olmuşdu. 1990-cı il yanvarın 20-də Bakıya sovet qoşunlarının yeridilməsində də, həmçinin.

Amma daha əvvələ qayıdaq. 1982-ci ildən SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini işləyən ulu öndər Heydər Əliyevi 1985-ci ildə hakimiyyətə yiyələnmiş M.Qorbaçovun gözü götürmürdü. Ulu öndərə qısqanclıqla yanaşanlardan biri də həmin vaxt Nazirlər Sovetinin sədri, yəni baş nazir Rıjkov olmuşdu. Bunu 1982-1987-ci illərdə SSRİ Nazirlər Sovetində şöbə müdiri işləmiş İqor Prostyakov da təsdiqləyib. İ.Prostyakov bildirib ki, Qorbaçov və Rıjkov Heydər Əliyevi sıxışdırmağa başladılar və onun cavabdehlik daşıdığı sosial sahəni stimullaşdırmaq tədbirlərinin qarşısını aldılar. Keçmiş şöbə müdirinin sözlərinə görə, Əliyevlə Qorbaçov tam fərqli insanlar idilər və ikinci vəziyyəti düzgün qiymətləndirə bilmirdi. Heydər Əliyevin hazırladığı sosial layihələr müzakirəyə çıxarılan zaman dərhal Rıjkovla Qorbaçov bunun əleyhinə çıxırdılar. Bəhanə gətirirdilər ki, guya, həmin layihələrdə elmi əsaslandırma, rəqəmlər yoxdur. Amma, təbii ki, məsələ başqa idi. Hamı başa düşürdü ki, onlar Heydər Əliyevi sıxışdırmaqla məşğuldurlar. Ulu öndər keçmiş SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırıldıqdan sonra, bu sıxışdırmanın başqa, daha doğrusu, əsl səbəbi meydana çıxdı...

Bəli, N.Rıjkov erməni avantürasının dəstəkçilərindən olduğundan, Ermənistanda rəğbət qazanmışdı. Bu avantüranın Azərbaycana qarşı yönəldiyi aşkardır. Eləcə də ümummilli lider Heydər Əliyevin illərlə erməni millətçiliyinin qarşısına sədd çəkdiyi danılmaz həqiqətdir. Ümumən isə Qorbaçov ətrafına ermənipərəstləri yığmışdı. Onun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan Qarabağ avantürasının "ilhamvericilərindən" idi. Görünür, Rıjkovun "xidmətləri" daha böyük mahiyyət daşımışdı və elə bu səbəbdən müstəqil Ermənistanın milli qəhrəmanı adına layiq görülmüşdü.

Deməli, daşlar öz yerinə oturur. Bu gün Cənubi Qafqazda sülhdən danışdığını bildirən Ermənistanın baş naziri Putinə N.Rıjkovun vəfatı ilə bağlı başsağlığı verirsə, keçmişin xislətinə söykənir, bu, öz yerində. Bəs, Paşinyanın Putinə subliminal mesajı nədən ibarətdir? Axı əvvəldə də bildirdik ki, onun, yəni Ermənistan liderinin Rusiyanın dövlət başçısına Rıjkovun vəfatı ilə bağlı başsağlığı ünvanlaması təəccüblüdür.

Beləliklə, Paşinyanın Putinə başsağlığında iki motiv var. Birincisi, o, Rusiya Prezidentinə dolayısı ilə Ermənistanı darda qoyduğunu bildirir. Teleqramdakı "erməni xalqının ən dar günlərində" məntiqi budur. Əlbəttə, Nikol Qərbpərəstdir, obrazlı desək, arxalandığı dağlar başqadır, əslində, Moskvanın köməyini heç istəmir də. Elə isə Paşinyanın subliminal mesajının ikinci və daha vacib hissəsinə keçid alaq.

Bəli, erməni baş nazirin teleqramı həm də öz ölkəsinin daxilinə hesablanıb. Yəni 95 yaşlı Rıjkovun dünyasını dəyişməsi, onun üçün fürsətdir. İrəvanın anti-Rusiya ritorikasını körükləmək fürsəti. Paşinyan Rıjkovun, yəni bilavasitə erməni sevdalısının ölümünə diqqət çəkməklə, hazırda Rusiyada belə ampluada olan birinin mövcudsuzluğu mesajını verir. Bu mesaj Rıjkovun simasında ermənipərəstliyin sonuncu rus mogikanı obrazını yaratmağa hesablanıb.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Qərbin Cənubi Qafqaz cəbhəsi: Ermənistana səngər yox, qəbir qazdırırlar

(əvvəli 1-ci səhifədə)

Ermənistanın hakim dairələrinin, eləcə də onlara yaxın ekspert və politoloqların təbliğatı budur ki, ölkə ilə Qərb arasında əməkdaşlığın dərinləşməsi birincinin dövlətçiliyinin təşviqi üçün son dərəcə vacibdir. Ziddiyyətə baxın, pis-yaxşı otuz ildən artıqdır dövlət kimi meydanda olublar, indi ayılıblar ki, dövlətçiliyi qorumaq lazımdır. Deməli, özləri də ötən müddətdə dövlətlərinin olmamasının fərqindədirlər.

Əlbəttə, indi də böyük ölçüdə düşündükləri dövləti qorumaq və möhkəmləndirmək deyil. Bu ad altında destruktiv siyasətə köklənirlər. Tarix boyu da belə olublar – sakit, sabit yaşaya, qonşularla normal keçinə bilməyiblər. Tarixdən söz düşmüşkən bildirək ki, XIX əsrin sonlarına doğru erməni məsələsi aktuallaşmış və ondan Osmanlıya qarşı istifadəyə baş vurulmuşdu. Bu, Qərbin planı idi. Lakin sonradan elə vəziyyət yarandı ki, Qərb özünün Şərq ekspansiyasının davamını "Yunan məsələsi"ndə görməyə başladı. Həmin vaxt ermənilər tarixin ümidinə buraxıldılar.

Osmanlıya qarşı hər cür rəzilliyi, vəhşiliyi və quldurluğu həyata keçirən erməni türklərlə baş-başa buraxılanda acınacaqlı duruma düşdü. Osmanlı dövləti asilərin gələcəkdə birlik olmalarının qarşısını almaq üçün məqsədyönlü siyasət həyata keçirdi – ermənilər imperiyanın müxtəlif yerlərinə köçürüldülər. Qondarma "soyqırımı" kimi tirajlanan məsələnin əsl mahiyyəti budur. Çünki başqa çarə yox idi, ermənilər ipə-sapa yatmırdılar. Murdar xəstəlik, terrorçu mahiyyət daşıyıcılarını islah etmək lazım idi.

İslah olundularmı? Xeyr! Görünür, 44 günlük müharibə də xəstəlik daşıyıcılarını islah etmədi. Qarabağın hər yerinə səpələnmiş cəsədlərindən torpağa axmış qanlarının yeri qurumamış yenə ambisiyalara baş vurublar. Mövcud xüsusda isə haqqında söz açdığımız dövlət və dövlətçilik məsələsini əllərində bayraq ediblər. Bəli, hazırda baş nazir Nikol Paşinyan və komandası Ermənistanın yaramaz xarici siyasətinə, Azərbaycana qarşı çıxmaqla, işğalçılıq niyyəti güdən avantürizminə dövlətçiliyin müdafiəsi libası geyindirir, pafosa və ucuz populizmə baş vururlar. Əlbəttə, ölkəmizə əks mövqedə dayanmaq və bununla erməni avantürizmini diri tutmaq rəsmi İrəvan üçün müstəsna dividenddir. Daha böyük məsələ isə Qərbin Cənubi Qafqaz planlarıdır.

Qətiyyətlə demək mümkündür ki, Qərb anti-Rusiya cəbhəsinin növbəti məkanı qismində Cənubi Qafqazı seçib və mövcud seçimdə Ermənistanın "xidmətlərindən" bəhrələnmə var. İrəvan bu cəbhədə iştirakla, özünə sərfəli nəticələrə nail olmaq istəyir. İstək isə aydındır – Qarabağı ələ keçirmək və bölgəni saxta erməni milli identikliyinin rəmzi kimi saxlamaq. Eyni zamanda, nəzərə alaq ki, Ermənistan hakimiyyəti rüsvay duruma düşdüyü 44 günlük müharibədən əvvəl "Yeni ərazilər uğrunda yeni müharibə" şüarını irəli sürmüşdü…

Bəli, Qərbpərəst Ermənistan hakimiyyəti avantürist xisləti, xəstəliyi yenə bilmədi. Hazırda görünən odur ki, məhz həmin xəstəliyə söykənərək, özünün mövcudluğunu davam etdirməyi hədəf seçib. Aylar, günlər keçdikcə xəstəliyin ən müxtəlif simptomları üzə çıxır. Məsələn, indi erməni siyasilər bildirirlər ki, Kreml İrəvanın Qərblə əməkdaşlıq etməməsi üçün Azərbaycandan Ermənistana qarşı hərbi təzyiq aləti kimi istifadə edir. Guya, Bakı regionda Moskvanın nüfuzunu qorumaq üçün sülh müqaviləsinin imzalanmasına qəsdən maneçilik yaradır və Qərbin hərəkətlərinin qarşısını almaq naminə Ermənistana qarşı əsl hibrid müharibə aparır.

Maraqlıdır ki, erməni siyasi dairələri Azərbaycanla Rusiya arasında 2022-ci il fevralın 22-də imzalanmış müttəfiqlik müqaviləsinə söykənirlər və mövcud xüsusda ən böyük həyasızlığa baş vururlar. Sən demə, məhz bu sənədə görədir ki, Moskva Bakının 2023-cü ilin sentyabrında "Qarabağı işğal etməsinə", 100 mindən çox erməninin evlərindən didərgin düşmələrinə göz yumub. Guya, Qarabağdakı separatçı rejimin təmsilçilərinin də Azərbaycana təhvil verilməsi sözügedən müttəfiqlik sazişi əsasında reallaşıb (?).




Azərbaycan–Rusiya müttəfiqlik müqaviləsi səbəbindən Qarabağın hazırda Rusiya üçün yoxluğunu bildirən erməni siyasilərin gündəmə gətirdikləri fikirlər bölgənin Qərb–Ermənistan "işbirliyi" baxımından prioritetliyi üzərində dayanmağa əsas yaradır. Deməli, yuxarıda da vurğuladığımız məntiq keçərlidir. Ermənistan Qərbin Cənubi Qafqaz planlarında iştirak edəcək, bunun mükafatı isə Qarabağ olacaq. Əlbəttə, yalnız Qarabağ yox.

Ermənistan siyasilərinin uydurduqları növbəti yalan da var. Onlar bildirirlər ki, Azərbaycan, guya, son vaxtlar Ukraynaya qarşı müharibə aparan Rusiyaya böyük hərbi dəstək verib. Sən demə, "Dağlıq Qarabağın müdafiə ordusu" tərksilah edildikdən, Qarabağ hakimiyyətindən bir milyard dollara yaxın silah-sursat ələ keçirildikdən sonra Azərbaycan həmin silah-sursatı Rusiyaya təhvil verib. Hazırda isə Moskva həmin silahlardan Kiyevə qarşı istifadə edir.

Ortada paradoksal durum yaranır. Azərbaycan, əlbəttə ki, Rusiyaya silah verməyib. Milyard dollarlıq silah Ermənistan üçün böyük görünə bilər, amma Rusiya üçün belə deyil. İkincisi, otuz ilə yaxın müddətdə İrəvanı silahla təmin edən Moskva olub. Deyəsən, indi Qərbin qucağına düşən erməni hakimiyyəti və ona yaxın dairələr mövcud reallığı unudublar. Müttəfiqliyə gəlincə, Azərbaycanda sözügedən müqavilədən çox, Türkiyə ilə bağlanmış müttəfiqlik sazişi əsas götürülür. Ancaq hazırda Ermənistanda Rusiya ilə müttəfiqlik "zəngulələri" vuranların sayı Azərbaycan-Rusiya müttəfiqliyindən danışanların sayından dəfələrlə çoxdur. Paradoksallıq da elə budur.

Ermənistan siyasilərinin anti-Rusiya ovqatını anti-Azərbaycan ab-havası ilə çulğalaşdırmasına dair növbəti məqama keçid alaq. Onlar bildirirlər ki, Kreml Bakının Ermənistan ərazilərinə təcavüz reallaşdırmasına şərait yaradıb. Guya, ruslar Ermənistanın cəbhə xəttindən Azərbaycana kəşfiyyat məlumatları ötürüblər, rus hərbçiləri Azərbaycanın xeyrinə casusluq ediblər. Daha bir həyasızlıq da budur – 2024-cü il fevralın 13-də Rusiya Azərbaycana Ermənistan ərazisində işğalçılıq həyata keçirməsinə şərait yaradıb.

Belə faktların sayını artırmaq mümkündür. Sadəcə, yekun nəticə dəyişmədiyindən, erməni xəstəliyinin məhsulu kimi meydana çıxan məqamların hamısının üzərində dayanmağa lüzum görmürük.

Nəticə isə budur ki, Ermənistan obrazlı desək, Qərb cəbhəsində Cənubi Qafqaz səngəri qazmaqla məşğuldur. Qərb özü də bu səngərin qazılmasına dəstək verir. Məsələn, Avropa mediasında anti-Azərbaycan isterikası genişlənir, ölkəmizin, belə demək mümkünsə, demonizasiyası həyata keçirilir. Tam əminliklə söyləyə bilərik ki, Qərb Ermənistanı Azərbaycana qarşı müharibəyə hazırlaşdırır, ancaq elə fon yaradır ki, sanki başlanacaq müharibə Bakının işğalçılıq niyyətlərinə cavabdır. Bu yolla yalnız beynəlxalq rəy formalaşdırılır.

Mövcud fonda Ermənistanın hakim dairələrinə yaxın politoloq və ekspert cameəsi də daxili ictimai rəydə gələcək müharibə üçün hazırlıq həyata keçirir. Onlar "ruspərəst Azərbaycanın" Qərbpərəst Ermənistanı işğal etməməsi, "avtoritarların Cənubi Qafqazdakı demokratiyanı boğmaması" üçün ABŞ, Fransa və Avropa İttifaqı ilə ciddi hərbi-siyasi əməkdaşlığa dair planların hazırlamalı və müvafiq sənədlərin imzalamalı olduğunu vurğulayırlar. Onlar əvvəldə də dediyimiz kimi, oyunbazlıq niyyətlərini yarımçıq qavradıqları erməni dövlətçiliyini qorumaq məntiqi ilə əsaslandırırlar.

Yazımızın əvvəlində bildirdik ki, Ermənistan dövləti böyük güclərin layihəsi kimi yaranıb. Erməni varlığının həmin güclər arasındakı mübarizədə alətə çevrilib taleyin ümidinə buraxıldığı vaxtların olduğunu da diqqətə çatdırdıq. İndi də hadisələr həmin ssenariyə doğru gedir. Dövlət kimi mövcudluq məsələsini işğalçılıqda görən bu varlıq alətə çevrilib bir kənara atılmaq aqibətindən nəticə çıxarmayıb.

Deməli, Ermənistan rəhbərliyi ölkənin məhvə doğru getdiyinin də fərqində deyil. Bəli, 44 günlük müharibənin, lokal xarakterli antiterror tədbirlərinin nəticəsi Ermənistan üçün iflas idisə, bu dəfə tam məhvolma ssenarisi aktualdır. Heç şübhəsiz, Ermənistanın Qərbin Cənubi Qafqaz cəbhəsində qazdığı səngər onun özü üçün qəbir olacaq.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Parisin xam xəyalı və məkrli planı

## Müharibə isterikalı "informasiya hazırlığı" bir mərkəzdən idarə olunur

**Üç-dörd ay əvvəl sülh sazişinin imzalanmasının bir addımlığında olduğunu bəyan edən rəsmi İrəvanın diplomatik ritorikasında indi müharibə anonsları daha ucadan səslənir. Hazırkı dönəmdə sülh müqaviləsini imzalamaqdan yayınmağın yollarını arayan Ermənistan hakimiyyəti özünü Azərbaycanın "real müharibə təhlükəsindən qorumağa" çalışdığını bildirir.**



Bəs hayların məqsədi nədir? Bütün cəbhələrdə uduzmuş və sülh dalanına dirənmiş Paşinyan iqtidarının ümidləri Azərbaycana qarşı beynəlxalq təzyiq mexanizmini genişləndirməyə və ona qarşı "müharibə təhdidi" kampaniyasına inandırıcılıq donu geyindirməyə bağlıdır. Bu qarayaxma kampaniyasının "zərbə qüvvəsi" isə informasiya sahəsidir. Daha çox Qərbdəki ermənipərəst qüvvələrdən dəstək alan rəsmi İrəvan son üç ildə Azərbaycanı həm bölgədəki qonşuları, həm də dünyanın böyük gücləri ilə üz-göz etmək məqsədilə ən iyrənc üsullara əl atıb. Bunlar alınmayanda isə Bakının Qərblə münasibətlərini korlamaqdan ötrü Qarabağda baş verən hadisələrin fonunda dezinformasiya tələləri qurmağa baş vurur. Burada da heç nəyə nail ola bilməyən İrəvan indi beynəlxalq ictimaiyyətin gözündə Azərbaycanın, guya, "Ermənistanın ərazi bütövlüyünü təhdid edən", "Zəngəzura hərbi təcavüzə hazırlaşan" ölkə obrazını yaratmağa səy göstərir.

* * *

Avropanın aparıcı dövlətlərinin "təcavüzkar" Azərbaycana və "təhdidlərlə üzləşən" Ermənistana münasibətlərinin qısa müqayisəli təhlilini aparsaq, təxminən belə bir mənzərə ilə üzləşə bilərik. Bakının Böyük Britaniya Krallığı ilə heç bir problemi yoxdur. Əksinə, Xəzərdəki enerji resurslarının birgə istismarında bu ölkənin böyük şirkətləri ilə otuz illik qarşılıqlı faydalı əməkdaşlıqdan tərəflərin məmnunluğu göz qabağındadır. İtaliyanı da Azərbaycanla dost ölkələrdən saymaq olar.

Kral üsuli-idarəli İspaniya kimi "nə ət, nə də balıq" dövlətin Senatı hansısa ermənipərəst qətnamə qəbul edirsə, bu, bizim üçün hüquqi qüvvəyə malik olmayan kağız parçasından savayı bir şey deyil. Almaniya hələlik neytral vəziyyətdədir və Bakı–İrəvan dialoqu ilə bağlı mövqeyini açıq şəkildə bildirməyə tələsmir. Fəqət, Azərbaycan və Ermənistan XİN başçılarının Berlin görüşü bu ölkənin beynəlxalq hüquqa və ədalətə necə yanaşmasına aydınlıq gətirəcək. Avropanın beynəlxalq təsisatlarının bəyanat və müraciətləri isə, sadəcə, tövsiyə xarakteri daşıyır. Okeanın o tayına nəzər yetirsək, Kaliforniyadan idarə olunan ermənipərəst senator və konqresmenlərin hərdən "ulduza hürmələrinin" şahidi ola bilərik. Amma rəsmi Vaşinqton onların hay canfəşanlığının ABŞ dövlətinin mövqeyi olmadığını dəfələrlə bəyan edib. Bu da təsadüfi deyil. Çünki Ağ ev Azərbaycanda dəyəri yüz milyardlarla dollara bərabər ortaq enerji layihələrinə malikdir.

İri dövlətlərdən ortada yalnız Fransa qalır. Son vaxtlar Qərb mediasında geniş tirajlanan anti-Azərbaycan isterikasının, Azərbaycanın Ermənistana təcavüzə hazırlaşması barədə feyk-informasiyaların arxasında məhz rəsmi Paris dayanır. Yelisey sarayından idarə olunduğu şübhə doğurmayan həmin qaraguruh isterikanın məqsədi gözlənilən müharibənin "informasiya fonu"nu yaratmaqdır. Fransanın, ümumilikdə, Qərbin ermənipərəst mediasının, pulla satın alınmış ekspert dairələrinin Azərbaycan əleyhinə apardıqları informasiya savaşının genişlənməsi də bu altniyyətdən xəbər verir. "Bakı Ermənistana qarşı hücuma hazırlaşır", "Azərbaycan Ermənistanı müharibə ilə təhdid edir" xarakterli təbliğatın hədəfi yaxın gələcəkdə erməni təxribatlarına "haqq qazandıracaq" informasiya fonu yaratmaq, ictimai rəyi əvvəlcədən planlaşdırılan hərbi təxribata hazırlamaqdır. Bəli, bölgədə sülhün və sabitliyin bərqərar olması prosesinə əngəllər törədən Qərb hər vəchlə Ermənistanı yeni müharibəyə sürükləyir, yaxud bunu imitasiya edir.

* * *

"Cozef Borrellin qeyri-adekvat bəyanatları Azərbaycan tərəfini çox məyus edib. Əvvəla, bu bəyanatlar reallığı əks etdirmir və beynəlxalq hüququn normalarına ziddir. İkincisi, Azərbaycan tərəfi bu bəyanatları ölkəmizə qarşı pərdələnmiş təhdid kimi qiymətləndirir. Borrell bildirib ki, Azərbaycan Ermənistana hücum edərsə, bunun acı nəticələrini görəcək. Borrell bu məlumatı haradan alıb ki, Azərbaycan Ermənistana hücum etməyi planlaşdırır? Bizdə belə planlar yoxdur"– bunu Prezident İlham Əliyev dünən Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən deyib. Azərbaycanın sülh prosesinə sadiqliyini bildirən İlham Əliyev müharibə versiyasının cənab Makronun insinuasiyası olduğunu nəzərə çatdırıb:

"Bütün bunlar Fransanın, guya, Azərbaycanın Ermənistana hücuma hazırlanması ilə bağlı ölkəmizin demonizə edilməsinə hesablanan anti-Azərbaycan siyasətinin bir hissəsidir. Ermənistanla sərhəddə son dəfə 2023-cü ilin sentyabrında ciddi gərginləşmədən sonra bu ilin fevralınadək olan dövrdə vəziyyət sakit idi. Lakin fevral ayında erməni snayperi Azərbaycan əsgərini ağır yaraladıqdan sonra biz buna vaxtında adekvat cavab verməli olduq. Bizim cavabımız bir neçə dəqiqə çəkdi və Ermənistanın dərk etməsinə kifayət etdi ki, azərbaycanlıların öldürülməsi cəhdi cəzasız qalmayacaq. Dediyim kimi, ötən ilin sentyabrından bu hadisə istisna olmaqla sərhəddə sakitçilik hökm sürür. Deməli, cənab Borrell və cənab Makron bu informasiyanı reallıqdan deyil, öz xəyallarından götürürlər".

Azərbaycan Ordusunun 2023-cü il sentyabrın 19-20-də Qarabağ iqtisadi rayonunda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra şərti sərhəddə ilk dəfə baş verən insidentin də qətiyyən təsadüf olmadığını, bunun arxasında böyük məkrli planın gizləndiyi üzə çıxır. Ermənistanın hərbi-siyasi rəhbərliyinin bu hərbi avantüraya Qərbin, birbaşa Fransanın diktəsi ilə getdiyi artıq şübhə doğurmur. Həmin sərhəd təxribatının dərhal ardınca Fransa mediasında Ermənistanın "ildırım sürətli müharibə" planına hazırlaşması barədə xəbərlərin yayılmasının nəyə xidmət etdiyi məlum olur. Sızan məlumatlara görə, baş nazir Nikol Paşinyanın Paris səfərində müzakirə edilən "məxfi plan"ın mahiyyəti ondan ibarət imiş ki, Ermənistan qəfil hücumla Azərbaycanla şərti sərhəddə bir neçə yüksəkliyi ələ keçirir. Bunun nəticəsində sülh danışıqları prosesində İrəvanın mövqeyi xeyli "güclənir" və guya, Bakının güzəştə getməkdən savayı şansı qalmır.

İndi məlum olur ki, Ermənistan baş nazirinin Paris səfərindən əsas məqsəd heç də İkinci dünya müharibəsində həlak olan ermənilərin xatirəsinə ehtiram nümayiş etdirmək deyilmiş. Səfərin əsas və gizli məqsədi Nikol Paşinyanın Yelisey sarayında Emmanuel Makrondan konkret göstərişlər alması və bundan sonrakı fəaliyyətini buna uyğun nizamlamasıdır. Fransa tərəfindən açıq-aşkar Azərbaycanla hərbi qarşıdurmaya təhrik edilən Ermənistanın silahlandırılması da təsadüfi deyil. Paris bu "missiyanı" həyata keçirməyi də öz üzərinə götürüb. Fransa, həm də Hindistan vasitəsilə onun lisenziyası ilə bu ölkədə istehsal olunan silah-sursatı ermənilərə ötürür, həmçinin fransız hərbçilər Ermənistan ordusunun müxtəlif qoşun bölmələrinə təlimlər keçirlər.

Qərbin Cənubi Qafqazda yeni müharibə istəyini sübuta yetirən başqa faktlar da var. Bunlar Fransanın birmənalı şəkildə Ermənistanı müdafiə etməsi, sərhəd təxribatının İrəvanın deyil, Bakının hədəfə alınması çirkin planın tərkib hissələridir.

Hər şeydən göründüyü kimi, İrəvan Qərbdən aldığı tapşırıq və əmrlərə uyğun hərəkət edir. Bu isə Hayastan rəhbərliyinin bölgədə baş verən proseslər nəticəsində düşdüyü acınacaqlı vəziyyətdən düzgün nəticə çıxarmadığını isbatlayır. Yəni, nə 2020-ci ilin 44 günlük müharibəsində acı məğlubiyyəti, nə də 2023-cü il 19-20 sentyabrda 23 saatlıq antiterror tədbirlərinin nəticələri rəsmi İrəvana dərs olub. İndi görünən mənzərə odur ki, Paşinyan iqtidarı xoşluqla, ya zorluqla özü-özünü uçurumun kənarına sürükləyir. Əgər daxildəki və xaricdəki daşnak-revanşist qüvvələr Üçüncü Qarabağ müharibəsində nəyəsə nail ola biləcəklərini düşünürsə, onlara Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sözlərini xatırlatmaq yerinə düşər: "Əgər Azərbaycanın təhlükəsizliyinə azacıq da olsa təhdid yaransa və bu təhdid harada, Ermənistan ərazisinin hansı dərinliyində olsa da, Bakı onu dərhal, sadəcə, məhv edəcək".

Görəsən, Paşinyan və onu yeni müharibəyə sürükləməyə çalışan həmin Fransa növbəti qarşıdurmanın hansı sonluqla bitəcəyini düşünürlərmi?

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nın media eksperti**



Yayılan informasiyalardan belə nəticə çıxır ki, ABŞ Ukrayna üzərindən Rusiya ilə apardığı savaşda çıxılmaz duruma düşüb. Konqresdəki Respublikaçılar Ukraynaya hərbi yardım üçün ayrılmalı olan 61 milyard dollarlıq vəsaiti təsdiqləmirlər. Bu isə Ukraynanın, onun fonunda isə ABŞ-nin mövqelərini zəiflədir. Son bir ay ərzində Rusiya tərəfi cəbhədə üstünlüyü ələ alıb. Konqres maliyyəni təsdiqləsə belə, onun ünvana çatdırılıb effekt verməsi vaxt alacaq. Bu baxımdan, ABŞ prezidenti və onun komandası diqqəti yayındırmaq üçün yan təsirlərdən faydalanırlar. Aydın şəkildə görünür ki, onlar Cənubi Qafqaz üzərindən Rusiyaya qarşı ikinci cəbhə açmağa çalışırlar. Çox təəssüf ki, bu oyunu Azərbaycan və Ermənistan arasında gərginliyi artırmaq üzərində qururlar.

Acınacaqlı haldır ki, ABŞ-nin media şəbəkəsi də bu oyunda əsas alət kimi istifadə olunur. Onlar Cənibi Qafqazda gərginliyin artırılması planında rol alırlar. Yalan, dezinformasiyalar yaymaqla həm region əhalisini aldadır, həm də beynəlxalq ictimai rəyi çaşdırırlar. Yazdıqlarından belə məlum olur ki, guya, Azərbaycan Ermənistan üzərinə hücum etməyə hazırlaşır. Azərbaycan tərəfi ən üst səviyyədə elan edib ki, Ermənistanla yeni müharibə aparmaq fikri yoxdur. Həmçinin, bu açıqlamalarını real addımlarla sübuta yetirib. Məsələn, fevralın 23-də Ermənistan ordusu şərti sərhəddə sabitliyi pozdu, Azərbaycan tərəfinə atəş açdılar. Amma Azərbaycan Müdafiə Nazirliyi bəyanat yayaraq, regionda gərginliyin artmaması naminə, cavab tədbirləri görülmədiyini bildirdi. Diqqət yetirsək görərik ki, ABŞ media subyektləri Azərbaycanın bu cür xoşməramlı addımları barədə bircə cümlə də olsa, informasiya verməyiblər. Nəinki 23 fevral insidentindən yazmırlar, ümumiyyətlə, Azərbaycan tərəfindən sülhün əldə edilməsinə yönəlik təşəbbüsləri boykot etmək yolunu tuturlar.

Onlar Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılmasını müxtəlif vasitələrlə əngəlləyirlər. İki dövlət arasında düşmənçiliyi artıran, sülhün əldə edilməsinə mane olan məlumatlar yayırlar. Aydın şəkildə görünür ki, ABŞ Cənubi Qafqaz regionunda qanlı planlar hazırlayıb. Bu ölkənin media şəbəkəsi də məkrli planın reallaşdırılmasına dəstək verir.

# Azərbaycan–Almaniya iqtisadi əməkdaşlığı ölkələrimizin maraqlarına uyğundur

**Martın 1-də Bakıda keçiriləcək Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu toplantısı və "Yaşıl enerji" Məşvərət Şurası ilə bağlı nazirlərin 2-ci iclası ərəfəsində Almaniyadan ölkəmizə böyük nümayəndə heyəti səfərə gəlib. Bu, həm də ənənəvi enerji konfransına olan yüksək beynəlxalq maraqdan irəli gəlir.**



Qeyd edək ki, Almaniya Federativ Respublikasının aparıcı şirkətlərinin rəhbərlərindən ibarət nümayəndə heyətinə Almaniya–Azərbaycan Xarici Ticarət Palatasının icraçı direktoru Tobias Baumann, "Falk" konsaltinq şirkətinin icraçı direktoru Tomas Falk, "Uniper Global Commodities SE" şirkətinin birinci vitse-prezidenti Uve Fip, "Rhenus Group" beynəlxalq nəqliyyat şirkətinin layihələr üzrə idarə heyətinin direktoru Heinrix Kerstgens, "VNG" Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Ulf Heitmüller, "Rohde & Schwarz" şirkətinin regional satış direktoru Viktoriya Gerasimova və "HHLA International" şirkətinin icraçı direktoru Filip Sveens daxildir.

Fevralın 28-də Prezident İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı alman iş adamlarının ölkəmizə səfərininin əhəmiyyətindən söhbət açaraq əvvəlki görüşləri məmnunluqla xatırladıb. Bu baxımdan böyük nümayəndə heyətinin iqtisadi əməkdaşlığın gündəliyinin müzakirəsi üçün Azərbaycana səfər etməsinin önəmi qeyd olunub.

Nümayəndə heyəti adından Prezident İlham Əliyevə qəbula görə minnətdarlığını çatdıran Almaniya Federativ Respublikasının Azərbaycandakı səfiri Ralf Horlemann dövlətimizin başçısının Münxen səfəri zamanı Almaniya kansleri ilə keçirdiyi görüşlərin onlarda yüksək təəssürat yaratdığını diqqətə çatdırıb. COP29-un keçirildiyi bu ildə sülh müqaviləsinin imzalanmasına nail olmaq üçün yaranmış imkanın sabitlik, iqtisadi inkişaf və əmin-amanlıq baxımından çox önəmli olduğunu diqqətə çatdırıb.

Səfir alman iş adamlarından ibarət böyük nümayəndə heyətinin Azərbaycana səfərinin əsas məqsədlərindən birinin ölkəmizlə əməkdaşlıqda maraqlı olduqlarını nümayiş etdirməkdən ibarət olduğunu vurğulayıb. Azərbaycan Prezidentinin inauqurasiya nitqində iqtisadi, o cümlədən enerji sahəsində transformasiya məsələlərinin ciddi önəm verməsinin əməkdaşlıq üçün böyük imkanlar yaratdığını xatırladan nümayəndə heyətinin rəhbəri Almaniya biznes dairələri və şirkətlərinin bu gündəliyə böyük töhfələr verməyə hazır olduğunu deyib.

Almaniya nümayəndə heyətinin ölkəmizə səfərini yüksək qiymətləndirən dövlətimizin başçısı iqtisadi sahənin ikitərəfli münasibətlərimizdə həmişə mühüm rol oynadığını vurğulayaraq bu amili əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirib. Yeri gəlmişkən, ötən ilin martında Prezident İlham Əliyev Berlinə səfəri zamanı Almaniya Kansleri ilə görüşündə əlaqələrimizin geniş gündəliyinə daxil olan məsələlər, o cümlədən ölkələrimiz arasında iqtisadi əməkdaşlıq əlaqələrinin vəziyyəti müzakirə olunmuşdu. Həmin görüşü məmnunluqla xatırladan dövlətimizin başçısı Azərbaycanın özünü təmin edən ölkə olduğunu qeyd edərək bildirib ki, ölkəmizdə gedən proseslər və həyata keçirilən işlər Azərbaycanın normal həyatını təmin edir.

Almaniya nümayəndə heyətinin rəhbəri Azərbaycana infrastruktur, sənaye, kənd təsərrüfatı, bank və maliyyə, alternativ enerji və digər sahələrlə məşğul olan 40-dan artıq şirkətin rəhbəri və nümayəndələri ilə gəldiklərini diqqətə çatdıraraq keçirdikləri səmərəli görüşlərin onda yüksək təəssürat yaratdığını bildirib. O deyib ki, Azərbaycan, həqiqətən, iqtisadi islahatlarla bağlı böyük işlər həyata keçirir. Onun fikrincə, iki ölkə yalnız ənənəvi enerji sektorunda deyil, başqa sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanlara malikdir.

Yeri gəlmişkən, son illər Azərbaycan–Almaniya iqtisadi-ticarət əlaqələrində dinamik inkişaf müşahidə olunur. Ölkəmiz Almaniyanın Cənubi Qafqazda ən mühüm iqtisadi və ticarət tərəfdaşı sayılır. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda bu ölkənin Almaniyanın Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsində Azərbaycanın payı təxminən 65 faiz təşkil edir. Eyni zamanda, Almaniyanın Federal İqtisadiyyat və İxraca Nəzarət Ofisinin məlumatına istinadən, Almaniyanı neftlə təmin edən ölkələr sırasında önəmli yerlərdən birini məhz Azərbaycan tutur.

İki ölkə arasında ən yüksək səviyyədə baş tutan qarşılıqlı səfərlər, eləcə də Azərbaycanın biznes imkanlarının və "Made in Azerbaijan" brendinin təşviq olunması məqsədilə Almaniyada keçirilən biznes forumlar ikitərəfli iqtisadi-ticari əlaqələrin daha da genişlənməsinə xüsusi töhfə verir və ikitərəfli iqtisadi münasibətləri yeni mərhələyə qaldırır. Bununla yanaşı, Azərbaycanın iqtisadi və turizm potensialının Almaniyada təşviq olunması məqsədilə ölkəmiz hər il Almaniyada keçirilən müxtəlif beynəlxalq sərgilərdə milli stendi ilə iştirak edir.

**M.YAQUBZADƏ**
**XQ**

# Hikmət Hacıyev BMT İnkişaf Proqramının Bakı ofisinin əməkdaşları ilə görüşüb

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Bakı ofisinin əməkdaşları ilə görüşüb.**



Bu barədə BMT-nin İnkişaf Proqramının rezident nümayəndəsi Alessandra Rokkasalvo "X"də yazıb.

"Azərbaycan Prezident Administrasiyası ilə BMT İnkişaf Proqramı arasında güclü əməkdaşlıq... 2024-cü il bizim üçün gərgin il olacaq. Biz buna hazırıq", – o qeyd edib.

# Nazirlər regionda sülh prosesini müzakirə ediblər

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Almaniyaya işgüzar səfəri çərçivəsində fevralın 28-də bu ölkədən olan həmkarı Annalena Berbok ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyi, eləcə də Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh prosesinin hazırkı vəziyyəti, həmçinin perspektivləri müzakirə olunub.

Annalena Berbok iki ölkə arasında münasibətlərin əhəmiyyətini vurğulayıb, ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırıb.

Ceyhun Bayramov Azərbaycan ilə Almaniya arasında son dövrlər dinamik xarakter daşıması ilə seçilən təmasların məmnunluq doğurduğunu, xüsusilə Münxen Təhlükəsizlik Konfransı çərçivəsində ali səviyyədə aparılan müzakirələrin əhəmiyyətini vurğulayıb.

Almaniyanın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində danışıqların təşkilində göstərdiyi dəstəyə və təşəbbüsə görə təşəkkür ifadə edilib.

Nazir Ceyhun Bayramov ölkəmizin normallaşma və sülh gündəliyinin irəlilədilməsində qərarlı olduğunu bildirib. Buna baxmayaraq, 5 aya yaxın sürən sabitliyin Ermənistan tərəfindən pozulmasının sülh prosesinə zərbə vurmaq məqsədi daşıdığını diqqətə çatdırıb.



Bununla yanaşı, Ermənistanın Konstitusiyasında və qanunvericiliyində, siyasi və hüquqi proseslərdə ölkəmizə qarşı irəli sürülən ərazi iddialarını, qeyri-konstruktiv mövqe və ritorikasını davam etdirməsinin qəbuledilməz olduğu vurğulanıb.

**XQ**

# Berlinin Cənubi Qafqazda "sülh buzu"nu əritmək cəhdi

## Almaniyanın regionda fəallaşmasını rəqibləri necə qarşılayacaq?

**Bəri başdan qeyd edək ki, bir neçə gün əvvəl Azərbaycan və Ermənistan xarici işlər nazirləri və baş nazirlərin müavinlərinin görüşünün yaxın vaxtlarda olacağını Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan demişdi. O, görüşdə ölkələr arasında sülh sazişi layihəsinin müzakirəyə çıxarılma ehtimalından söz açmışdı. Ən önəmlisi isə A.Qriqoryan Ermənistanın Azərbaycandan sülh müqaviləsi ilə bağlı əlavə təkliflər aldığını nəzərə çatdırmışdı. Azərbaycanın yeni təkliflərində bəzi yumşalmaların olduğunu deyən A.Qriqoryan bu yumşalmanın nədən ibarət olduğunu açıqlamamışdı.**

Yeri gəlmişkən, Bakının sülh müqaviləsi ilə bağlı təkliflərində müəyyən yumşalmanın olduğunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan da bildirmişdi. Sonuncu dəfə İrəvan Bakıya sülh müqaviləsi variantını 2024-cü il yanvarın 4-də göndərib. İndiyədək tərəflər bir neçə dəfə, belə demək mümkünsə, fikir mübadiləsi aparıblar. Lakin ortada konkret nəticə yoxdur. Nəticə ona görə yoxdur ki, İrəvan müxtəlif təkliflər irəli sürməklə danışıqlarda məqsədli dolaşıqlıq yaratmağa çalışır. Əslində, Ermənistan hakimiyyəti status-kvonu qorumaq, zaman qazanmaq istəyir. Əgər belədirsə, onda ortaya suallar çıxır: sülh sazişi layihəsində "yumşalma" nəyi nəzərdə tutur? Bəs danışıqlarının yeni raundunun Berlində keçirilməsinə sülh prosesində öz yanaşması və hədəfi olan Moskvanın reaksiyası necə olacaq?

Dünən Azərbaycan Prezidenti İlham Əliyev Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi heyəti qəbul edərkən Almaniyanın vasitəçiliyindən ölkəmizin gözləntisini belə ifadə etdi: Fransa alovun üstünə benzin tökür, Almaniya isə neytrallıq göstərir. Biz Berlindən ədalətli yanaşma, Azərbaycandakı maraqlarını sivil qaydada nəzərə almağı gözləyirik.

**Milli Məclisin deputatı, Müdafiə, təhlükəsizlik və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Arzu Nağıyev** Cənubi



Qafqazda sabitliyin və sülhün bərpası prosesində növbəti dayanacağın Berlin olacağını dedi: "Berlində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin başçılıq etdiyi nümayəndə heyətlərinin təmaslarını Münxendə liderlərin görüşünün məntiqi davamı kimi qiymətləndirə bilərik. Onu vurğulayım ki, görüşün Berlində baş tutması prosesdə Qərb amilinin önə çıxdığını göstərir. Məlumdur ki, Cənubi Qafqaz Rusiya və Qərbin maraqlarının toqquşduğu bölgələrdən biridir. Bu səbəbdən hər iki tərəf prosesdə aparıcı rol almaq istəyir. Hesab edirəm ki, bu 2 ölkə aralarındakı münasibətləri özləri aydınlaşdırsalar, daha yaxşı olar".

Deputat bir əsas məqamı da xüsusi olaraq vurğuladı: "Qərb hazırda məyusedici reallıqla üz-üzədir. Onların Ukrayna üzərindən Rusiyaya qarşı hərbi cəbhə yaratmaq, onu blokadaya almaq cəhdləri uğursuzluğa düçar oldu. Bununla yanaşı, Vaşinqton Moskvaya qarşı yeni cəbhələr açmağa başladı. Bunlar Moldova və Cənubi Qafqazdır. Daha dəqiq desək, Ermənistandır. Məhz bu səbəbdən bölgədə sülhün bərqərar olmasında maraq azdır".

Sülh sazişinin şərtlərində yumşalmaya gəldikdə isə, Arzu Nağıyev bildirdi ki, Bakıdan qarşı tərəfə belə bir təklif olmayıb: "Ərazi bütövlüyümüz, sərhədlərin delimitasiyası və demarkasiyası sülh müqaviləsinin ana prinsipləri olaraq qalır. Məsələyə Moskvanın reaksiyasına gəldikdə isə, əlbəttə ki, Rusiya Cənubi Qafqazda təsir gücünü itirməmək üçün münaqişənin birdəfəlik həllində maraqlı deyil. Rəsmi Moskva tərəfləri özündən asılı vəziyyətdə saxlamaqla regiondakı gücü əlində cəmləməyə, xüsusilə, Türkiyənin regionda artan təsirini məhdudlaşdırmağa çalışır. Hesab edirəm ki, Rusiya sülhməramlıları Qarabağdan çıxdıqdan, bu ölkənin proseslərə təsiri azaldıqdan sonra biz sülh prosesini sürətləndirə bilərik".

***

Növbəti görüşün Berlində keçirilməsinə rəsmi Moskvanın necə reaksiya verəcəyi maraqlıdır. Çox güman ki, bu, Vaşinqton və Brüssel formatlarının Kremldə yaratdığı reaksiyanın təkrarı olacaq. Bütün hallarda, Avropanın istənilən ölkəsində, o cümlədən Almaniya kimi nəhəng dövlətdə keçirilməsi Moskvanın maraqlarına uyğun deyil. Rusiyada prezident seçkisinin yaxınlaşdığı bir məqamda, eləcə də Ukrayna müharibəsinin dalana dirənməsi Kremlin diqqətini bütünlüklə Cənubi Qafqaza yönəltməyə imkan vermir. Ehtimal ki, əvvəllər olduğu kimi, Berlin görüşündən sonra tərəflər növbəti dəfə Moskvaya dəvət olunsun. Ermənistanda tüğyan edən anti-Rusiya əhval-ruhiyyəsi buna imkan verəcəkmi?

Azərbaycanın sülh müqaviləsi layihəsinə dair mövqeyində dəyişikliyin olmadığına diqqəti çəkən XİN-in mətbuat katibi Ayxan Hacızadə, eyni zamanda, layihənin təfərrüatının ictimaiyyətə açıqlanmaması faktının nəzərə alınmasını bildirib.

Yeri gəlmişkən, Berlin danışıqlarına Ağ evin reaksiyası özünü çox gözlətmədi: "Vaşinqton Ermənistan və Azərbaycanı uzunmüddətli və sabit sülhə nail olmağa çağırmaqda davam edir". Bu barədə ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller jurnalistin Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin Berlin görüşündən gözləntilər barədə sualını cavablandırarkən bildirib: "Hazırda bu barədə KİV-ə konkret açıqlamalar verə bilmərəm. Amma biz tərəflərin davamlı və etibarlı sülh razılaşması əldə etmək səylərini dəstəkləməyə davam edirik".

***

Almaniya uzun fasilədən sonra Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə danışıqlar üçün platforma təqdim edib. Bu, faktiki olaraq Moskva, Vaşinqton və Brüsseldən sonra danışıqlar üçün yeni dialoq müstəvisinin yaranması deməkdir. Son 2 ildə Brüssel və Vaşinqton platformaları, ümumiyyətlə, Moskva formatını əvəz edib. Tərəflərin xarici işlər nazirləri Vaşinqtonda, liderlər isə əsasən Brüssel, Kişineu və Münxendə görüşüblər. Amma təəssüf ki, Qərbin fəal vasitəçiliyi gözlənilən nəticəni verməyib.

Son nəticədə Bakının Qərbin vasitəçiliyinə inam səviyyəsi kəskin şəkildə azalıb, Ermənistan isə öz növbəsində Moskva formatına etimadsızlığını açıq şəkildə ifadə edir. Bundan başqa, Ermənistan tərəfi Bakının danışıqların neytral ölkənin ərazisində və ya Ermənistanla Azərbaycan sərhədində aparılması təklifinə o qədər də müsbət reaksiya verməyib. Bu da nəticədə birbaşa danışıqlarda uzun fasiləyə səbəb oldu.

**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, politoloq Fərhad Məmmədov**



Berlində tərəflər arasında danışıqların davam etdirilməsində ABŞ diplomatiyasının da rol oynadığını vurğulayıb: "Amma, eyni zamanda yeni "alman" formatının yaranması barədə danışmaq tez olardı. Bu, daha çox Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin Almaniya paytaxtında keçirilən görüşünün məhsuldarlıq səviyyəsindən asılı olacaq. Berlin platforması formalaşsa belə, danışıqlar Qərbin birbaşa vasitəçiliyi ilə davam etdiriləcək. Beləliklə, Moskvanın İrəvana siyasi təzyiqləri davam edəcək. Brüsselin regiondakı rolundan narazı olan və Aİ müşahidəçilərinin Ermənistandakı fəaliyyətinin gərginliyi artırdığını bəyan edən Azərbaycanın mövqeyi Rusiyanı tamamilə qane edir.

Bakının tələblərindən biri Azərbaycana qarşı ərazi iddialarından əl çəkmək və bunu Ermənistanın yeni konstitusiyasında təsbit etməkdir. Onu da xatırladaq ki, Almaniya Avropa İttifaqının aparıcı üzv dövlətlərindən biridir. Aİ-nin Ermənistandakı mülki missiyasının bir hissəsi məhz bu ölkənin kadrlarından formalaşıb. Belə bir vəziyyətdə Azərbaycanın "Berlin platforması"nın formalaşmasında maraqlı olub-olmayacağı təbii sual yaranır. Buna baxmayaraq, rəsmi Bakı Berlin görüşü ərəfəsində Ermənistandan sülhə nail olmaq üçün onun şərtlərini qəbul etməsi tələbini təkrarlayıb. İrəvan qarşısında qoyulan əsas tələblərdən biri Azərbaycana qarşı ərazi iddialarından birdəfəlik imtina etmək və bunu Ermənistan konstitusiyasının yeni redaksiyasında təsbit etməkdir".

Beləliklə, ekspertlərin də gəldiyi pessimist qənaət budur ki, birbaşa danışıqlara başlamaq üçün Ermənistanın qeyd edilən şərti qəbul etməsi ehtimalı o qədər də real deyil. İkiyə parçalanmış dövlətini birləşdirməyi bacarmış Almaniya Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının "buz"unu əridə biləcəkmi? Bunu yaxın günlər göstərəcək.

**İ.HƏSƏNQALA**
**XQ**

# Milli Məclisdə ölkənin su problemləri dinləməsi

**Dünən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin və Aqrar siyasət komitəsinin birgə təşkilatçılığı ilə "Ölkənin su təsərrüfatı: problemlər və yeni çağırışlar" mövzusunda ictimai dinləmə keçirilib.**

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bu gün dünyada baş verən iqlim dəyişikliklərinin, müharibələrin, dövlətlərarası münasibətlərin pozulmasının su təsərrüfatında və onun idarə olunmasında ciddi problemlər yaratdığını və bu problemlərin Azərbaycandan da yan keçmədiyini deyib. Azərbaycanda bu sahədə uğurlu layihələrin həyata keçirildiyini qeyd edən komitə sədri görülən işlərin, nəzərdə tutulan tədbirlərin su təsərrüfatı sahəsindəki problemlərin həllinə böyük inam yaratdığını bildirib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov su çatışmazlığı probleminin yaranma səbəblərindən, onun canlı aləmə təsirlərindən söz açıb. Etibarlı su təchizatını yeni minillikdə hər bir ölkənin qarşısında duran strateji məsələ adlandıran komitə sədri su təhlükəsizliyini ölkənin milli təhlükəsizliyinin tərkib hissəsi kimi xarakterizə edib, ölkə Prezidentinin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda su təminatı ilə bağlı həyata keçirilən nəhəng layihələrdən danışıb.

Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dünyada baş verən qlobal iqlim dəyişikliklərinin ətraf mühitə və onun ən əsas elementlərindən biri olan su ehtiyatlarına mənfi təsirlərini qeyd edərək, bununla bağlı ölkəmizin qarşısında su ehtiyatlarından səmərəli istifadənin təmini, su itkilərinin qarşısının alınması, sistemlərin müasir səviyyədə yenidən qurulması, yeni su mənbələrinin yaradılması ilə bağlı çağırışlar ortaya qoyulduğunu bildirib.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva, kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi sədrinin müavini Asim Mollazadə, deputatlar Fəzail Ağamalı, Məlahət İbrahimqızı və başqaları çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüb, rəy və təkliflərini səsləndiriblər.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# Ermənistanın dezinformasiya maşını fəaliyyətini davam etdirir

**Ermənistanın dövlət strukturlarına bağlı bəzi sosial media kanalları Laçın istiqamətində guya bu gün səhər saatlarında baş vermiş hadisə ilə bağlı qeyri-peşəkar şəkildə montaj olunmuş, dezinformasiya xarakterli video paylaşıblar.**

Bu barədə Azərbaycanın Müdafiə Nazirliyindən məlumat verilib.

"Təqdim olunan videonun metaməlumatlarının tədqiqi və aparılan qısa araşdırma nəticəsində müəyyən edilib ki, fərqli zamanda və fərqli coğrafi məkanda çəkilmiş videogörüntülərin bugünkü hadisə ilə heç bir əlaqəsi yoxdur", – deyə nazirliyin məlumatında vurğulanıb.

# MN: Azərbaycan Ordusunun əsgəri Laçında azaraq itkin düşüb

**Fevralın 28-i səhər saatlarında Azərbaycan Ordusunun əsgəri Pənahov Ruslan Eldəniz oğlu Laçın rayonu ərazisindəki xidməti mövqelər arasında hərəkət edərkən əlverişsiz hava şəraitində istiqaməti itirərək azıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətidən verilən məlumata görə, hərbi qulluqçumuzun tapılması məqsədilə dərhal başlanılan axtarış tədbirləri davam etdirilir.

# Ermənistan Rusiyaya etiraz notası göndərib

**Ermənistan Xarici İşlər Nazirliyi Rusiyaya etiraz notası göndərib. Bu barədə Ermənistan KİV-lərində yayılan məlumatda bildirilib.**

Buna səbəb kimi Rusiyanın televiziya yayımı standartlarını pozduğu göstərilib. "Rusiya ilə kütləvi kommunikasiyalar sahəsində əməkdaşlığa dair dövlətlərarası saziş çox güman ki, təkmilləşdirilməlidir və ya redaktə edilməlidir. İki ölkənin səlahiyyətli rəsmiləri arasında müzakirələrdən iki ay sonra yenidən qanun pozuntusu qeydə alınıb", - yüksək texnologiyalar naziri Mxitar Ayrapetyan vurğulayıb.

Pərdəarxası xəyanət və cinayətlər

# Sumqayıt hadisələri erməni separatizminin ilk gizlin ssenarisi idi



**...Düz 36 il öncə törədilmiş Sumqayıt hadisələri ilk vaxtlar azərbaycanlıların öz qonşularına heç nədən "divan tutması" təəssüratı yaradıb, dünya ictimaiyyətini xalqımıza qarşı qəzəbləndirsə də, çox keçmədən iğtişaşların qurama olduğu aşkara çıxdı. Həm zərərçəkmiş erməni sakinlərinin və şahidlərin ifadələri, həm də təkzibedilməz istintaq materialları ilə sübuta yetirildi ki, olaylar məhz "KQB" adlanan qurumun – SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin ssenarisi əsasında Ermənistanın və erməni millətçilərinin maraqlarına və planlarına uyğun hazırlanaraq bilərəkdən törədildiyi məlum oldu.**

Elə buradaca qeyd edək ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bir sıra məsələlərlə yanaşı, Sumqayıt hadisələrinə də aydınlıq gətirilib, qanlı aksiyaların səbəbləri ətraflı araşdırılıb və əsl həqiqət ortaya qoyulub.

Artıq gün kimi aydındır ki, 1988-ci il soyuq fevral günlərində həyata keçirilən həmin ssenari ermənilərlə azərbaycanlıların birlikdə yaşamasının qətiyyən mümkün olmadığını göstərməyə və Dağlıq Qarabağ Muxtar Vilayətini Azərbaycanın tərkibindən çıxarıb Ermənistana birləşdirmək niyyətinə xidmət edib. Özü də Ermənistan xüsusi xidməti və erməni millətçilərinin nümayəndələri bu hadisələrin bilavasitə fəal "oyunçu"ları olublar.

Mövzuya dönə-dönə qayıtmağımıza səbəb isə budur ki, nankor qonşularımız hələ də yerli-yersiz Sumqayıtda haylara qarşı qətliamlar törədildiyi barədə əsassız iddialar səsləndirirlər. Olayların hər ildönümündə ən azı Ermənistanın Xarici İşlər Nazirliyi (XİN) səviyyəsində saxta bəyanatlar verilir və ölkəmizə qarşı tamamilə əsassız iddialar irəli sürülərək, tarixi faktlar təhrif edilir və saxtalaşdırılır. Elə 2 gün öncə də Ermənistan XİN eyni "hava"nı çalmaqla, özlərinin zorakılıq əməllərini, Ermənistan ərazisində yaşayan azərbaycanlı əhalinin kütləvi qovulmasını, Azərbaycan xalqına qarşı terroru, etnik zəmində təxribatları və hərbi gücdən istifadəni ört-basdır etmək cəhdində bulunub. Azərbaycan XİN-in mətbuat katibi Ayxan Hacızadənin mövzu ilə bağlı şərhində bu barədə bildirilir: "Sumqayıtda etnik zəmində törədilən iğtişaş SSRİ və Ermənistan rəhbərliyinin, erməni şovinist ideoloqların, ekstremist təşkilatların əvvəlcədən düşünülmüş və planlaşdırılmış məqsədyönlü təxribatlarının tərkib hissəsi idi. Həmçinin qeyd edək ki, SSRİ Baş Prokurorluğu tərəfindən baş vermiş hadisə ilə bağlı cinayət işi açıldığı, nəticədə iğtişaşların icraçıları və əlbir olan şəxslər, həmçinin ümumi sayı 32 nəfərdən ibarət qurbanların müəyyən edildiyi hər kəsə məlumdur. Hadisənin qurbanları arasında 6 nəfər azərbaycanlının olması bu iğtişaşların azərbaycanlı əhali tərəfindən həyata keçirilmədiyini sübut edir. Ermənistan XİN-in diqqətinə çatdırırıq ki, hadisələrin səbəbkarı, yürüşə başçılıq edən, şəxsən 6 nəfəri öldürən və erməni millətindən olan 3 qadına təcavüz edən şəxs milliyyətcə erməni olan Eduard Qriqoryan olub və onun barəsində Sumqayıtda yaşayan ermənilərin çoxsaylı şahid ifadələri toplanıb. Məhkəmənin qərarı ilə 12 il azadlıqdan məhrum edilən E.Qriqoryan cəzasını çəkmək üçün Ermənistana köçürülüb və daha sonradan azadlığa buraxılıb".

Qarşı tərəfin haqqında bar-bar bağırdığı "erməni qırğını" bundan mənfur qonşularımızın millətimizə qarşı məkrli ideoloji təbliğatda silah kimi istifadə etmək cəhdindən başqa bir şey deyil. Birmənalı şəkildə sübut olunub ki, Sumqayıt hadisələrini qızışdıran və qətlləri törədən ermənilər özləri olublar. Məlum ssenarinin eyni zamanda Mixail Qorbaçov tərəfindən keçmiş SSRİ-nin dağılmasına təkan verəcək vasitələrdən biri kimi düşünülməsi qənaəti də güclüdür. Xatırlayırıq ki, hələ olaylardan bir neçə ay əvvəl Fransa Erməni İnstitutunun və Erməni Veteranları Assosiasiyasının təşkil etdiyi qəbulda Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri, akademik Abel Aqanbekyan demişdi: "Mən istərdim ki, respublikanın şimal-qərbində yerləşən Qarabağ Ermənistanın olsun, o, Azərbaycana nisbətən Ermənistana daha çox bağlıdır. Mən bu istiqamətdə bir təklif irəli sürmüşəm. Ümidvaram ki, yenidənqurma, demokratiya şəraitində həmin problem öz həllini tapacaqdır". Həmin çıxış 1987-ci ilin noyabrında Parisdə nəşr olunan "Humanite" qəzetində dərc ediləndən dərhal sonra qəzəblənən Azərbaycanı etiraz dalğası, ruhlanan Ermənistanı isə milli ədavət və türkləri deportasiya meyilləri bürümüşdü.



O zaman bədnam "Qarabağ Komitəsi" və separatçı "Krunk" cəmiyyəti tezliklə açıq fəaliyyətə başladılar. Azğın qonşular ulu də-də-baba yurdları olan Ermənistanda yaşayan soydaşlarımıza hədə-qorxu gəlir, onları təhqir edir, əmlaklarını əllərindən alır, işgəncələr verirdilər. 1988-ci il fevralın 22-də Əsgəranda iki ağdamlı gənc düşmən gülləsinin qurbanı oldu: ilk qan töküldü. Masis və Qafan rayonlarında vəziyyət daha da gərginləşdi, ilk qaçqın axını Azərbaycana üz tutdu. Fevralın 26-da qatı millətçi şair Silva Kaputikyan televiziya ilə erməni xalqına müraciət etdi, Qorbaçovun onları dəstəklədiyini və onun Qarabağla bağlı tarixi "ədalətsizliyi" aradan qaldıracağını söylədi.

Beləliklə, hələ də Moskvaya, Kremlin qanunlarına inamını itirməyən azərbaycanlılar çaşqın halda nəyi isə gözlədikləri bir vaxtda "Böyük Ermənistan" ideoloqları məqsədyönlü planlarının növbəti səhifəsini həyata keçirirdilər. Hadisələrin davamını çox gözləmək lazım gəlmədi. Xüsusi tapşırıqlarla Sumqayıta gələn, şərti adı "Nalyotçik" olan qrupun üzvləri – 100-dən çox saqqallı və qara gödəkçəli erməni ekstremisti əhali arasında qızışdırıcı iş aparmağa başladı. Onlar şəhərin "Dalğa" və "Sumqayıt" mehmanxanalarında gecələyirdilər. Gündüzlər şəhərin müxtəlif yerlərində adamları başlarına toplayaraq, özlərini Ermənistandan qaçmış soydaşlarımız kimi qələmə verir, hayların zülmündən danışırdılar. Araqızışdıranlar hələ yetkinləşməmiş gəncləri inandırıb cürbəcür şüarlarla meydana topladılar. "Paşa" ləqəbli Sumqayıt ermənisi, keçmiş məhbus Eduard Qriqoryanın təhriki ilə mitinqlər başlandı və Sumqayıtda yaşayan erməniləri öldürmək çağırışları eşidildi. Şəhərin başbilənləri əhalini şayiələrə uymamağa, təmkinli olmağa çağırsa da, artıq gec idi. Tezliklə qanunazidd hərəkətlər baş alıb getdi.

Fevralın 28–29-da "gözləri qızmış" dəstə emosiyalara uymuş gənclərin kortəbii axını ilə faciəli hadisələrə yol açaraq aradan çıxdı. İki gündə 50-dən artıq mədəni-məişət obyekti dağıdıldı, 40-dan çox avtomaşın sıradan çıxarıldı, 200-dən artıq mənzil talan edildi, 400-dən çox adam bədən xəsarəti aldı. Hadisələrdən bir müddət öncə Xankəndinə gtedərək, koçaryanlardan, sarkisyanlardan, manuçarov və dədəmyanlardan "təlimat" almış "Paşa" rolunun öhdəsindən, beləcə, zirəkliklə gəldi. Nəticədə qondarma hadisələrə görə 100-ə yaxın adam şübhəli şəxs qismində saxlanıldı, 500 nəfər həbs olundu, 94 nəfər mühakimə edildi. Dəstə başçısı Eduard Qriqoryana 12 il, dəstə üzvü Taleh İsmayılova isə 15 il həbs cəzası verildi. Əhməd Əhmədov erməni lobbisinin hay-küyü ilə güllələndi. İkinci qrup əlil olan Elçin Gəncəliyev istintaq dövründə işgəncələrə dözməyərək təcridxana kamerasında özünü asdı. Sonra isə "Paşa" Ermənistana ekstradisiya olunaraq azad edildi.

**Sumqayıt hadisələrini hərtərəfli araşdırmış, bu mövzuda kitablar yazmış, kinofilmlər üçün ssenarilər yazmış Əməkdar jurnalist Eyruz Məmmədovla söhbətlərimizdən birində soruşdum ki, bəs, nə üçün qüdrətli "KQB" – DTK, o cümlədən sovet ordusu Sumqayıtda iğtişaşların qarşısını almadı? Həmkarımın ətraflı cavabı belə oldu:**

– Çünki burada Ermənistanın xüsusi xidmət orqanları və daşnak partiyasının millətçi üzvləri məharətlə işlədilər. Mikrorayonda kameralar quraşdırıldı, foto çəkilişlər aparıldı. Sonra sənədli film çəkib dünya ictimaiyyətinə çatdırdılar. Həmin film hadisələrdən sonra Fransada nümayiş etdirildi. Moskvadan və Bakıdan olan DTK əməkdaşları Sumqayıtda ancaq çəkilişlərlə məşğul idilər. Bu, danılmaz faktdır.

Hüquq-mühafizə orqanlarının arxiv materiallarına istinad edərək, 1988-ci ilin fevralında Sumqayıtda baş verən hadisələrdə erməni ekstremistlərinin bir neçəsinin adını nəzərinizə çatdırmaq istəyirəm:

1. Levon Saturyan, Dağlıq Qarabağ Muxtar Vilayətinin Təklükəsizlik Komitəsinin əməkdaşı. Milli zəmində anti-Azərbaycan təbliğatı ilə məşğul olur, millətçi qüvvələri lazım olan informasiyalarla təmin edirdi.
2. Eduard Mosesov, Yerevanda nəşr olunan "Kommunist" qəzetinin müxbiri. Sumqayıtda video və foto çəkilişləri ilə məşğul olurdu.
3. Q.Ağacanyan, Yerevanda nəşr olunan "Kommunist" qəzetinin müxbiri, Sumqayıtda video və foto çəkilişləri ilə məşğul olurdu.
4. Albert Qriqoryan, Eduard Qriqoryanın qardaşı, gənclərə narkotik paylayırdı…

Uzaq–yaxın 1988-ci ildə ermənilərin Dağlıq Qarabağ iddialarının dalğasında törədilmiş Sumqayıt hadisələri bu gün də elə onların xislətinə uyğun şəkildə millətimizə qarşı aparılan məkrli ideoloji təbliğatda silah kimi istifadə edilir. Əsl günahkarların məhz ermənilərin özlərinin olduğu sübuta yetirilsə də, onlar həmin hadisələri "zavallı" xalqa qarşı daha bir qondarma "genosid" – soyqırımı aktı kimi qabartmaqda davam edirlər. Amma ataların bir sözü var ki, haqq nazilsə də, üzülməz. Zaman Sumqayıt olaylarının müəyyən detallarını unutdursa da, təxribatın əsl mahiyyəti, törədilmə şəraiti, bir sözlə, səbəb və nəticələri dəyişməz olaraq qalır.

Bir neçə il əvvəl o da məlum olub ki, "KQB"nin erməni millətçiləri ilə birgə Azərbaycana qarşı həyata keçirdiyi Sumqayıt hadisələrinin icraçılarından birinin – erməni Eduard Qriqoryan sağdır və Moskva vilayətinin Sergiyev Posad şəhərində "Qarik" adı ilə dəm-dəstgah içində yaşayır (sosial şəbəkələrdən sevgilisi ilə şəkli də tapılıb). Onun "uğur"unun bir səbəbi də Azərbaycan dilini səlis bilməsi olub, bu səbəbdən də ətrafına hazırlıqlı təxribatçı dəstə toplayayanda heç bir şübhə yaratmayıb. Qriqoryana kiminləsə görüşmək, müsahibə vermək, həqiqəti söyləmək qəti qadağan edilib.

O zaman istintaq üçün Sumqayıta göndərilmiş Moskva emissarları da günahları bir qrup xuliqanın üzərinə yıxaraq, "tapşırığı" layiqincə yerinə yetirdikləri üçün vəzifələrində və rütbələrində yüksəldiliblər. Bu barədə də konkret faktlar yox deyil.

Əgər bugünkü Ermənistan rəhbərliyi bu qədər həqiqətpərəstdirsə, nə üçün İrəvandakı arxivlərin açılmasına imkan vermir? Siyasətində özünü "doğrucul" və demokrat kimi qələmə verən Nikol Paşinyan ağzı köpüklənə-köpüklənə xalqımıza və dövlətimizə qarşı iftiralar yağdırmaqdansa, nə üçün bədnam millətçilərinə və dünyaya əsl həqiqəti söyləmir? Çünki arxivlər açılarsa, bütün həqiqətlər üzə çıxacaq, həm Ermənistan, həm də dünya ictimaiyyəti baş verən hadisələr haqqında bir daha əsl həqiqətləri öyrənəcəklər. Qondarma "erməni soyqırımı" məsələsində olduğu kimi, Sumqayıt hadisələrində də həqiqətlərin tam üzə çıxması həm onlara qətiyyən sərf etmir, həm də bu "cəsarət" Paşinyanın hakimiyyətdən kürünüb atılmasını sürətləndirər.

Görünən budur ki, Qarabağ münaqişəsinin kökləri dərin və çoxşaxəlidir. Sumqayıt hadisələri də ermənilərin Azərbaycana qarşı zaman-zaman həyata keçirdikləri mənfur ilhaqçılıq niyyətlərinin tərkib hissəsi olub.

**Əli NƏCƏFXANLI**
**XQ**

# Makron anti-Azərbaycan düşərgə yaradır



**Azərbaycana qarşı uzun illərdir sistemli və ardıcıl mübarizə aparan dairələr son vaxtlar səylərini daha da gücləndiriblər. Bu da təsadüfi deyil. Çünki Azərbaycan xalqı və dövləti 2020-ci ilin payızında elə bir Qələbə qazandı ki, bədxahlarımız bunu yatsaydılar, yuxularında da görməzdilər. Həmin qələbəyə yalnız xalqımız və dövlətimiz inanırdı. Biz əmin idik ki, işğal olunmuş torpaqlarımız bir gün mütləq azadlığına qovuşacaq. Həmin torpaqlarda yenidən həyat qaynayacaq, böyük yenidənqurma və quruculuq işlərinə başlanılacaq. Belə də oldu. Hazırda azad edilmiş bütün torpaqlarda geniş bərpa-quruculuq işləri gedir.**

Vətən müharibəsindən ötən dövr ərzində biz ancaq yeni-yeni qələbələr qazandıq. İstər 2021-ci ilin mayında baş verən və "Qaragöl insidenti" kimi tanınan hadisələr, istər 2021-ci ilin noyabr, istərsə də 2022-ci ilin sentyabr döyüşləri şərti sərhəddə strateji yüksəkliklərin ordumuzun nəzarətinə keçməsi ilə nəticələndi. Həmin döyüşlərin nəticəsinin sonrakı proseslərdə bizə çox böyük faydası oldu. Ümumilikdə, müharibədən ötən müddət ərzində ölkəmizin bütün planları ardıcıllıqla, tədricən həyata keçdi. Bizim sonuncu addımımız isə sentyabrın 19-da başlayan lokal xarakterli antiterror tədbirləri oldu. Bununla da ərazi bütövlüyümüz və dövlət suverenliyimiz tam təmin edildi. Azərbaycan ərazisində separatizm yuvası dağıdıldı, onun kökü birdəfəlik kəsildi, "miatsum" kitabı bağlandı. Bu gün ölkəmizin elə bir yaşayış məntəqəsi yoxdur ki, orada Dövlət bayrağımız dalğalanmasın.

Bütün bunlar isə özünü sülh tərəfdarı kimi aparan Ermənistan hakimiyyətinin, daxildəki revanşist qüvvələrin, onların havadarı olan xaricdəki böyük dövlətlərin, anti-Azərbaycan, islamofob dairələrin, necə deyərlər, kürkünə birə salıb. Onlar Vətən müharibəsindəki və antiterror tədbirlərindəki qələbəmizdən sonra özlərinə gələ bilmirlər. Buna görə də müxtəlif yollarla acıq çıxmağa çalışırlar. Əlbəttə, Ermənistanın özünə qalsaydı, bu ölkə bizimlə heç vaxt müharibə aparmağa cürət də etməzdi.

Fevralın 26-da Xocalı şəhərində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə söylədiyi nitqində Prezident İlham Əliyev belə dedi: "Biz böyük xalqın nümayəndələriyik. O xalqın ki, öz gücü ilə o əsarətdən çıxdı, o xalq ki, bir yumruq kimi birləşərək düşmənin belini qırdı. O düşmənin ki, onun arxasında o vaxt və bu gün böyük dövlətlər dayanır. O böyük dövlətlər dayanmasaydı, heç vaxt 1990-cı illərin əvvəllərində bizim torpağımız işğal altına düşməzdi. Biz o vaxt gücsüz idik, onların arxasında böyük qüvvələr dayanmışdır. Bu gün biz güclüyük və bəziləri bizə deyirlər ki, biz rəhm edək, amma onlar bizə rəhm etdilərmi ki?"

Prezident 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində isə demişdi: "Biz hər zaman çox ayıq olmalıyıq, çünki bizə qarşı olan hərəkət, dediyimiz bu məsələlərlə bitməyəcək, bundan sonra da davam edəcək. Çünki biz dünya miqyasında çox böyük layları tərpətdik. Bəlkə də təhlilçilər görürlər ki, bizim zəfərimizin bəzi ölkələr üçün fəsadları onlara çox baha başa gəlib. Biz böyük layları tərpətdik. Elə bir zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir".



Bəli, bu gün ölkəmizə qarşı edilən çıxışlara da məhz bu nöqteyi-nəzərdən yanaşmaq lazımdır. Hazırda ölkəmizə qarşı revanşistlərin, belə deyək, "səfərbər olunması" prosesi gedir. Ölkəmizə qarşı birləşənləri bir orkestrə bənzətsək, deməliyik ki, burada birinci skripkaçı rolunda Fransa çıxış edir. Paris orkestrdə təkcə skripka sololarını ifa etmir, bəzən baş dirijoru da əvəz edir. Ermənistan baş naziri Nikol Paşinyanın bir neçə gün öncə "Beşinci Respublika"ya səfəri də "birinci skripkaçı"-dan, yaxud "baş dirijor"dan yeni təlimatlar alması ilə yadda qaldı. Artıq aydın görünür ki, regionda yeni müharibəyə, yaxud iri silahlı toqquşmaya hazırlıq gedir. Bu fonda bir müddət əvvəl media orqanlarında Fransanın Ermənistanı "ildırımsürətli müharibə"yə hazırlaması barədə yayılan xəbərlər də diqqətdən qaçmamalıdır. Həmin xəbərdə qeyd olunurdu ki, hədəf Ermənistanın qəfil hücuma keçməklə şərti sərhəddə bir neçə strateji yüksəkliyi ələ keçirməsi, bununla da danışıqlar prosesində İrəvanın mövqelərinin gücləndirilməsidir. Halbuki onların yanlış hesablama apardıqları gün kimi aydındır. Bu yanlış hesablamanın nəticəsi olaraq İrəvan 3 ildə iki dəfə təslimolma aktına – kapitulyasiyaya imza atıb. İndi isə Fransa Ermənistanın üçüncü dəfə oxşar sənədə imza atması üçün, necə deyərlər, dəridən-qabıqdan çıxır.

Paşinyan hökumətinin o vaxt yanlış hesablama apardığı fikrini hazırda Ermənistanın xarici işlər naziri olan, Vətən müharibəsi zamanı isə parlamentin sədri postunu tutan Ararat Mirzoyanın müharibə başlanandan iki gün sonra səsləndirdiyi fikirlər bir daha təsdiqləyir. Mirzoyan sentyabrın 29-da "Facebook" səhifəsində yazmışdı ki, "bu müharibə Azərbaycan Ordusunun tam məhv edilməsi ilə başa çatacaq". Onun həmin fikirlərinin ekran görüntüsü bugünlərdə teleqram kanallarında paylaşılmışdı. Hər bir məsələni yoluna qoymağa qadir zaman haylara taleyin daha bir ironiyasını yaşatdı. Cəmi 44 gün ərzində Ermənistan ordusu darmadağın edildi, qırılan qırıldı, qaçan qaçdı. Hayların qoyub qaçdıqları xeyli silah-sursat və hərbi texnika hərbi qənimət kimi ələ keçirildi. Ələ gəlməyənləri isə 3 ildən çoxdur ki, Hərbi Qənimətlər Parkında açıq səma altında nümayiş etdirilir. Bax, indi Fransa Ermənistana bu aqibəti yenidən yaşatmaq istəyir.

Yeni müharibə üçün atılması tələb olunan digər addım Ermənistandakı və xaricdəki bütün revanşist qüvvələrin səylərinin birləşdirilməsidir. Diqqətçəkən məqam Emmanuel Makronun Paşinyanın Parisə son səfəri zamanı onu "Daşnaksütyun" erməni inqilabi federasiyası bürosunun üzvü və Fransa erməni təşkilatları koordinasiya şurasının həmsədri Murad Papazyanla bir araya gətirməsidir. Paris daşnakları və revanşist qüvvələri Paşinyanla, necə deyərlər, barışdırmağa, onların eyni cəbhədən çıxış etmələrini təşkil etməyə çalışır. Bu həmin Papazyandır ki, o, Paşinyan əleyhinə etdiyi çıxışlarla tanınır. Papazyanın Paşinyanla qarşıdurması onun Ermənistan milli təhlükəsizlik xidməti tərəfindən 2022-ci ilin yayında ölkəyə daxil olmasına qadağa qoyulması ilə nəticələnmişdi. Ancaq indi o da məlum olur ki, söhbət Azərbaycanla mübarizədən gedəndə ermənilər bütün ümu-küsüləri bir kənara qoyub birləşməyi bacarırlar. Onlar "bəlkə də qaytardılar" düşüncəsi ilə nələrsə etməyə çalışırlar.

Müharibəyə hazırlıq istiqamətində Ermənistanın silahlandırılması da diqqətdən kənarda qalmır. Fransa burada da ilk cərgədədir. Paris, necə deyərlər, sinəsini qabağa verərək, İrəvanın militarizasiyası prosesini öz üzərinə götürüb. Fransız zavodlarında, habelə Hindistanda Fransa lisenziyası ilə istehsal olunan silahların Ermənistana verilməsi, müdafiə naziri Sebastian Lekornunun bugünlərdə İrəvana səfər etməsi, "Beşinci Respublika" hərbçilərinin Hayastanın piyada və dağatıcı bölmələrinə təlimlər keçməsi yaxınlaşan müharibənin addım səsləri hesab oluna bilər. Bu sıraya Avropa İttifaqının şərti sərhəddə müşahidə aparan missiyasını da əlavə etmək lazımdır. Artıq heç kəsdə şübhə yoxdur ki, onlar ölkəmizlə bağlı kəşfiyyat məlumatları toplayırlar. Bu yaxınlarda fransız generalın şərti sərhədə gəlməsi və binoklla ərazimizi müşahidə etməsi də xəbis niyyətlərdən xəbər verir.

Mövzu ilə bağlı Caliber.az saytında yerləşdirilmiş məqalədə bildirilir ki, daşnaklar Paşinyanla həm ölkə daxilində, həm də "Daşnaksütyun" hazırkı hakimiyyətə müxalifətdə olduğu üçün Ermənistandan kənarda, xüsusilə Fransada mübarizə aparır. Onların arasında düşmənçilik o həddə çatmışdı ki, Paşinyana qarşı ən çox çıxan avropalı daşnaklar İrəvana uçsalar da, "Zvartnots"dan geri qaytarılmışdılar: "Yelisey sarayındakı analitiklər və Fransa xüsusi xidmət orqanları tezliklə başa düşdülər ki, onların Azərbaycanı ləkələmək, hücum etmək və erməni cəmiyyətini bu ideya altında birləşdirmək üçün dəqiqliklə hazırlanmış fəaliyyət planı Paşinyan daşnakların və diasporun "bossları" ilə barışmasa, məhv ola bilər.

Makron isə Ermənistan baş nazirinin Parisə son səfəri zamanı iki düşərgəni barışdırmağı öhdəsinə götürüb. Erməni mediası Makronun Paşinyanla Papazyan arasında görüş təşkil etdiyi barədə məlumat yayıb. Söhbət Yelisey sarayında təntənəli şam yeməyinin sonunda baş verib. Orada iki "küsülü"dən əlavə, Fransa erməni təşkilatları koordinasiya şurasının digər həmsədri Ara Toranyan da iştirak edib. Söhbətdən əvvəl prezident baş nazirlə Fransanın erməni icması arasında mümkün fikir ayrılıqlarına baxmayaraq, təmasların zəruriliyini bildirib. Yəni, Makron Paşinyana aydın şəkildə bildirib ki, onun fransız daşnakları ilə siyasi fikir ayrılığı onların Azərbaycanla yeni müharibəyə başlamaq planına mane ola bilər".

**Politoloq İlyas Hüseynov** "XQ"yə bildirdi ki, Paşinyanın Parisə səfəri zamanı İrəvana geniş dəstək ifadə olundu, silahlandırılma ilə bağlı müsbət impulslar verildi və ardınca Fransanın müdafiə naziri Lekornu Hayastana səfər etdi. Həmin səfər zamanı Ermənistana fransız silahlarının növbəti partiyası da tədarük edildi. Onun sözlərinə görə, digər tərəfdən biz görürük ki, revanşist qüvvələrin hərəkətə gətirilməsi, radikallarla, yəni daşnaklarla ortaq mövqeyin formalaşdırılması Azərbaycana qarşı yönəlib: "Beləliklə, Fransa çalışır ki, bütün qüvvələr ölkəmizə qarşı birləşsin, vahid mövqe ermənilərin xeyrinə inkişaf etsin. Bu çərçivədə keçirilən bütün görüşlər, aparılan danışıqlar bölgədə gərginliyin artmasına xidmət edir və təhlükəsizliyə təhdidləri artırır".

Siyasi şərhçi onu da bildirdi ki, Ermənistanın silahlandırılması İrəvanın Rusiya əleyhinə bəyanatları fonunda baş verir: "Ümumiyyətlə, Ermənistanda müxtəlif cəbhələrin birləşdirilməsi bir məqsədə xidmət edir. Bu məqsəd də şərti sərhəddə gərginliyi artırmaq, yaxud bölgədə yeni müharibə yaratmaqdır".

Təbii ki, bütün bunlar məkrli qüvvələrin planlarıdır. Ancaq onlar yenə də bir məqamı nəzərə almırlar. Bu gün Azərbaycan öz sərhədlərinin təhlükəsizliyini təmin edəcək qədər güclüdür. Azərbaycanın güclü ordusu, qətiyyətli Prezidenti və onun ətrafında sıx birləşmiş cəmiyyəti var. Ölkəmiz sülh istəyir, amma müharibə baş verərsə, düşmənə sarsıdıcı cavab zərbəsi endirməyə də hazırdır.

***Səxavət HƏMİD***
***XQ***

# Bakı Limanı – Avrasiyanın iri logistik mərkəzi

**Gürcüstanda keçirilən Orta Dəhlizlə bağlı regional tədbirdə cari ilin ikinci yarısından Bakı Limanında konteyner terminalının tikintisinə başlanılacağı və bu infrastrukturun Bakı və Gürcüstan limanları arasında müəyyən olunan dövrlərdə əlverişli konteyner daşınmasına imkan yaradacağı, nəticədə isə konteynerlərin sayının artacağı diqqətə çatdırılıb. Eyni zamanda belə bir şəraitin Orta Dəhlizin inkişafına, ilk növbədə, infrastruktur imkanlarının təkmilləşəcəyinə müsbət təsir göstərəcəyi vurğulanıb.**



Bakı Limanında bütün bu layihələrin icrası, əlbəttə ki, Çindən cəlb edilən yüklərin artmasını və konteyner daşımalarında imkanların genişlənməsini şərtləndirəcək.

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Beləliklə, Çin–Qazaxıstan sərhədindən başlayan və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanan bu marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunub.

Yeri gəlmişkən, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı da 2015-ci ildə Bakı Limanının bazasında qurulub. Yük, neft və bərə terminallarından ibarət limanın nizamnamə kapitalı 16 min manat olub. 2018-ci il mayın 14-dən etibarən Prezident İlham Əliyevin iştirakı ilə açılışı reallaşan yeni Bakı Limanının 1-ci fazada yükaşırma potensialı 15 milyon tona, o cümlədən 100 min TEU konteynerə çatdırılıb. İkinci fazanın yekunlaşdırılmasından sonra isə limandan ildə 25 milyon tona qədər yükün aşırılacağı, 500 min TEU konteynerin keçə biləcəyi planlaşdırılıb.

Prezident İlham Əliyev müsahibələrinin birində Azərbaycanın son 10 il ərzində Xəzər dənizində ən böyük ticarət limanlarından birini inşa etdiyini bildirib. Dövlətimizin başçısı daha sonra hazırda ölkəmizin regionun əsas nəqliyyat və logistika mərkəzlərindən birinə çevrildiyini, bütün yol infrastrukturu kimi, Bakı Limanının da imkanlarının genişləndirilməsi zərurətinin yarandığını diqqətə çatdırıb.

Bax, elə bu məqsədlə də yaxın illərdə limanın mövcud yükaşırma qabiliyyətinin iki dəfəyə yaxın artırılması nəzərdə tutulur. Hazırda limanın tikintisinin 2-ci mərhələsinin layihələndirilməsi həyata keçirilir. Bu işlərin isə tezliklə yekunlaşdırılması planlaşdırılır. Layihə hazırlandıqdan sonra modelin təqdim olunacağı və limanın inkişafının buna uyğun şəkildə gerçəkləşdiriləcəyi bildirilir.

Bakı Limanında son illər həyata keçirilən layihələr nəticəsində infrastrukturun yükaşırma imkanları getdikcə genişlənib. Məsələn, sözügedən limandan keçməklə Asiyadan İsveçrəyə daşınan yüklərin həcmi 4 dəfə artıb. Bu fikir konkret faktlarla ifadə edilsə, demək olar ki, 2023-cü ildə Bakı Limanından keçməklə Asiyadan İsveçrəyə 551 min 740 tondan çox yük daşınıb ki, bu da 2022-ci illə müqayisədə 3,8 dəfə çoxdur. Yaxud bu ilin yanvar ayında Aktau limanından Qazaxıstan neftinin ixracı illik müqayisədə 36 faiz artaraq 287 min tona, o cümlədən Bakı Limanına nəqli 2 dəfə artaraq 116 min tona çatıb.

Ölkəmizin ərazisindən keçən qlobal nəqliyyat dəhlizlərinin funksionallığının artırılmasına mühüm töhfələr verən Bakı Limanında konteyner terminalının tikintisinin planlaşdırılması ilə bərabər, yaxın zamanlarda beynəlxalq "Shipping line" mərkəzinin və onun depolarının yaradılması da nəzərdə tutulur. Bununla bağlı hazırda bir sıra şirkətlərlə danışıqlar aparılır, ilkin müqavilələr imzalanır.

"Shipping line" mərkəzinin yaradılması isə Mərkəzi Asiyadan gələn yüklərin regional konteynerlərlə üçüncü ölkələrə göndərilməsi məqsədi daşıyır. Başqa sözlə, adı çəkilən mərkəzin fəaliyyətə başlayacağı təqdirdə dünyanın istənilən nöqtəsinə fasiləsiz yük daşınması gerçəkləşir. Yəni "Shipping line" karqo yüklərini limandan təyinat nöqtəsinə çatdırmaqla gəmiləri idarə edən şirkətdir və dünya üzrə dəniz nəqliyyatı ilə daşınan yüklərin 95 faizi məhz onun payına düşür.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin 2023-cü il noyabrın 23-də təsdiq etdiyi "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün Fəaliyyət Planı"na əsasən, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisində bir sıra yenidənqurma işləri aparılacaq. Belə ki, qarşıdakı 3 il ərzində liman ərazisindəki çeşidləmə məntəqəsində əlavə 4 dəmiryolu xətti və konteyner terminalı tikiləcək ki, bu da yüklərin çeşidlənməsində operativliyin təmin edilməsinə imkan yaradacaq.

Bundan əlavə, həmin sənədə əsasən, Bakı və Hövsan limanlarında dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd və gömrük nəzarəti, eləcə də digər rəsmiləşdirmənin səmərəli qaydada aparılmasını təmin edən infrastruktur yaradılacaq, Bakı Limanında yük terminalının konteyner üzrə yükaşırma qabiliyyətinin artırılması üçün infrastruktur genişləndiriləcək və zəruri avadanlıqlar alınacaq.

Eyni zamanda idxal və ixrac rejimli yüklər üzrə geniş funksiyalı əməliyyat imkanlarının yaranması nəticəsində isə Şərq−Qərb istiqamətində yükdaşımalarda konteyner yüklərinin payı artırılacaq. Bütün bunlarla bərabər, Bakı Beynəlxalq Dəniz Ticarət Limanında idxal və ixrac gömrük rejimi prosedurları tətbiq ediləcək.

Regional qovşaq konsepsiyasına uyğun olaraq yük avtomobil nəqliyyatı vasitələrinin də bir mərkəzdə cəmləşməsi gerçəkləşdiriləcək. Sənədə əsasən, Bakı Limanında və Dübəndi Terminalında dibdərinləşdirmə işləri həyata keçiriləcək. Bu da limanın və terminalın akvatoriyasına yükgötürmə qabiliyyəti və suya oturumu daha yüksək olan gəmilərin girişinə imkan yaradacaq. Fəaliyyət planında nəzərdə tutulan işlərin əsas iştirakçısı kimi Bakı Limanı çıxış edəcək.

Bu gün Bakı Limanı "yaşıl liman" və logistika mərkəzi kimi inkişaf etdirilir. Burada Avropa İttifaqının ekoloji, iqtisadi və sosial təminatlarla bağlı yeni strategiyasına uyğun olaraq ən son texnologiya və ekoloji standartlar tətbiq olunur. Bu məqsədlə limanda Xəzər hövzəsində neftlə və məişət tullantıları ilə çirklənmiş suları təmizləyən qurğular quraşdırılır.

İkinci mərhələdə isə liman kompleksinin tamamilə başa çatdırılması ilə ümumi yükaşırma imkanı artaraq 25 milyon tona və 500 min TEU konteynerə çatdırılacaq. Limanın konteyner aşırma qabiliyyətinin artırılması isə Orta Dəhlizə daha çox yüklərin cəlb edilməsinə imkan verəcək. Nəticədə qarşıdakı 10 ildə Orta Dəhliz Şərqlə Qərbi birləşdirən əsas infrastruktura çevriləcək.

Ekspertlərin fikrincə, bu müddətdə sözügedən liman, həm də tam dayanıqlı "yaşıl dəhliz" kimi fəaliyyət göstərəcək. Mütəxəssislərin təxmini hesablamalarına görə, Bakı Limanının ikinci fazası çərçivəsində tikinti işləri təqribən 3 il çəkəcək.

Limanın hazırkı fəaliyyətindən danışarkən bu infrastrukturun iqtisadi göstəricilərinə də diqqət yetirək. Ötən il "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-də ümumi yükaşırmanın həcmində 14,6 faiz, quru yükün aşırılması 66 faiz, konteyner daşınması isə 11,6 faiz artıb. Bununla da proqnoz 104 faiz həcmində icra edilib.

***Vaqif BAYRAMOV***
***XQ***

# Orta dəhliz Şərqi Qərblə qovuşdurur




**Xəbər verildiyi kimi, fevralın 27-də Gürcüstanın paytaxtı Tbilisidə Dünya Bankının bu yaxınlarda dərc etdiyi "Orta ticarət və nəqliyyat dəhlizi: Yüklərin üç dəfə artırılması və daşınma müddətini yarıya endirmək üçün siyasətlər və investisiyalar" adlı tədqiqata həsr olunmuş regional tədbir keçirilib. Gürcüstan, Azərbaycan, Qazaxıstan və Ermənistanın hökumət nümayəndələri, eləcə də dövlət müəssisələrinin, özəl sektor və beyin mərkəzlərinin təmsilçilərinin iştirak etdikləri tədbirdə Dünya Bankının araşdırmalarının əsas nəticələri ilə bağlı məsələlər müzakirə olunub.**

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) əməliyyat səmərəliliyinin artırılması və mövcud problemlərin aradan qaldırılması üçün regional yanaşmanı inkişaf etdirmək məqsədi daşıyan tədbirdə ölkəmizi rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin departament müdiri Xudayar Həsənli təmsil ediblər.

"Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Assosiasiyası"nın baş katibi Qaydar Abdikerimov çıxışında bildirib ki, Orta Dəhlizin rəqəmsallaşdırılması bu marşrutun gələcək inkişafına və genişlənməsinə töhfə verən mühüm aspektdir: "Bu amil nəzərə alınaraq rəqəmsallaşma məsələsinə xüsusi diqqət yetirilir. Orta Dəhlizi daim böyüyən və inkişaf edən canlı orqanizm hesab etmək olar. O, inkişaf dinamikasında qalmağa davam edir ki, bu da beynəlxalq nəqliyyat marşrutunun uğurundan xəbər verir", – deyə o əlavə edib.

Hazırda Orta Dəhlizi əhatə edən vahid IT sisteminin yoxluğunun müəyyən çətinliklərə yol açdığını vurğulayan Dünya Bankının nəqliyyat sahəsi üzrə iqtisadçısı Viktor Araqones isə çıxışında qeyd edib ki, sözügedən marşrutun inkişafında infrastruktur məsələləri əhəmiyyətlidir. Onun sözlərinə görə, Orta Dəhlizdə mövcud maneələri aradan qaldırmaq üçün əməliyyat səmərəliliyinə diqqət yetirilməlidir. Bankın müəyyən etdiyi əsas məqamlardan birinin dəhlizin koordinasiyası ilə bağlı olduğunu vurğulayan V.Araqones, həmçinin deyib ki, bu marşrut digərlərinə nisbətən daha mürəkkəb olduğu üçün yüklərin dəmir yolu ilə limana, buradan isə gəmilərə daşınması arasındakı əlaqələrin təkmilləşdirilməsinə ehtiyac var.

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov çıxış edərək deyib ki, son iki ayda Orta Dəhlizlə Çindən 13 blok qatarı göndərilib və görülən tədbirlər sayəsində həmin konteynerlər cəmi 12 günə Gürcüstan limanlarına çatıb. Əvvəllər isə bunun 40-50 gün çəkdiyini vurğulayan nazir müavini bildirib ki, Azərbaycan avtomobil yolları və dəmir yolu xətlərinin inkişafı üçün investisiya yatırmaqda davam edir. Onun sözlərinə görə, Zəngilanla Naxçıvanı və Türkiyəni birləşdirən nəqliyyat xəttinin qurulması Orta Dəhlizinin bir hissəsi kimi nəqliyyat və logistika əlaqələrinin inkişaf etdirilməsi üçün böyük fürsətlər yaradır. Belə ki, hesablamalara görə, Zəngəzur Dəhlizi Orta Dəhlizin daşıma qabiliyyətini ildə 8-10 milyon tona qədər artıracaq.

Orta Dəhlizin potensialının reallaşdırılmasında göstərdikləri dəstəyə görə beynəlxalq təşkilatlara və Dünya Bankının komandasına təşəkkürlərini çatdıran R. Hümmətov bildirib ki, Azərbaycan dövlətinin Avrasiyada etibarlı həlqə rolunu oynayan bu marşrutun inkişafını dəstəkləmək, onun potensialını maksimum dərəcədə artırmaq niyyəti və güclü siyasi iradəsi var.

Tədbir çərçivəsində Dünya Bankının "Orta ticarət və nəqliyyat dəhlizi: 2030-cu ilə qədər yükdaşımaların həcminin üç dəfə artırılması və daşınma müddətini yarıya endirmək üçün siyasətlər və investisiyalar"la yanaşı, "Orta Dəhlizin rəqəmsallaşdırılması" tədqiqatının təqdimatı da keçirilib.

Yeri gəlmişkən, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda marşrut Çin– Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur. 2023-cü ildə Orta Dəhliz vasitəsi ilə 2 milyon 750 min ton yük daşınıb ki, bu da 2022-ci illə müqayisədə 86 faiz çoxdur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Ekspert rəyi

**Təbriz YADİGAROV,**
**ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent**



Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) Qazaxıstan, Azərbaycan, Xəzər dənizi və Gürcüstanı birləşdirən multimodal nəqliyyat marşrutu olmaqla region ölkələri arasında ticarətin şaxələndirilməsi vasitəsi kimi mühüm əhəmiyyət kəsb edir. Şimal-Cənub nəqliyyat dəhlizinə alternativ olan bu marşrut üzrə ticarətin, təxminən, üçdə birini tranzit yüklər təşkil edir. Orta Dəhliz ölkələrinin ticarət əməliyyatlarının coğrafiyası, əsasən, əmtəə ixracının və təkrar ixracın hesabına dəyişib. Dünya Bankının məlumatlarına əsasən, 2023-cü ildə region üzrə ixrac artımının yarısından çoxu Avropa İttifaqının (Aİ) payına düşüb. Qeyri-resurs ixracının payı isə ABŞ (metallar), Rusiya (avadanlıq və elektronika), eləcə də Ermənistan, Belarus, Qazaxıstan və Qırğızıstan respublikalarında (aparat və elektronika, avtomobil və qida) nəzərəçarpacaq dərəcədə artıb.

İdxal ən çox Çindən (30 faiz), Rusiyadan (21 faiz), Aİ-dən (15 faiz) və Türkiyədən (12 faiz) artıb, lakin əmtəə ticarətinin strukturu, əvvəlki illərdə olduğu kimi, əsasən sabit qalıb. Orta Dəhlizlə Gürcüstandan Peruya gübrə, Qazaxıstandan Panamaya neft ixrac edilib. Proqnozlara görə, Aİ və Çin arasında ticarətin həcmində 2030-cu ilə qədər əhəmiyyətli artım olacağı gözlənilir.

Dünya Bankının məlumatlarına əsasən, ümumilikdə, Aİ, onun üzv ölkələri və inkişaf bankları Mərkəzi Asiyanın nəqliyyat sistemlərini təkmilləşdirmək üçün 2021–2027-ci illər ərzində 300 milyard avroya qədər dövlət və özəl sərmayə qoyuluşunu planlaşdırıblar. Bank düzgün investisiyalar və strateji qərarlarla Orta Dəhliz boyunca ticarətin həcminin 2030-cu ilə qədər üç dəfə artacağı, eyni zamanda, marşrut boyu daşımalara sərf edilən vaxtın iki dəfə azalacağını təxmin edir. Bununla yanaşı, 2027-ci ilə qədər sözegedən dəhlizin ötürücülük qabiliyyətinin ildə 10 milyon tonadək artırılması, çatdırılma müddətlərinin isə 14-18 günə endirilməsi nəzərdə tutulur.

Yeri gəlmişkən, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Qara dəniz və Türkiyədən keçərək Avropaya gedən Orta Dəhlizin daha çox sərhədləri keçmək zərurəti, yükdaşımaların artması və yükaşırma əməliyyatlarında mövcud olan səmərəsizlik səbəbindən zəif inkişafı nəzərə çarpır. Fevralın 27-də Tbilisidə Dünya Bankının dərc etdiyi "Orta ticarət və nəqliyyat dəhlizi: Yüklərin üç dəfə artırılması və daşınma müddətini yarıya endirmək üçün siyasətlər və investisiyalar" adlı tədqiqatına həsr olunmuş regional tədbir bu problemin həlli baxımından xüsusi əhəmiyyət kəcb edir. Düşünürəm ki, əməliyyat səmərəliliyinin artırılması və mövcud problemlərin aradan qaldırılması üçün regional yanaşmanın inkişaf etdirilməsi məqsədi daşıyan bu tədbir Orta Dəhlizin perspektiv inkişaf istiqamətlərinin yüksəldilməsində əhəmiyyətli rol oynayacaq.

# Milli neft şirkəti 25 ilə "xalis sıfır" hədəfinə çatacaq

**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) əsas məqsədlərindən biri 2050-ci ilə qədər "xalis sıfır" (Net Zero) hədəfinə çatmasıdır.**



SOCAR-dan aldığımız məlumata görə, bu barədə şirkətin prezidenti Rövşən Nəcəfin BP-nin strategiya və davamlılıq üzrə icraçı vitse-prezidenti Culia Kerkia ilə görüşündə bildirilib.

Görüşdə cari il COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarın beynəlxalq ictimaiyyətin ölkəmizə olan yüksək etimadının göstəricisi olduğu vurğulanıb.

Ötən ilin dekabrında SOCAR və BP şirkətləri arasında ətraf mühitin mühafizəsi sahəsində birgə əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə dair imzalanan anlaşma memorandumunun əhəmiyyəti qeyd olunaraq bu istiqamətdə görülən işlər nəzərdən keçirilib.

Görüşdə SOCAR-ın ekoloji sahədə fəaliyyəti, orta və uzunmüddətli perspektivdə emissiyaların azaldılması ilə bağlı müəyyənləşdirilən hədəfləri barədə məlumat verilib, hasilat prosesində məşəldə yandırmaların sıfıra endirilməsinin, emissiya intensivliklərinin azaldılmasının, "sıfır metan" hədəflərinə çatmanın şirkətin əsas məqsədlərindən olduğu bildirilib.

Tərəflər, həmçinin enerji keçidi və qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# İlk ayda illik inflyasiya kəskin azalıb

**Cari ilin ilk ayında Azərbaycanda illik inflyasiya 1,7 faiz təşkil edib. Xatırladaq ki, bu göstərici 2023-cü və ondan əvvəlki illərin yanvar aylarında müvafiq olaraq 12,5 faiz və 13,6 faiz təşkil edib.**




Bəs, ötən ay ölkədə illik inflyasiyanın kəskin enməsinə səbəb nə olub? Bununla bağlı İqtisadiyyat Nazirliyindən bildirilib ki, 2023-cü il ərzində respublikamızda inflyasiyada əvvəlki illə müqayisədə azalma davam edib. Belə ki, ötən ilin dekabr ayında cəmi məhsul və xidmətlər üzrə illik inflyasiya əvvəlki ilin müvafiq göstəricisinə nəzərən 12,3 faiz bəndi azalaraq 2,1 faiz təşkil edib. 2023-cü ilin dekabr ayında ərzaq məhsulları üzrə illik inflyasiya 0,8 faiz, qeyri-ərzaq məhsulları üzrə 2,7 faiz, ödənişli xidmətlər üzrə isə 3,7 faiz olub. İnflyasiyada səngimə 2024-cü ildə də davam edib və cari ilin yanvar ayında bu göstərici 1,7 faizə enib.

"Ticarət tərəfdaşları üzrə inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin enməsi, profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması, manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, hökumət tərəfindən həyata keçirilən antiinflyasiya tədbirləri inflyasiyaya azaldıcı təsir göstərib", – deyə məlumatda qeyd olunub.

Maliyyə Nazirliyinin məlumatında, həmçinin bildirilib ki, qeyd edilənlərlə yanaşı, qlobal əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını məhdudlaşdırmaqla inflyasiyaya azaldıcı təsir göstərib: "Qiymətlərin zəruri gündəlik tələbat məhsulları üzrə daxili istehsalın təşviqi, eyni zamanda ölkədə qiymətlərin bazar prinsipləri əsasında formalaşmasını qorumaqla işgüzar fəallığa və əhalinin sosial rifahına inflyasiyanın təsirlərini minimallaşdırmaq məqsədilə Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında", eləcə də "İnflyasiya və qiymətlər üzrə monitorinqin gücləndirilməsi istiqamətində əlavə tədbirlər barədə" sərəncamlarında nəzərdə tutulan kompleks tədbirlərin icrası da inflyasiyaya azaldıcı təsir göstərib".

# 1 ayda 16 milyon manat ipoteka krediti

**Mərkəzi Bankın xəbərinə görə, bu ilin yanvar ayında İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə 16,1 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 82,95 faiz çox) kredit verilib.**



Hesabat dövründə İKZF-nin yenidən maliyyələşdirdiyi kreditlərin məbləği isə 30,1 faiz azalaraq 20,9 milyon manat olub.

Ay ərzində İKZF-də istiqraz buraxılmaqla 50 milyon manat vəsait əldə edilib, 1 il bundan əvvəl olduğu kimi, fonda dövlət büdcəsindən vəsait ayrılmayıb.

***XQ***

**Erkən nikahla bağlı “XQ”nin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə təşkil etdiyi “dəyirmi masa”da qonaqlarımız Azərbaycan Respublikası Prezidenti Administrasiyasının qanunvericilik və hüquq siyasəti şöbəsinin sektor müdirləri Araz Poladov, Rüstəm Qasımov, Milli Məclisin deputatı Vüqar İskəndərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Taliyə İbrahimova, Daxili İşlər Nazirliyinin xüsusilə mühüm tapşırıqlar üzrə baş inspektoru, polis mayoru Emin Nəsirli, Bakı şəhəri Sabunçu Rayon İcra Hakimiyyəti başçısının müavini Rəna Vəliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yanında ictimai şuranın sədr müavini Nailə İsmayılova və “Vətəndaşların Əmək Hüquqları Liqas”nın sədri, hüquq müdafiəçisi Sahib Məmmədov idi.**

# Ailə xoşbəxtliyin isti yuvasıdır, gərək ora öz vaxtında gələsən



**“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov** qonaqları salamlayaraq bildirdi ki, bu gün Azərbaycan cəmiyyətində erkən nikah ağrılı problemlərdən biridir. Bu, bəzən qızların öz istəkləri, bəzən də valideynlərin təzyiqi, habelə ailədə maddi vəziyyətin çətinliyi və digər səbəblərdən yaranır. Düzdür, belə bir narahatlıq doğuran məsələdə üzrlü səbəblər də olur və bu cür hallarda müvafiq icra hakimiyyəti orqanı çıxış yolu kimi nikah yaşının 1 il azaldılmasına icazə verir. Əslində, belə bir vəziyyət də sonradan müəyyən sui-istifadə hallarına gətirib çıxarır, erkən nikahların sayının artmasını şərtləndirir. Ümumiyyətlə, bu hallar cəmiyyətdə məlum məsələlələ bağlı narahatlıqları daha da artırır. Vaxtaşırı mediada işıqlandırılan belə problemlər də sözügedən məsələyə daha ciddi yanaşılmamasını göstərir.

Əflatun Amaşov qeyd etdi ki, erkən nikahla bağlı sadalanan problemlərin böyük bir hissəsi aradan qaldırılsa da, hələ də bu sahədə bir sıra çatışmazlıqlar nəzərə çarpır. Buna görə də sözügedən məsələ Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin daim gündəliyindədir. Qurum Milli Məclisin müvafiq komitəsi ilə birgə bu probləmə həssaslıqla yanaşır və zamanın tələbinə uyğun olaraq qanunvericiliyə müəyyən əlavə və dəyişikliklərin gerçəkləşdirilməsini diqqətdə saxlayır.

Bu halların qarşısının alınması və cəzalandırılması ilə bağlı mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi zəruridir. O cümlədən nikah yaşının azaldılması ilə bağlı istisnanın ləğv edilməsi və erkən evliliklə nəticələnən mərasimlərin keçirilməsinə görə də məsuliyyətin müəyyən edilməsi təklif olunur.

Baş redaktor qonaqları işgüzar, səmərəli müzakirəyə dəvət edərək vurğuladı ki, redaksiyanın fəaliyyətində ölkənin sosial həyatının bütün sahələrindəki müəyyən çətinliklər, eləcə də erkən nikah problemi ilə bağlı məqalələrin dərc edilməsi prioritet istiqamətdir. Bügünkü “dəyirmi masa” da həmin silsilənin, bir növ, davamıdır.





**Rüstəm Qasımov:**

– Erkən nikah doğrudan da ağrılı bir problemdir. Bəs bununla bağlı qarşımıza qoyulan tapşırıq nədən ibarətdir? Sualın cavabı ilə əlaqədar, ilk növbədə, onu qeyd edə bilərəm ki, qanunvericilikdən gözləntilər çoxdur. Bu da normaldır. Amma bu məsələ qanunvericilik məsələsi deyil. Bu, əsasən, sosial, adət-ənənə, eyni zamanda, psixoloji məsələdir. Qanunvericilik bu problemə kömək prinsipi ilə yanaşır. Biz ekspertlərin, müvafiq orqanların təqdim etdikləri məlumatlara, habelə müəyyən layihələrə, təkliflərə əsaslanaraq, erkən nikahın qarşısının alınması məqsədilə müəyyən balanslı bir nəticəni əldə etməyi qarşıya önəmli məqsəd kimi qoyuruq. Bu məsələ istər mediada, istərsə də rəsmi toplantılarda daim müzakirə edilən bir mövzudur. Yeri gəlmişkən, nikahın 18 yaşdan 17 yaşa qədər azaldılmasını müəyyən istisna hallarda komitənin rəyini almaq şərtilə saxlamağı təklif etmişdik. Bu dəfələrlə müzakirə də edilmişdi. Bundan məqsəd nə idi? nikahın 18 yaşdan 17 yaşa qədər azaldılması nə dərəcədə məqbuldur? Orada da heç kimin bu azaldılmanın tərəfdarı olmadığı görünürdü. Bildirilirdi ki, belə də sui-istifadə halları olur, heç bir səbəb göstərilmədən nikah 18 yaşdan 17 yaşa salınır, azyaşlıların evlənməyinə şərait yaradılır.

Onu da qeyd edim ki, bu məsələdə heç Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin də rəyi soruşulmur. Bir orqan qərar verir, onun üzərində nəzarət mexanizmi yoxdur. Bu məsələdə sui-istifadə hallarına yol verilirsə, kimi cəzalandırmaq, bunu hansı formada etmək lazımdır? Cəzalandırma nə qədər sərt olmalıdır, yaxud nə qədər yumşaq olmalıdır? Və hansı qanunvericilik çərçivəsində olmalıdır? Cinayət Məcəlləsi, ya İzibati Xətalar Məcəlləsi əsasındamı? Ümumiyyətlə, suallar çoxdur və məsələ də təkcə məsuliyyət məsələsi deyil. Qanunvericilikdə hansı başqa addımları atmaq mümkündürsə, məmnuniyyətlə o barədə fikirləri də dinləməyə hazırıq.



**Araz Poladov:**

– Problemləri əsasən iki istiqamətdə görürük. Birincisi, nikah yaşının qanunvericilikdə azaldılması prosedurunun mövcud olması, bu sahədə yaşın 18-dən 17-yə salınmasının məqsədəuyğunluğu, ikincisi isə erkən yaşda evlənməyə məcburetmənin, nişanlanmaya görə müəyyən çəkindirici halların müəyyən olunmasıdır. Bizim ilkin mövqeyimiz ondan ibarət idi ki, 17 yaş məsələsi qanunvericilikdə təsbit oluna bilər. Çünki beynəlxalq praktikanı araşdıranda gördük ki, əksər inkişaf etmiş ölkələrdə nikah yaşının müvafiq icra hakimiyyəti orqanının, məhkəmənin, valideynlərin razılığı ilə 18 yaşdan 17 yaşa salınması proseduruna icazə var. Avropada, ABŞ-da və Asiya ölkələrində də bunu müşahidə etmək mümkündür. Bu baxımdan bizim ilkin mövqeyimiz o oldu ki, bu sahədə sui-istifadə hallarının qarşısı alınmalı, dövlət nəzarəti gücləndirilməlidir. Ona görə də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəyinin alınması təklif edildi. Lakin ictimai müzakirə zamanı belə bir mövqe də özünü göstərdi ki, nikah yaşının 18-dən 17-ə salınması müvafiq hesab edilməsin. Bu məsələdə heç bir istisna olmadan 18 yaş təsbit olunsun. Fikrimizcə, bu da mümkündür, amma buna qərar verən qanunverici orqandır, təklifə sonuncu münasibət bildirən də məhz həmin qurumdur.

İkinci məsələ isə 13, 14, 15, hətta 12 yaşlarda nişanlanmaların, faktiki olaraq nikah münasibətlərinə daxil olmaların qarşısının alınmasıdır. İstənilən halda 18 və 17 yaşdan aşağı dövlət nikahı qeydə almır. Amma müşahidələr göstərir ki, belə hallar mövcuddur. Sabirabadda 12 yaşlı qızın nişanlanması, digər belə neqativ halların baş verməsi bunun bariz ifadəsidir. Düzdür, nişanlanma birgə yaşayışı ehtiva etmir, belə demək mümkünsə, bu evlənmək üçün bir növ sövdələşmə anlamına gəlir. Qanunvericilikdə nişanlanmanın statusu müəyyənləşdirilmir. Amma belə halların qarşısının alınması bizi təbii ki, ciddi düşündürür. Burada da ikili yanaşma mövcuddur. Birincisi, 16 yaşdan aşağı şəxslərin nişanlanması, evlənmə ilə bağlı sövdələşməyə gedilməsi Cinayət Məcəlləsi çərçivəsində qadağan olunmalı, nişanlanmaya, nikaha məcburedilmə hallarına şərait yaradan şəxslər müəyyən cərimə ilə müvafiq məsuliyyət daşımalıdırlar. İkincisi yanaşma isə nişanlanmanın daha az təhlükəli əməl olduğu üçün inzibati məsuliyyətin müəyyən olunmasıdır.



**Vüqar İsgəndərov:**

– Mən bütün sahələrdə sərt qanunların olmasının tərəfdarıyam. Çünki dünyanın keçdiyi bir təşəkkül yolu var. Bu gün Qərbdə elə dövlətlər var ki, onlarda dəqiq, ədalətli xalq və dövlət, intizamlı cəmiyyət anlayışına həssaslıqla yanaşılır. Onların keçmişi bəlkə də barbarlıqla bağlıdır. Bəs indiki mütərəqqi cəmiyyət quruculuğunda uğurlar necə əldə edilib? Onlar indiki mərhələyə təkcə maarifləndirmə yolu ilə deyil, həm də sərt qanunvericiliklə nail olublar. Məsələn, bu gün Azərbaycanda yol hərəkəti təhlükəsizliyi ilə bağlı vəziyyətə diqqət etdikdə hər şeyin normal məcrada olduğu görünür. Halbuki, neçə il bundan əvvəl belə deyildi, sürücülər texniki baxışdan, sığorta ödənişindən yayınırdılar. Bu hal yeni çağırışları, müvafiq sahədə qanunların dəyişilməsini tələb edirdi. Beləliklə, mövcud qanunlar dəyişdirildi, hətta bu məsələdə qanunvericilik bir qədər sərtləşdirildi. Düzdür, bu, ilk vaxtlar bəzi sürücülər tərəfindən narazılıqla qarşılandı, amma vaxt ötdükcə qanunların sərtliyi onları texniki baxışdan, sığorta ödənişindən yayındırmaqdan çəkindirdi. İndi isə artıq sözügedən sahədə müsbət vəziyyət göz önündədir...

Bəli, qanun bu gün sərt, ağrılı görünə bilər, amma bu, gələcək nəsillərin intizamlı həyatında, başqa sözlə, uğurlu inkişafında zəmin rolu oynaya bilər. Bu baxımdan erkən nikahla bağlı sadalanan problemlər də, necə deyərlər, qanunun sərt “əli” ilə öz həllini tapar.

**Sahib Məmmədov:**

– Vaxtilə işlədiyim yerli icra orqanlarının birində erkən nikahla bağlı sərt bir prosedur qaydasının tərəfdarı olduğunu bildirmiş, qız və oğlanın ayrı-ayrılıqda tibbi yoxlamadan keçmələrini, özlərinin, həmçinin valideynlərinin intervü olunmalarını qarşıya prioritet vəzifə kimi qoymuşdum. Mən problemi 1 ya 2 yaş fərqində görmürəm. İstisna hal olmalıdır. Bəzi ölkələrdə bu var. Səhiyyə sisteminin müəyyən normativlərinə görə, belə bir hal mümkündür, yəni yaş hədləri tərəddüd edə bilər.

Bu məsələ sovet dövründə fərqli idi. Bu da hər bir yaşayış məntəqəsində, eləcə də paytaxtda qızların iş yerləri ilə təminatının reallaşması ilə bağlı idi. Başqa sözlə, onlar kənd təsərrüfatı sahələrində olduğu kimi, Bakının sənaye müəssisələrində də çalışa, yataqxanalarda yaşaya bilirdilər. Etiraf edək ki, indi bu sahədə müəyyən çətinliklər yaşanır. Yeri gəlmişkən, bu məqamda vaxtilə apardığımız bir tədqiqatın nəticəsini xatırlatmaq istərdim: qızlar deyək ki, 9-cu sinfə qədər oxuyurdular, kolxoz-sovxoz sistemi də dağıldiğından sonra gedib təsərrüfatlarda işləyə bilmirdilər. Bakıya gəlib burada bir iş tapacaq ümidləri də yox idi. Bəs nə işlə məşğul olmalı idilər? Valideynləri də bu barədə düşünüb-daşınsalar da, bir çarə tapmırdılar. Son qərar da qızı ərə vermək olurdu. Bax, bu sosial səbəb həmin o qızların erkən ailə qurması ilə nəticələnirdi ki, bu da müəyyən fəsadlara gətirib çıxarırdı...

**Vüqar İsgəndərov:**

– Sahib müəllim, sizin fikirlərinizdə mübahisəli məsələlər də var...



**Sahib Məmmədov:**

– Biz daha çox nəticədən danışırıq, amma, ilk növbədə, səbəbi axtarmalı, sonra isə qanunvericiliyin tətbiqindən bəhs etməliyik.



**Emin Nəsirli:**

– Erkən nikahların sayı əvvəllər daha çox idi, lakin hüquq pozuntusu gizliliyini qoruyurdu. Ona görə ki, hüquqpozuntusunu törədən şəxslər yaxın iki qohum olurdu. Bir-birilə qarşılıqlı razılığa gəlib bu nikahı həyata keçirirdilər. Bu səbəbdən məlumat hüquq-mühafizə orqanlarına vaxtında daxil olmurdu. Ona görə də görülən tədbir gecikirdi və baş verən əməl bu üzdən cinayət məsuliyyətinə səbəb olurdu. Statistikaya nəzər salsaq, hər il erkən nikahla bağlı, istər erkən nikaha daxil olan şəxslər, istərsə də valideynlər, qohumlar, yaxın qonşular və dövlət qurumları tərəfindən müraciətlər çoxalıb. Bu da onun nəticəsidir ki, kifayət qədər maarifləndirici tədbirlər həyata keçirilib. Məhz belə tədbirlərin nəticəsidir ki, baş verən hallarla bağlı müraciətlər daxil olur.

Qeyd etmək istəyirəm ki, 2023-cü il ərzində erkən nikahla bağlı daxili işlər orqanlarına müraciətlərin sayı 50 olmuşdur. Onlardan 20 fakt üzrə cinayət işi başlanmışdır. 19 fakt üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 152-ci maddəsi ilə, 1 fakt üzrə isə 176-1-ci maddəsi ilə cinayət işi başlanmışdır. 152-ci maddəyə görə, erkən nikahla bağlı şəxsin iradəsindən asılı olmayaraq, bu əməl başa çatmış sayılır və cinayət məsuliyyətinə səbəb olur. Yəni, 16 yaşına çatmayan şəxslər cinsi əlaqədə ola bilməzlər. Bu, həmin şəxsin subyekt kimi, qarşı tərəfin ona razılıq verib-verməməsindən asılı olmayaraq cinayət məsuliyyətinə səbəb olur və dərhal barəsində tədbir görmək reallaşır. İkinci –176-1 maddə isə qadını məcburi nikaha daxil etməkdir. Bu halda isə cinayətin əsas subyekti valideynlər olur. Onlar uşağı öz istədikləri şəxslə nikaha daxil olmağa məcbur edirlər. Belə olan hallarda da müraciətə dərhal reaksiya verilir və tədbir görülür. Bizim ən zəif nöqtəmiz 16–18 yaş arasında olanların məsələsidir. Deputatımızın da qeyd etdiyi kimi, bununla bağlı sərt cəzalar olsa, hüquqların pozulması aradan qalxar.

Düşünürəm ki, kifayət qədər maarifləndirici tədbirlər keçirilib, 16–18 yaşa qədər evliliyə icazə yoxdur. İndiki qanunvericiliyə görə 17 yaşda, yalnız istisna hallarda nikaha icazə verilir. Qanunvericilikdə Ailə Məcəlləsində göstərildiyi kimi, nikaha daxilolma yaşı 18 olaraq nəzərdə tutulub. Bəs bunun pozulması zamanı hansı cəza nəzərdə tutulub? Əvvəllər rayonlara, ucqar kəndlərə gedərdik. Erkən nikahlarla bağlı müraciətləri yoxlayanda görürdük ki, bunların heç qanundan xəbərləri yoxdur, elə bilirlər ki, 16 yaşda da ailə qurmaq olar.

Qanunu bilməmək vətəndaşı məsuliyyətdən azad etmir, amma görürdük ki, məlumatsızdır. İndi sevindirici haldır ki, müraciətlə bağlı ünvana gedəndə etiraf edirlər ki, məlumatımız var, səhv etdiyimizi bilirik. Görürük ki, belə faktların sayı getdikcə azalmağa doğru gedir. Əvvəllər müraciətlərimiz də az olurdu. Hazırda kifayət qədər var, tədbirlər də görülür. Toy, nişanla bağlı müraciət olan kimi, qrup şəklində əməkdaşlarımız gedir, mərasim sahiblərini çağırırıq, profilaktik söhbət aparırıq. Bunu hamı bilir. Amma erkən nikaha daxil olduqlarına görə sərt cəzalandırılsalar, digər bu addımı atmaq istəyənlər ibrət götürərlər.

**Əflatın Amaşov:**

– Bununla bağlı hansı cəza növü və kimə tətbiq olunmalıdır? Xəbərdarlıqmı, cərimədmi?

**Emin Nəsirli:**

– Cəzalardan danışsaq, məncə, yüksək məbləğdə pul cəriməsi tətbiq edilməlidir. Çünki qarşılıqlı razılıqla nikaha daxil olurlarsa, burada həm qız, həm də oğlan məsuliyyət daşıyır. Məbləğ yüksək olarsa, cərimədən çəkinəcəklər. Hər birinə 5 min manat cərimə kəsilsə, bu, təbii ki, xoş qarşılanmayacaq. Maarifləndirici söhbətlər kifayət qədər aparılır. Erkən nikahın acı nəticələri ilə bağlı onlara xəbərdarlıq edilir. BMT tərəfindən müəyyən edilib ki, hətta 20 yaşlı və 28 yaşlı qadınların dünyaya gətirdikləri körpələr arasında ölüm faizi 20 yaşda qadınların uşaqlarında yarıbayarı çoxdur. Ona görə nikaha daxil olanların sağlamlıqları da yoxlanmalıdır.

**Sahib Məmmədov:**

– Bu məsələni gələcəkdə daha da mürəkkəbləşdirən bir problem də buradan yaranır. Bu, selektiv abortlardır. Hazırda ölkədə reproduktiv qadınların sayı kişilərdən azdır. Yaxın 10 illikdə bu, daha da ciddi problem olacaq, qızların sayı kəskin azalacaq və “qız qızıla dönəcək”. Onda valideynlər oğullarına erkən yaşdan qız axtarıb nişanlayacaq ki, gələcəkdə ailə qursun. Statistikaya nəzər salsaq, gələcəkdə qız tapmaq müşkül olacaq. Bu məsələni də araşdırmaq lazımdır.

**Rüstəm Qasımov:**

– Bizdə belə təəssürat yaranıb ki, 16–18 yaş Cinayət Məcəlləsinə görə cinsi azadlıq yaşıdır. Yəni razılıqla özü qərar verə bilər. Bəs 12–16 yaşın təhlükəsi nə qədərdir?

**Emin Nəsirli:**

– Orta məktəbdə oxuyan həmin yaşda qızlar erkən nikahın acı nəticələrini görmürlər, bilmirlər. Amma özündən 2–3 sinif yuxarı oxuyanın, yaxud 17 yaşlının erkən nikahla bağlı cəzalandırıldığını görəndə, təbii ki, çəkinəcək, düşüncəsi dəyişəcək, bu addımı atmayacaq.

(ardı 9-cu səhifədə)

# Ailə xoşbəxtliyin isti yuvasıdır, gərək ora öz vaxtında gələsən

(əvvəli 8-ci səhifədə)

**Taliyə İbrahimova:**



– Hüquqi yanaşma budur ki, qanun qohumla və erkən yaşda nikaha icazə verir, amma fəsadları və zərərli nəticələri var. Nikaha məcburetməni Cinayət Məcəlləsi müəyyənləşdirir ki, nikaha məcbur etmək olmaz, qadağandır. Bəs uşaq evliliyi? Buna görə hansı məsuliyyət var? İnzibatı Xətalar Məcəlləsində göstərilir ki, uşağın təlim-tərbiyəsi ilə bağlı vəzifələri yerinə yetirməyən valideynə xəbərdarlıq edilir və 40–60 manat cərimə olunur. Bu məsələlər fərqləndirilməlidir.

**Rəna Vəliyeva:**



– Qanunvericilikdə qeyd olunur ki, üzürlü səbəb olduqda, müvafiq icra hakimiyyəti orqanı nikah yaşının 1 il müddətinə azaldılmasına icazə verə bilər. Burada üzürlü səbəb sözü artıq problem yaradır. Komissiyaya müraciət edən hər bir ailə özünə görə bir üzürlü səbəb irəli sürür. İş prosesində rast gəldiyimiz istisna hallar müxtəlifdir. Nikaha daxil olmaq istəyən şəxslərin yaxın qohumlarının, valideynlərinin xəstəliyi, uzunmüddətli ezamiyyət, başqa ölkəyə köçmək və ən çox rast gəlinən hamiləlik məsələsidir.

Biz yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi işi üzrə komissiya olaraq azyaşlıların hüquqlarını müdafiə edirik. Bu məsələləri müzakirə edəndə, baxırıq ki, nə nənənin, nə atanın xəstəliyi, nə ezamiyyətə getmək məsələsi uşaqların hüquqlarını müdafiə etmir. Burada yeganə hal hamiləlik məsələsidir ki, biz belə olanda nikah yaşının azaldılmasına razılıq veririk. Çünki hamilənin qeydiyyata alınması, doğulan uşağın sosial hüquqlarının müdafiəsi istiqamətində lazımi tədbirlərin görülməsi məqsədilə nikah bağlanmalıdır. 16–18 yaş arası qız uşağı belə erkən hamiləliyə səbəb olur. O da özlüyündə uşaq evliliyinin bir il azaldılmasına təkan verir. Ona görə bu məsələlər paralel şəkildə getməlidir.

İlkin növbədə 16–18 yaş arası cinsi azadlıq qadağan olunmalıdır ki, o da özlüyündə erkən evliliyə yol açmasın. Çünki biz cinsi azadlığa razılıq veririksə, cinsi azadlıq ola bilər, valideyn gəlir ki, qızım hamilədir, artıq həkimə getməlidir, qeydiyyata alınmalıdır, xəstəxana qəbul etmir. Belə olan halda biz erkən nikaha razılıq verməyə məcbur oluruq.

Məsələnin ikinci tərəfi, cəza mexanizmi də var. Bu, necə olmalıdır? Deyim ki, cəza mexanizmi var, sadəcə, tətbiqi geniş deyil. Bu yaxınlarda rayonların birində cəza mexanizminin tətbiqinin şahidi oldum. Ata, hətta həbs olundu. Bu mexanizm valideyn hüquqlarının məhdudlaşdırılmasına qədər gedə bilər. Qanunu bilməmək heç kəsi məsuliyyətdən azad etmir.





Təqdim edilən suallar içərisində bir məsələ də vardı: maarifləndirmə, yoxsa cəza? Bunlar paralel getməlidir, maarifləndirmədən başlayıb cəzada bitməlidir. Əgər, ilk növbədə, maarifləndirmə aparılır, tətbiq olunur və nəticə yoxdursa, əməl artıq cəzanın tətbiqi ilə yekunlaşmalıdır. Bir misal xatırladım. Hamımız bilirik ki, pandemiya dönəmində bütün dünyada maska taxmaq tələbi qoyuldu ki, hər kəs sağlamlığını qorusun. Biz isə yayınırdıq. Nəticə etibarilə cəza tətbiq olundu, mexanizm gözəl işlədi və hamı bir nəfər kimi maskaya keçdi.

Bunun kökündə təhsildən yayınma dayanır. Cəzasızlığın daha çox hökm sürdüyü sahə təhsilsizlikdir. Bu, mənim ağrılı yerimdir. Çünki, bizim Sabunçu rayonunda təhsildən yayınma halları çoxdur. Bununla bağlı olaraq son dövrlərdə İnzibati Xətalar Məcəlləsinin valideyn məsuliyyətsizliyi ilə bağlı olan müvafiq maddəsini əsas götürüb polisə müraciət edirəm ki, 60 manat da olsa cərimə cəzası tətbiq olunsun. Bununla təhsildən yayınmanın qarşısını almağa çalışırıq.



Maarifləndirmə tədbirləri həyata keçiririk, bu yaxınlarda belə bir araşdırma apardıq ki, 2023–2024-cü tədris ili ərzində fevral ayına qədər 47 məktəb üzrə 75 şagird qız təhsildən yayınıb. Bu çox ciddi rəqəmdir. Əslində, əvvəlki illərdə də bu statistikanı aparırdıq. Valideynlərlə görüşürük, görürük ki, təhsildən yayınmanın kökündə məsuliyyətsizlik durur. "Gətirə bilmirəm", "uşaq istəmir", "uşaq sinifdə qaldığına görə yaşıdlarından geridə qalır, utanır" kimi boş bəhanələrlə qızların məktəbdən, təhsildən uzaqlaşmalarına şərait yaradırlar. Qızın heç bir məşğuliyyəti olmur, evdə oturub, təəssüflər olsun ki, sadəcə olaraq, ərə getmə zamanını gözləyir.

Düşünürəm ki, maarifləndirmə istər yerli icra hakimiyyəti orqanları, istər qeyri-hökumət təşkilatları, istərsə də Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi, hüquq-mühafizə orqanları tərəfindən kifayət qədər aparılır. 2023-cü ildə biz Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi və Ombudsman Aparatı ilə böyük bir layihə–"Susma, səsini eşitdir!" aylığı həyata keçirdik. Aylıq çərçivəsində məktəblilərlə, valideynlərlə görüşürdük, müzakirələr aparırdıq. Düşünürəm ki, maarifləndirməyə dəstək məqsədilə cəza mexanizmi mütləq şəkildə tətbiq edilməlidir.

**Vüqar İsgəndərov:**

– Ailə bir institutdur, dövlətin bütövlüyündə mühüm amildir. Bu institut cəmiyyətə layiqli övlad yetişdirmək üçün möhkəm olmalıdır. Bu baxımdan erkən nikah probleminə həssaslıqla yanaşılmalıdır. Belə bir məsələnin bir sıra hallarda diqqət kənar qalması isə boşanmaların sayını artırır. Ümumiyyətlə, erkən nikah məsələsi psixoloji bir məqam kimi də nəzərə alınmalıdır. Hamımız yaxşı xatırlayırıq, bir vaxtlar valideyn qız köçürəndə ona ailəyə sadiqliyi məqsədilə dəyərli məsləhətlər verir, hətta onun ər evinə bağlılığının, burada son nəfəsinədək yaşamasının zəruriliyini anladırdı. İndi ailələrdə başqa bir ab-hava yaşanır. Ata-ana qızına deyir ki, ər evində sənə xətrinə dəyəcək bir söz deyilərsə, bu qapı üzünə açıqdır, biz ölməmişik, qayıt gəl, bizimlə yenə birgə yaşamağına heç kim mane ola bilməz.

Onu da etiraf edək ki, əvvəllər cəmiyyətdə boşanan qızlara o qədər də yaxşı baxmırdılar. Amma indi boşanmaların sayı artıqca, çoxu buna adi hal kimi baxır.

Bir sözlə, ailə institutunun möhkəmlənməsi daim diqqətdə saxlanılmalıdır. Ona görə də burada həm psixoloji məqam nəzərə alınmalı, həm də qanunvericilik bazası bu istiqamətdə möhkəmləndirilməlidir.

***

Ekspertlərin qənaətinə görə, erkən nikah hallarının baş verməsi bir çox hallarda ailələrdə münaqişələrə, boşanmalara və nəticədə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olur. Statistikaya əsasən, respublikamızda 18 yaşadək nikaha girən qızların sayının ən yüksək həddi 2011-ci ildə olub. Həmin dövrdə belə qızların sayı 5138 idisə, qanunvericilikdə qızlar üçün minimal nikah yaşının 17-dən 18-ə qaldırılması, habelə qadını nikaha məcbur etməyə görə cinayət məsuliyyətinin müəyyən edilməsi və maarifləndirmə işlərinin nəticəsində 2012-ci ildən bu göstəricinin azalması müşahidə olunur. Belə ki, 2019-cu ildə nikahları qeydə alınmış 18 yaşadək gəlinlərin sayı azalaraq 366, bəylərin sayı isə 1 nəfər olub. Eyni zamanda, 15-17 yaşlı qadınlar tərəfindən doğulan uşaqların sayı 2011-ci ildə 4392, 2019-cu ildə isə bu rəqəm azalaraq 2320 təşkil edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də yeniyetmə və gənclərin erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair məlumatlılıq səviyyəsinin artırılmasına xüsusi önəm verir, mütəmadi olaraq bu sahədə maarifləndirmə tədbirləri həyata keçirir.

Bu istiqamətdə görülən işlərin davamı olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyun 2020-ci il tarixli Qərarı ilə "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası" təsdiq edilmişdir. Sənədin layihəsi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən aidiyyəti dövlət orqanları ilə razılaşdırılmaqla hazırlanmışdır.

Qaydada gənclər arasında erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmənin aparılma prinsipləri, vasitələri, istiqamətləri, maarifləndirməni həyata keçirən dövlət qurumlarının dairəsi və onların funksiyaları müəyyən edilib.

İlk dəfə olaraq məhz bu sənəddə "erkən nikah", "qohumlar arasında nikah" və "erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələri" anlayışlarının izahı verilib. Qaydada erkən nikah – 18 yaşadək şəxslə bağlanmış nikah hesab edilir. Qohumlar arasında nikah dedikdə isə baba və (və ya) nənəsi ümumi olan şəxslər arasında bağlanmış nikah nəzərdə tutulur.

Qaydanın 1.2-ci bəndində gənclər arasında maarifləndirmə sahəsində tədbirləri həyata keçirən dövlət qurumlarının siyahısı və onların vəzifələri da açıqlanır. Belə ki, təsdiq edilmiş Qərarın 2-ci hissəsində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 18 yaşadək (erkən nikah) və yaşı 18-dən 29-dək olan gənclərin nikaha, o cümlədən müvafiq ərizələrindəki məlumatlara əsasən, qohum hesab edilən şəxslər arasında nikaha daxil olması və bu gənclər arasında bağlanmış nikahın pozulması hallarının statistikasının illər üzrə aparılmasını təmin etmək üçün müvafiq tədbirlərin görülməsi nəzərdə tutulur.

Təəssüflər olsun ki, həyata keçirilən tədbirlərə baxmayaraq, erkən nikah problemi digər ölkələrdə olduğu kimi, ölkəmizdə də hələ ki, mövcuddur və narahatlıq doğuran bir məsələdir. Odur ki, Azərbaycanda, həm də xarici ölkələrdə yaşayan soydaşlarımız, ictimai fəal insanlar, qeyri-hökumət təşkilatlarının nümayəndələri, din xadimləri, ümumilikdə, bütün cəmiyyət üzvləri problemlə mübarizədə fəal olmalı, bu halların qarşısının alınmasında yaxından iştirak edərək öz dəstəklərini göstərməlidirlər.

Unutmaq olmaz ki, azyaşlı uşaqları erkən nikaha və evliliyə məcbur etmək, hətta ictimai müzakirələr zamanı belə hallara haqq qazandırmaq müasir, demokratik ölkələr üçün heç bir halda normal qəbul edilə bilməz və birmənalı olaraq gender əsaslı zorakılığın ən bariz "nümunəsi" kimi dəyərləndirilməlidir.

O da vurğulanmalıdır ki, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin Azərbaycanla bağlı rəyində ölkədə qadınlar və kişilər üçün minimum nikah yaşının 18 yaş həddində müəyyən edilməsinə baxmayaraq, erkən nikah səviyyəsinin yüksək olduğu, qadınların və qızların yalnız kəbinlə nikaha daxil olmaları, erkən nikahların rəsmi qeydiyyatının olmaması səbəbindən qadınlar Ailə Məcəlləsinin təmin etdiyi müdafiədən yararlana bilmirlər.

**Vaqif BAYRAMOV,**
**Zərifə HÜSEYNOVA,**
**Səbuhi MƏMMƏDOV,**
**Cavid QAÇAYEV (foto)**

**XQ**





Yaddaşlarda yaşayanlar

# Altay Məmmədov – Gəncənin ədəbi "xan çinar"ı

**Hər dəfə onun adı çəkiləndə kövrəlirəm. Çünki bu ad mənə çox doğmadır. Bu yaxınlığa səbəb ailə dostluğu və onun insani keyfiyyətləridir. Hətta dostluğumuz mərhum atam, Xalq artisti Məhəmməd Burcəliyevin vəfatından sonra da davam edib.**



Hər dəfə zəng edəndə ilk deyəcəyi kəlmə bu idi: "Oğul, Altay əmindir". Hal-əhval tutar, problemlərimizlə maraqlanardı. Onunla birgə mərhum həyat yoldaşı Almaz xanım da hər zaman yanımızda olar və sevincimizi, kədərimizi bölüşərdi.

Altay Məmmədov ədəbiyyata nasir kimi gəlmiş, 1950-ci ildən başlayaraq hekayələrini müxtəlif mətbuat olqanlarında çap etdirmiş və ədəbi ictimaiyyətin diqqətini özünə cəlb edə bilmişdir. O həm də ədəbiyyatşünaslıq elmimizin kamil bilicisi idi.

Altay Yusif oğlu Məmmədov 1930-cu ildə Gəncədə anadan olub. O, 4 saylı fəhlə-gənclər məktəbini bitirib, 1943–1949-cu illərdə saatsaz şagirdi, usta köməkçisi və usta kimi çalışıb. 1949-cu ildə Gəncə Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olub, oranı fərqlənmə diplomu ilə bitirərək, "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasında müəllim vəzifəsində saxlanılıb. Hələ tələbəlik illərində "Kirovabad fəhləsi" qəzeti redaksiyasında korrektor, "Gəncə kommunisti" qəzeti redaksiyasında ədəbi işçi vəzifələrində çalışıb. 1950-ci ildə "Ədəbiyyat qəzeti"ndə dərc edilən "Fəhləlikdən alimliyə" oçerki ilə ədəbi aləmə qədəm qoyan Altay Məmmədov özü artıq belə bir işıqlı ömrün yolçusuna çevrilib. 1958-ci ildə çapdan çıxan "On birinci açar" adlı ilk hekayələr kitabını ədəbi tənqid müsbət dəyərləndirib. "Narınc", "Anam qocalmışdı", "Uvertüra", "Məhəbbətin səsi", "Gülab nəfəsli" və s. hekayələri bu janrın gözəl nümunələrindəndir.

O, filologiya elmləri namizədi, dosent, Əməkdar mədəniyyət işçisi idi. 1957-ci ildən Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü, 1962-ci ildə Gəncə filialının rəhbəri olub. Məhz onun rəhbərliyi ilə Gəncənin neçə-neçə sayılıb-seçilən şair və publisisti yetişib, Altay Məmmədov dühasından bəhrələnib. Əsl nüfuz sahibi olan Altay müəllimin sadəliyi, təvəzökarlığı isə bir başqa aləm idi. Hər zaman qaməti ilə Gəncənin Xan çinarlarını xatırladıb, tələbələrinin mənəvi atası və yaxın dostu olub.

Altay Məmmədov yaşadığı mühitin qanunlarına üstüörtülü ironiyalarla yanaşdığı hekayə, oçerk, məqalə və dram əsərləri ilə diqqət çəkib. "Həmyerlilər", "Kişilər", "Dəli Domrul" bu sıradandır. Əslində, onun nəsrinə bələd olmadan dramaturgiyasını duymaq və təhlil etmək çətindir. Altay Məmmədov dram əsərləri teatrın tələblərini səhnə effektlərinə deyil, aktyor ifasına güvənən rejissor traktofkası ilə eynilik təşkil edən həyat həqiqətləridir. "Həmyerlilər" pyesinin maraqlı tarixçəsi var. Müəllif bu barədə xatirələrində yazırdı: "Mənə "Həmyerlilər"in ideyasını Xalq artisti Məhəmməd Burcəliyev verdi. Mən bu mövzu ətrafında bir xeyli düşündüm və qərara gəldim ki, "Haralısan, əmioğlu" hekayəmin motivləri əsasında özümü pyesdə sınayım. Yazdım və pyesi Gəncə Dövlət Dram teatrının bədii şurasına təqdim etdim. Tamaşanın quruluşçu rejissoru isə elə Xalq artisti Məhəmməd Burcəliyev özü oldu. İlk dram əsərimin səhnə taleyi çox uğurlu oldu".

Müəllifin "Yadındamı?" (quruluşçu rejissor Tofiq Kazımov) lirik-psixoloji pyesi də ictimaiyyət tərəfindən böyük maraqla qarşılandı. 1937-ci il repressiya qurbanlarının acı taleyi, bu qəbildən olan ailələrin sanki fırtınalı bir dənizə düşmüş həyatı pyesin əsas personajı olan yüksək mənəviyyatlı Zaurun timsalında göstərilir. Xalq artisti Ələddin Abbasov "Yadındamı?" pyesi haqqında öz xatirələrində yazırdı: "Bu həmin dövr idi ki, mətbuat müvəkkilliyi şəxsiyyətə pərəstişin törətdiyi cinayətlərə həsr olunmuş əsərlərin çapına qəti icazə vermir, ayrı-ayrı əsərlərdə bu məsələyə toxunulan cümlələri də silib atırdı. Bu dövrdə Altay Məmmədovun "Yadındamı?" lirik-psixoloji dramı, sözün əsl mənasında, cəsarətli söz, addım, inqilab idi".

Müəllifin Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib" pyesinin motivləri əsasında "Ulduzlar görüşəndə" (quruluşçu rejissor Əməkdar incəsənət xadimi Yusif Bağırov) komediyası da dövrünün maraqlı səhnə əsərlərindən hesab edilir. Sovet dövründə səhnədən deyilən "Məmləkətdə ən böyük soyğunçu, quldurbaşı elə qibleyi-aləm (SSRİ rəhbərliyi nəərdə tutulurdu) özüdür" cümləsi salonda qeyri-adi bir vəcdlə, uğultu ilə qarşılanmışdı.

Altay Məmmədovun maraqlı səhnə əsərlərindən biri də "Dədə Qorqud" dastanının motivləri əsasında yazmış olduğu "Dəli Domrul" qəhrəmanlıq komediyasıdır. Həm "Dəli Domrul"da, həm də dramaturqun digər əsərlərində böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, obrazlar aktyora öz istedadını nümayiş etdirmək, müəllif fikrini sərrast çatdırmaq imkanı yaradıb. Onun dram pyesləri Azərbaycanda, eləcə də Rusiyada, Tacikistanda, Bolqarıstanda, Türkiyə və İranda tamaşaya qoyulub, bir sıra əsərləri ispan, ingilis, ərəb, fars, macar, eston, tacik və tamil dillərində çap edilib.

Görkəmli sənətkar tərcümə ilə də ciddi məşğul olub. Əbdüqəhhar İbrahimovun "İlk busə", Otar İoselianinin "Araba hələ aşmayıb", Vasili Şukşinin "Diribaş adamlar" pyeslərini ruscadan Azərbaycan dilinə çevirib. O, "Azərbaycan hekayəsi" adlı çox sanballı bir monoqrafiyası ilə ədəbiyyatşünaslıq elmimizin, ədəbi tənqidin, ədəbiyyat tariximizin də bilicisi olduğunu sübut edib.

Onunla son görüşüm Gəncədə 2002-ci ilin mart ayına təsadüf edib. Novruz bayramı ərəfəsi idi. Onun dostluq münasibətləri əsl örnək idi. Deyirdi, gərək dostu elə qazanasan ki, yükünü axirətdə də daşıya biləsən. Elə bu yükü, bu dünyadan axirətinəcən də layiqincə daşıdı. Bu gün biz Altay Məmmədov itkisini qəlbimizdə gəzdiriik.

Ruhun hər zaman şad olsun, Gəncənin Xan çinarı.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas***

"Aşıq Pəri Məclisi" – 40

# Ulu səslər, isti nəfəslər...

**"Aşıq Pəri Məclisi" hər zaman ruhumuza, sazımıza–sözümüzə güzgü tutub. Bu məclis haqqında ilk dəfə Narınc Xatunun dilindən eşitmişəm. El ağbirçəyinin sözü–söhbəti, əlvan naxışlı bayatıları, laylaları xalı-xalça ilməsi, butası kimi yaddaşıma hopub.**




"Aşıq Pəri Məclisi" "Əməkdar mədəniyyət işçisi" Narınc Xatunun ömür yadigarıdır. Hər dəfə bu məclisdən söz düşəndə ilk göz önünə gələn də Narınc Xatun olur. O, ruhumuza hakim kəsilən saz–söz sənətimizin təbliğinə bir ömür həsr edib.

Narınc Xatun 1930-cu ildə Neftçala rayonunda anadan olub. Hələ orta məktəb illərində ilk şeirlərini yazmağa başlayıb. Aylar, illər keçdikcə şeir yazmaq həvəsi onun könlünü ılıq yaz mehi kimi oxşayb, sənət aləminə aparıb. Şeirləri "Azərbaycan qadını" və başqa jurnallarda, qəzetlərdə dərc olunub. Eyni zamanda Azərbaycan radiosunun "Xalq yaradıcılığı – Bulaq" verilişlərində səsləndirilib. İncə ruhlu xanım şairin "Burla Xatun nəvəsiyəm" və "Mən xalqımın aşiqiyəm" adlı şeir kitablarını da oxucular maraqla qarşılayıb.



Görkəmli şair-aşıq Mikayıl Azaflı ilə birlikdə "Azaflı və Narınc Xatun" dastanını da o yaradıb. Ulu ozan sənətinə tükənməz məhəbbəti onu qadın saz-söz aşiqlərindən ibarət "Aşıq Pəri Məclisi" yaratmağa sövq edib. Bu məqsədlə Azərbaycanın bölgələrini, Borçalı və Göyçə mahallarını kənd-kənd dolaşaraq, aşıq şeiri üslubunda yazan qadın və qızları öz ətrafına toplayıb.

Narınc Xatunın fədakarlığı, istedadı və gərgin zəhməti sayəsində "Aşıq Pəri Məclisi"-nin yaradılmasından düz 40 il ötür. 1984-cü ildə aşıqların IV qurultayından sonra Xalq şairi Hüseyn Arifin və Xalq yazıçısı Əzizə Cəfərzadənin təşəbbüsü və dəstəyi ilə Azərbaycan Yazıçılar Birliyində "Aşıq Pəri Məclisi"nin təqdimat mərasimi keçirilib. Məclisin fəaliyyəti həmin illərdə vaxtaşırı Az.TV-də işıqlandırılıb. Vaxtilə Aşıqlar Birliyinin sədri olmuş Xalq şairləri Hüseyn Arifin də, Zəlmxan Yaqubun da diqqəti daim bu məclisin üzərində olub.

"Aşıq Pəri Məclisi"nin sorağı qısa müddətdə Gürcüstan, Dağıstan, Türkiyə, İran, İraq respublikalarına yayılıb. Məclisin istedadlı üzvləri dəfələrlə beynəlxalq folklor–musiqi festivallarında iştirak ediblər. Narınc Xatunun və məclisin yubileyləri dövlət səviyyəsində qeyd olunub.

Narinc Xatundan sonra "Aşıq Pəri Məclisi"nin inkişafında " Əməkdar Mədəniyyət işçisi" Gülarə Azaflının mühüm xidmətləri olub. O da bir müddət məclisə rəhbərlik edib. Hazırda məclis "Ozan sənətinin təbliği ictimai birliyi"nin sədri Pərvanə Zəngəzurlunun rəhbərliyi ilə 10 ildən artıqdır ki, fəaliyyətini davam etdirir, üfüqlərini genişləndirir. Rəngarəng tədbirləri TV-lərdə işıqlandırılır. Ölkənin ayrı-ayrı mədəniyyət ocaqlarında, o cümlədən Heydər Əliyev Sarayında, Rəşid Behbudov adına Mahnı Teatrında yaddaqalan təqdmatları keçirilib. Noyabr ayında "Kəlağayı Günü"nə həsr olunmuş konsert proqramları da saz–söz sevdalılarının böyük sevincinə səbəb olub.

Bu illər ərzində "Aşıq Pəri Məclisi"nin yaradıcılıq xəzinəsi daha da zənginləşib, üzvlərinin fəallığı daha da artıb. Onların şeirlərindən ibarət 2 antalogiya və 7 almanax işıq üzü görüb. Bu toplularda cəmlənmiş nümunələr aşıq şeir növlərinin qiymətli inciləridir. Bunları dağ çiçəklərindən hörülmüş çələngə bənzətmək olar.

"Aşıq Pəri Məclisi"nin 40 illiyi ilə bağlı Pərvanə xanım deyir:

– Bu münasibətlə Bakıda və ölkəmizin müxtəlif bölgələrində konsert proqramları təşkil etmək arzusundayıq. Bu, Türk dünyasında yeganə sazlı–sözlü xanımlar məclisidir. Ona görə də əlaqədar təşkilatlardan xahiş edirik ki, məclislərimizin təşkilində köməklərini əsirgəməsinlər.

Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlının qeyd etdiyi kimi, ötən yüzillikdə aşıq sənətinin görkəmli simaları olub. qadın aşıqlığı da əski çağlarla bağlı qaynaqlara söykənir.

– Bir çox dastanlarda kişilərlə bərabər, meydanda olan qadın aşıqlar onlarla deyişiblər. Maralyanlı Aşıq Pəri kimi. Onun adını daşıyan bu məclis aşıq sənətinin inkişafına mühüm töhfə verib. "Aşıq Pəri Məclisi" indiyədək onlarca istedadlı el şairi, saz ifaçısı yetişdirib. Onların arasında Prezident təqaüdçüsü, Əməkdar Mədəniyyət işçisi Ulduz Quliyeva da var. "Ozan sənətinin təbliği ictimai birliyi"nin sədri Pərvanə Zəngəzurlu məclisə bacarıqla rəhbərlik edir. "Aşıq Pəri Məclisi"nin üzvləri əsl saz–söz sənətimizin pərvanələridir. Onlar bu məclisi böyük məhəbbət duyğuları ilə yaşadırlar. İnanıram ki, min bir zəhmət hesabına yaranmış bu şeir–sənət məclisi bundan sonra da öz uzunömürlülüyünü qoruyub saxlayacaq.

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

# Naxçıvanda Heydər Əliyev adına Hərbi Liseyin 20 yaşı qeyd edilib

**Heydər Əliyev adına Hərbi Liseyin müstəqil fəaliyyətə başlamasının və ümummilli lider Heydər Əliyevin Hərbi Liseydə xatirəsinin əbədiləşdirilməsinin 20-ci ildönümü qeyd edilib.**



Bu münasibətlə liseyin hərbi qulluqçuları və kursantları hərbi marşlar ifa edərək Heydər Əliyev Muzeyinə yürüş ediblər. Hərbi qulluqçular, pedaqoji kollektiv və kursantlar ulu öndərin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə güllər düzərək böyük rəhbərin əziz xatirəsinə ehtiramlarını bildirib, Heydər Əliyev Muzeyində eksponatlarla tanış olublar.

Hərbi liseydə keçirilən təntənəli mərasimdə müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini şəxsi heyətə çatdırıb.

Sonra tədrisdə və pedaqoji fəaliyyətində əldə etdikləri nailiyyətlərə görə bir qrup hərbi qulluqçu, müəllim və kursantın mükafatlandırılması ilə bağlı Əlahiddə Ümumqoşun Ordu komandanının əmri tədbir iştirakçılarına çatdırılıb və mükafatlar təqdim olunub.

Şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

**XQ**

Elimizdən, obamızdan

# "Xıdır Nəbi, xan İlyas, açdı çiçək, gəldi yaz..."

*Gədəbəyin Novosaratovka kəndində qədim xalq bayramı keçirilib*



**Yaşlı nəslin nümayəndələri xatırlayar, bir vaxtlar Novruz bayramından əvvəl, köhnə təqvimlə təxminən fevralın 25–28-i arası Xıdır İlyas və ya Xıdır Nəbi adlandırılan el mərasimləri keçirilər, özü də müəyyən fərqlərlə, demək olar ki, Azərbaycanın bütün bölgələrində təşkil edilərdi. Gədəbəyin bəzi kəndlərində bu bayram fevralın sonlarına təsadüf edərdi. "Boz ay" yenicə başlasa da, "Xıdır İlyas" mərasimi qışın yola salınması kimi qəbul olunardı. Ənənə indi də davam edir.**

Budur, Gədəbəyin Novosaratovka kəndi al-əlvan bayram libasına bürünüb. Tonqallar qalanıb, süfrələr açılıb. Şən musiqi səsləri ətrafa yayılır. Qol tutub yallı gedirlər, at oynadırlar, təndir salırlar. Deyirlər ki, Novruz bayramından da çox bu bayramı səbirsizliklə gözləyən kəndlər, obalar vardı. Çünki adamlar arasında belə inam vardı ki, əgər Xıdır Nəbi Bozatın belində gələrkən evlərdə bayram əhval-ruhiyyəsi görməsəydi, küsüb gedərdi.

Xıdır Nəbi, adətən, təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və digər təbii proseslərlə müşayiət edilir. Əslində Xıdır Nəbi bir şəxsiyyət olaraq "suyun, külək və havanın himayəçisi" kimi təqdim olunur, hətta Xızır peyğəmbərlə eyniləşdirilir.

Buna görə də həmin bayrama xüsusi tədarük görülərdü. Həmin günlər süfrəyə, əsasən, səməni, qovurğa, qovut, boyadılmış yumurta, xəşil, düyüdən hazırlanmış yeməklər düzülərdi. Uşaqların daha çox sevdiyi kökə və kömbə də bişirilərdi.

Yadımdadır, nənəm, sonralar anam həmin günlərin axşamları deyərdi ki, "yaxşı söz danışın, qapımızı pusan olar". Biz özümüz də qulaqlarımızı barmağımızla yumaraq niyyət tutur və "qonşuya qapı pusmağa gedirik", – deyərdik. Həmin qapıya çatanda qulağımızı açar, niyyətimizi eşitdiyimiz ilk sözlə sınayardıq. Sonra bizə deyərdilər ki, məcməyidəki qovut və ya una əl vurmayın. Çünki əvvəlcə Xıdır Nəbi gəlib öz payını götürməlidir ki, evimizin ruzi-bərəkəti də artsın, bolluq olsun. Amma səhərəcən gözləyə bilməzdik və yuxu bizi aparardı. Xıdır Nəbinin nə vaxt gəlib–nə vaxt getdiyindən xəbərimiz olmazdı. Anamız deyərdi ki, "gəldi də, sovqatını aparıb getdi də". Yalnız bundan sonra həmin qovutdan yeyə bilərdik.

Ertəsi gün cavanlar, uşaqlar dəstələrə bölünüb yollara çıxar, xorla oxuyardılar:

***"Xıdır Nəbi, xan Ilyas,***
***Açdı çiçək, gəldi yaz.***
***Mən Xıdırın quluyam,***
***Boz atının çuluyam."***

Əslində bayramın Novosaratovka kəndinə salınması da təsadüfi deyil və rəmzi xarakter daşıyır. Əvvəla, kənd rayonun ən mənzərəli, füsunkar bir guşəsində yerləşir. Digər tərəfdən, həm Novosaratovka, həm də Novoivanovka kəndlərini tolerantlığın ünvanı hesab etmək olar. 1831-ci ildə bura rusların ilk ayaq basdığı yerdir. Sürgün edilmiş 12 malakan ailəsi bu kəndlərdə yerləşdirildikdən sonra tədricən həm özlərinin sayı artmış, həm də yerli əhali ilə elə qaynayıb-qarışmışlar ki, onları bəzən bir-birlərindən seçib ayırd etmək də çətin olur. Maraqlıdır ki, burada yaşayan ruslar Azərbaycan dilində Gədəbəy ləhcəsi ilə danışırlar. Ruslar keçmiş adət-ənənələrini, milli mətbəxlərini, musiqilərini yaşadır, bir yerə toplaşıb qarmonda çalir, "çastuşka" oxuyur, rəqs edirlər.

Artıq 200 ilə yaxındır ki, ruslar azərbaycanlıların, azərbaycanlılar rusların milli bayramlarında iştirak edir, şənlənir, bir-birlərinin evinə qonaq gedirlər. Xıdır Nəbi bayramı da istisna deyil. Artıq rus milliyyətindən olanlar da Xıdır Nəbi bayramı haqqında kifayət qədər məlumata, bilgiyə malikdirlər və özləri də həmin bayrama uyğun yeməklər bişirir, övladlarını bu milli adət-ənənələrə hörmətlə yanaşmaq ruhunda tərbiyə edirlər…

Qazax–Tovuz Regional Mədəniyyət idarəsinin təşəbbüsü ilə təşkil olunan bu tədbirə rayon mərkəzindən, ətraf kəndlərdən də xeyli adam gəlmişdi. Şər qarışana kimi davam edən bayram tədbiri hər bir Gədəbəy sakinində xoş duyğular oyatmaqla yanaşı, milli adət-ənənələrimizin yaşadılması, davam etdirilməsi yolunda irəliyə doğru atılmış çox xeyirxah, dəyərli bir addım, alqışa layiq təşəbbüs kimi qarşılandı.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

BEYNƏLXALQ HƏYAT

**Fransa Prezidenti Emmanuel Makron Parisdə Ukraynadakı vəziyyətlə bağlı keçirilən sammitdə Avropa İttifaqı (Aİ) ölkələrinin birləşmiş qoşunlarının Ukraynaya göndərilməsi ilə bağlı çox təhlükəli bəyanatla çıxış edib. Bu bəyanat Yelisey sarayının X sosial şəbəkəsindəki səhifəsindən birbaşa canlı yayımda səsləndirilib. Makron deyib: “Biz bunu müzakirə etdik, hələlik quru qoşunlarının göndərilməsilə bağlı rəsmi səviyyədə konsensus əldə edilməyib, lakin heç nə istisna oluna bilməz”.**

# Makron dünyanı müharibəyə sürükləyir



Onun sözlərinə görə, Qərb ölkələri “Rusiyanın Ukrayna cəbhəsində qalib gəlməsinə” imkan verməmək üçün hər şeyə hazırdır. Amma bu, siyasi paranoya yaşayan Makronun sonuncu təhlükəli açıqlaması olmayıb. Sammitin yekunu olaraq Fransa prezidenti Ukraynaya orta və uzaq məsafələri vuran raketlərin verilməsi üzrə yeni koalisiyanın yaradıldığını da elan edib. Makron bəyan edib ki, bir neçə Avropa ölkəsi Ukraynaya “orta və böyük məsafədə hədəfləri vura biləcək raketlər və bombalar” göndərəcək. “Biz, həqiqətən, lazım olan vaxta qədər zəruri olan hər şeyi etməkdə qərarlıyıq”, – deyən Fransa lideri əlavə edib ki, “əsas prioritet sursatdır. Bu baxımdan əlimizdə olan hər şeyi sona qədər təhvil verməyə hazır olduğumuzu bildirdik”.

“Qara qitə”də biabırçı məğlubiyyətdən sonra özünə yer tapa bilməyən Fransa prezidenti Makronun əksəriyyəti NATO üzvü olan Avropa ölkələrinin birləşmiş hərbi hissələrinin Ukraynaya göndərilməsilə bağlı açıqlaması ilk olaraq “Köhnə qitə”nin özündə təşviş və etirtazla qarşılanıb.

Artıq Avropanın bir çox dövlət başçıları Makronun bu fikrini rədd ediblər. Slovakiya, Macarıstan və Almaniya öz əsgərlərini Ukraynaya göndərmək istəmədiklərini bəyan ediblər.

Avropa Komissiyasının rəsmiləri daha ehtiyatlı danışaraq bildiriblər ki, Aİ-yə üzv dövlətlər Ukraynaya hansı növ hərbi yardım göndərəcəklərinə özləri qərar verməlidirlər. “Biz müntəzəm olaraq üzv dövlətlərlə Aİ-nin yüksək səviyyədə hərbi yardımı və ikitərəfli dəstəyi saxlamaq üçün gələcək addımları müzakirə edirik”, - deyə Avropa Komissiyasının nümayəndəsi bildirib.

Əslində Avropa Ofisinin bu şərhi Slovakiyanın baş naziri Robert Fiçonun bəyanatına cavab olaraq bildirilib. Çünki Robert Fiço Aİ və NATO-nun bəzi ölkələrinin ikitərəfli razılaşmalar əsasında Ukraynaya öz hərbi qüvvələrini göndərmək imkanını nəzərdən keçirdiyini bəyan etmişdi. O, Slovakiya hökuməti və Təhlükəsizlik Şurasının iclasından sonra jurnalistlərə deyib: “Bir qrup NATO və Aİ ölkəsi ikitərəfli razılaşmalar əsasında Ukraynaya öz ordusunu göndərməyi düşünür. Biz təhlükəsizliyin qiymətləndirilməsini aparırıq və ayrı-ayrı dövlətlərə Ukrayna ilə bu cür ikitərəfli sazişlər bağlamağa qadağa qoya bilmərik”.

Robert Fiço daha sonra deyib ki, “heç bir slovak əsgəri Ukraynaya getməyəcək” və bu görüş “Qərbin Ukrayna strategiyasının iflasa uğradığını təsdiqləyir”. Macarıstan da oxşar şəkildə reaksiya verib. Xarici işlər naziri Peter Siyarto ölkəsinin "Ukraynaya silah və ya qoşun göndərməyəcəyini" bəyan edib.

Fiçi və Siyarto belə mövqe nümayiş etdirən tək-tək siyasətçilər deyillər. Makron bəlli fikri səsləndirdikdən dərhal sonra Avropa ölkələrinin liderləri hadisələrin bu cür inkişaf ehtimalını təkzib etməyə başlayıblar.

“The European Conservative” nəşri yazıb ki, indi "döyüş meydanındakı vəziyyət Ukrayna üçün həqiqətən kritik görünür". Bu yaxınlarda Volodimir Zelenski Ukrayna itkiləri ilə bağlı ilk rəsmi məlumatı açıqlayıb və Kiyevin 31 min hərbçi itirdiyini bildirib. Lakin bütün kənar ekspertlər hesab edirlər ki, bu rəqəm reallıqdan çox uzaqdır. Avstriyalı hərbi ekspertlər Kiyevin itkilərinin 200 min nəfər, ABŞ-ın ehtiyatda olan zabiti polkovnik Duqlas Makqreqor isə 350 min nəfər civarında olduğunu açıqlayıblar.

Məqalə müəllifi əminliklə bildirir ki, Makron bu cür səs-küylü bəyanatlarla diqqəti öz şəxsinə yönəltməyə və sanki “dirilmiş Avropa militarizminin” simasına çevrilməyə çalışır.

Etiraf etməliyik ki, bütün bunlar artıq beynəlxalq trekdə ABŞ-ın münaqişəyə əlavə dəstək verməkdən mümkün imtinası fonunda baş verir. Buna görə də Fransa prezidenti Kiyevə daha çox raket göndərilməsini müdafiə edir və Ukraynaya “Taurus” qanadlı raketləri göndərməkdən imtina etdiyinə görə Almaniyanı tənqid edir.

Məlum olduğu kimi, Olaf Şolts Bundestaqın toplantısında qəti şəkildə bildirib ki, Almaniya Rusiya ilə münasibətlərdə gərginliyin artmasının qarşısını almaq üçün Kiyevə bu tipli raketlər göndərməyəcək. Hətta fevralın 26-da jurnalistlərlə görüşündə Almaniya kansleri deyib: “Biz Rusiyanın Ukraynaya qarşı apardığı müharibənin genişlənməsinin qarşısını alacağıq və Rusiya ilə NATO arasında müharibəyə imkan verməyəcəyik. Aydındır ki, Ukrayna ərazisində alman əsgərləri olmayacaq. Bizim ölkəmiz və ölkəmizin hərbi strukturları bu müharibədə iştirak etməyəcək”.

Lakin Şoltsun bu qəti cavabı ilə kifayətlənməyən “DPA” jurnalistləri məsələyə əlavə aydınlıq tələb edib və sual veriblər ki, “kansler Almaniyanın məhz Ukraynaya belə raketlər veriləcəyi təqdirdə müharibəyə cəlb olunmasından qorxurmu?” Kansler belə cavab verib: “Bu, çox uzaq mənzilli silahdır və ingilislərin və fransızların hədəfə yönəltmə və müşayiət etmə baxımından etdiklərini Almaniyanın etməsi əsla mümkün deyil. Alman əsgərlərinin, hansı məkanda və harada olmasından asılı olmayaraq, onların bu sistemin vura biləcəyi hədəflərlə əlaqəsinin olması qəbuledilməzdir. O cümlədən Almaniya da daxil olmaqla.” Şolts Almaniyanın Böyük Britaniya və Fransadan fərqini belə izah edib: "Fərqli ənənələrə və fərqli konstitusiya orqanlarına malik olan digər ölkələrin etdikləri, bizim eyni şəkildə edə bilməyəcəyimiz bir şeydir."

Rusiyanın qatı əleyhdarlarından olan Polşanın Baş naziri Donald Tusk belə Makronun təklifinin əleyhinə çıxıb. “Rzeczpospolita” nəşri baş nazirin açıqlamalarına istnadən yazır ki, Polşa tezliklə ÜDM-nin 4 faizini müdafiəyə ayıracaq və NATO-da birinci yerdə olacaq. Bununla belə Polşa lideri Kiyevə göstərdiyi yardımın bir hissəsi olaraq öz əsgərlərini Ukraynaya göndərməyəcəyini açıq şəkildə bəyan edib.

Donald Tusk Praqada çexiyalı həmkarı ilə görüşdə deyib: “Polşa öz qoşunlarını Ukraynaya göndərməyi nəzərdə tutmur. Burada bizim mövqeyimiz eynidir. Bunu, digər ölkələrlə müqayisədə, Ukraynaya müharibədə kömək etməkdə daha çox iştirak edən ölkələrin baş nazirləri deyirlər”.

Makrona etiraz reaksiyalarından biri də İspaniyada səslənib. Bu ölkənin xarici işlər naziri Xose Manuel Albares parlamentin aşağı palatası olan Deputatlar Konqresində çıxış edərək, millət vəkillərini krallığın Ukraynaya qoşun yeritməyəcəyinə əmin edib: "Ukraynada ispan qoşunları olmayacaq, təbii ki, yox. İspaniya hökuməti Qəzzada və Ukraynada eyni şeyi istəyir: sülh və beynəlxalq hüquqa hörmət". İspaniyanın müdafiə naziri Marqarita Robles də hesab edir ki, Avropa qoşunlarının hipotetik olaraq Ukraynaya göndərilməsi münaqişənin genişlənməsinə səbəb olacaq.

Rəsmi Moskvanın reaksiyasını gözləmək də çox çəkməyib. “The European Conservative” nəşri yazır ki, Fransa prezidentinin məlum bəyanatından dərhal sonra Moskvada ciddi xəbərdarlıq səslənib: “NATO qoşunlarının Ukraynaya göndərilməsi birbaşa münaqişəni qaçılmaz edəcək”. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Makronun bəyanatını belə qiymətləndirib: “Bu halda artıq ehtimaldan yox, qaçılmazlıqdan danışmaq lazım gələcək”.

Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin də “Telegram”da Fransa prezidentinin bəyanatını özünəxas şəkildə şərh edib: “Makron şəxsi hakimiyyətini saxlamaq üçün üçüncü dünya müharibəsini alovlandırmaqdan daha yaxşı bir şey düşünə bilməyib.” O, Makronun təşəbbüslərinin Fransa vətəndaşları üçün çox təhlükəli olduğunu bildirib.

Moskvanın ən kəskin cavabını isə Rusiyanın eks-prezidenti, hazırda Rusiya Təhlükəsizlik Şurası sədrinin müavini Dmitri Mevedyev bildirib. O, Fransa prezidentinin Ukraynaya Aİ ölkələrinin birləşmiş qoşun hissələrinin göndərilməsi ilə bağlı açıqlamasını “Telegram”-da belə şərh edib: “Bonapartın xırda varisciklәri iki yüz il əvvəl qoparılan qızıl epauletləri geyinərək, Napoleon miqyasında qisas almağa can atırlar və ayrı-ayrı NATO ölkələrinin qoşunlarını Kiyevə yeritmək, həmçinin Rusiyaya zərbə vurmaq üçün yeni silahlarla bağlı dəhşətli və son dərəcə təhlükəli fikirlər səsləndirirlər”. Onun sözlərinə görə “Qərb siyasətçilərinin meyit kimi iylənmiş beyinlərinin nümunələri hər gün ortaya çıxır”.

Fransa dövlət başçısının təhlükəli bəyanatının doğurduğu kəskin mənfi reaksiyanı görən bu ölkənin silahlı qüvvələr naziri Sebastyan Lekornu onu sığortalamağa çalışaraq bildirib ki, Makron Rusiya silahlı qüvvələri ilə döyüşmək üçün Ukraynaya qoşun göndərmək istəyindən yox, Ukrayna qoşunlarının öz ərazisində təlim keçməsindən danışıb. Lekornu deyib: "Mən aydınlaşdırmaq istəyirəm, çünki mediada və sosial şəbəkələrdə nələrin yazıldığını görürəm: söhbət Rusiya ilə müharibəyə qoşun göndərməkdən getmir". Amma nazirin bu açıqlaması daha çox “daldan atılan daşa” bənzəyir.

***İlqar RÜSTƏMOV***
***XQ***

İDMAN

# “İdman həftəsi”nə start!

**Ölkəmizdə 5 Mart Bədən Tərbiyəsi və İdman Günü hər il olduğu kimi, bu il də kütləvi tədbirlərlə qeyd olunur. Fevralın 28-də bu əlamətdar günlə bağlı ölkəmizdə “İdman həftəsi” başlayıb. Həftəyə idman media nümayəndələri arasında futbol yarışı ilə start verilib.**




Bakı Olimpiya Stadionunda təşkil olunan turnirin açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin idman sektorunun müdiri Elnur Məmmədov Azərbaycanın dünyada güclü idman ölkəsi kimi tanındığını bildirib. Qeyd edilib ki, ölkəmizdə müasir idman infrastrukturu bu sahənin inkişafına böyük töhfələr verir. Azərbaycanda digər idman növləri kimi, futbolun da inkişafı vurğulanarkən “Qarabağ”ın qələbəsi xüsusi qeyd edilib. Media nümayəndələrinin bu qələbə ilə bağlı saysız-hesabsız paylaşımlarına diqqət çəkən Elnur Məmmədov dövlətin idman siyasətinin həyata keçirilməsində idman jurnalistlərinin rolunun böyük olduğunu deyib.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının baş katibi Sərxan Hacıyev Bədən Tərbiyəsi və İdman Günü münasibəti ilə iştirakçıları təbrik edib.



Futbol deyəndə, “Qarabağ”ın yada düşdüyünü qeyd edən qurum rəsmisi Ağdam təmsilçisinin hər oyunda tarix yazdığını bildirib.

Rəsmi mərasimdən sonra futbol turnirinə start verilib. Qeyd edək ki, yarışda 6 komanda mübarizə aparıb.

“İdman həftəsi” çərçivəsində növbəti yarış şahmat üzrə start götürüb. Səfirliklər və diplomatik nümayəndəliklərin əməkdaşları arasında yarışın açılış mərasimində Elnur Məmmədov iştirakçıları təbrik edərək, onlara uğurlar arzulayıb.

**Azərbaycan Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov 5 Mart Bədən Tərbiyəsi və İdman Gününün ölkəmizdə geniş miqyaslı və kütləvi tədbirlərlə qeyd edildiyini bildirib:**

– Ölkəmizdə idmanın inkişafı ildən-ilə daha geniş vüsət alır. Təsadüfi deyil ki, Bədən Tərbiyəsi və İdman Günü ərəfəsində “İdman həftəsi”nin keçirildiyi günlərdə ölkəmizdə əsl bayram əhval-ruhiyyəsi yaşanır. İdman prinsiplərindən ən əsası ədalətli mübarizədir ki, bu da qələbələrin qazanılmasında böyük önəm daşıyır. İdmançılarımız bütün beynəlxalq yarışlarda Azərbaycan bayrağını ucaldırlar. “İdman həftəsi” çərçivəsində ilk yarışlardan biri də səfirliklər və diplomatik nümayəndəliklərin əməkdaşları arasında şahmat yarışıdır. Əminik ki, yarış iştirakçıları potensiallarından maksimum istifadə edib, bilik və bacarıqlarını nümayiş etdirəcəklər. Bu gün Azərbaycan, həm də şahmat ölkəsi kimi tanınır. Ölkəmizdə şahmata göstərilən diqqət və qayğı idmançılarımızın nailiyyətlərində əsas amildir.

Dünən həmçinin, idman fotoqrafı Dilavər Nəcəfovun fotosərgisi, "Yaşıl dünya və idman" mövzusunda rəsm sərgisi keçirilib. Martın 5-dək davam edəcək tədbirlər çərçivəsində "Qürurla irəli" şüarı ilə Xankəndi - Bakı ultra marafonu təşkil ediləcək.

“İdman Həftəsi”ndə məktəblər arasında "İdman və ekologiya" mövzusunda esse müsabiqəsi, idman federasiyaları, paralimpiya və deflimpiya komitələrinin əməkdaşları arasında “Fibonaççi” intellektual və uşaq evləri arasında əyləncəli atletika yarışı, həmçinin “Qan ver, həyat xilas et!” şüarı altında könüllü qanvermə aksiyası təşkil ediləcək. Dövlət qurumlarının əməkdaşları arasında stolüstü tennis, voleybol, nərd yarışları, ahıl şəxslər üçün sosial xidmət müəssisəsində futbol və badminton oyunları, Gənclər və İdman Nazirliyinin əməkdaşları arasında oxatma, fiziki məhdudiyyətli idmançılar arasında estafet yarışı, “Yaşıl dünya naminə həmrəylik ili” ilə əlaqədar ağacəkmə aksiyası ilə davam edəcək “İdman həftəsi” Qubada idman paradı ilə başa çatacaq.

**Leyla QURBANOVA**
**XQ**


“SUMQAYIT SANTEXNİK HİSSƏ” ATSC
səhmdarlarının nəzərinə!

“Sumqayıt Santexnik Hissə” ATSC səhmdarlarının növbəti ümumi yığıncağı 14 aprel 2024-cü il saat 10.00-da Sumqayıt şəhəri, Metallurqlar küçəsi 25 nömrəli ünvanda keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin 2023-cü il ərzində gördüyü işlər və qarşıda duran məsələlər barədə idarə heyətinin illik hesabatı.

**2.** Cəmiyyətin 2023--cü il üçün maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabatı və 2023-cü ilin balansının təsdiq edilməsi.

**3.** Digər məsələlər.

Ünvan - Sumqayıt şəhəri, Metallurqlar küçəsi 25.

***İdarə heyəti***

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı”
Qapalı Səhmdar Cəmiyyəti

“Silkway” adlı gəminin əsaslı təmiri xidmətinin satın alınması üçün

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 3 aprel 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3706).

Ünvan-AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı”
Qapalı Səhmdar Cəmiyyəti

Tullantı suyunun keyfiyyət göstəricilərinin təhlili xidmətinin satın alınması üçün

MÜSABİQƏSİ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 18 mart 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3704).

Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.


# Ər-Riyad Kiyevə əl uzadır

**Səudiyyə Ərəbistanı Ukrayna müharibəsində vasitəçilik missiyasını davam etdirəcək. “Əl-Ərəbiyə” telekanalı xəbər verir ki, bu fikir Ər-Riyadda Səudiyyə Ərəbistanının vəliəhdi Məhəmməd bin Salman ilə krallıqda səfərdə olan Ukrayna Prezidenti Volodimir Zelenskinin görüşündə ifadə edilib.**



Vəliəhd həmçinin bildirib ki, Ər-Riyad Ukrayna ilə Rusiya arasında hərbi əsirlərin mübadiləsində uğurlu vasitəçilik edib və gələcəkdə - müharibənin başa çatmasından sonra bərpa-quruculuq işlərində iştirak etməyə hazırdır.

Ukrayna Prezidenti vəliəhdə təşəkkürünü bildirərək qeyd edib ki, Kiyev gələcəkdə də Səudiyyə Ərəbistanının köməyinə ümid edir. O əlavə edib ki, görüş əsnasında ilk müzakirə mövzusu keçən il Ciddədə aparılan danışıqlar zamanı müzakirə edilən sülh formulu olub. “Biz indi ilk Sülh Sammitinə yaxınlaşırıq və Səudiyyə Ərəbistanının davamlı fəal dəstəyinə arxalanırıq”, - deyə Ukrayna prezidenti özünün “X” sosial platformasındakı səhifəsində yazıb.

**XQ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 46 (30450) 29 fevral 2024-cü il, cümə axşamı

# Qulam Məmmədli – ötən əsrin yaddaşı

**Qocaman jurnalist, mollanəsrəddinçi Qulam Məmmədlinin tədqiqatları, xatirələri və müsahibələri həmişə maraq doğurub. Mənim o kişi ilə çox yaxşı ünsiyyətim vardı. "Dostluğumuz" Mirzə Fətəli Axundov adına kitabxanadan başlamışdı. Hətta bir neçə dəfə evlərində olmuşam. Çay içib söhbət etmişik. Ondan müsahibə də götürmüşəm.**

Qulam müəllimin bir xasiyyəti də vardı: qonaqlarından özü haqda fikirlərini evindəki qalın rəy kitabına (dəftərə) yazmağı xahiş edərdi. Mən də bu böyük tədqiqatçı haqda fikrimi həmin dəftərə yazmışdım. Sonralar həmin dəftərdəki rəylər (mənim rəyim də daxil olmaqla) toplanıb ayrıca bir kitab şəklində çap olundu).

Yaşı yüzə yaxın olan (1897-1994) bu nəhəng, ucaboy adamın güclü yaddaşı vardı. Qulam müəllim Mirzə Cəlili, Nəriman Nərimanovu, Hüseyn Cavidi, Üzeyir bəy Hacıbəylini, Cəfər Cabbarlını çox sevirdi və onlar barədə sanballı tədqiqat əsərləri yazmışdı.

Amma o, nədənsə, Məmməd Səid Ordubadini sevmirdi. Səbəbini də belə izah edirdi: "Ordubadi Mirzə Cəlilə nifrət edirdi, mən isə Mirzəni çox yüksək qiymətləndirirəm".

Bu günlərdə saytlardan birində vaxtilə Qulam Məmmədlidən götürülmüş müsahibəni oxuyanda bu insanı bir daha xatırladım. Qulam müəllim deməmişdir: "1922-ci ilin dekabrında (əslində isə noyabrında-F.M.) "Molla Nəsrəddin" jurnalının birinci nömrəsi (Mirzə Cəlil Təbrizdən qayıdandan sonra) çıxdı. Nəşrdə Azərbaycan sağmal inək şəklində təsvir edilmişdi. Əli vedrəli, bankalı, qab-qacaqlı kim vardısa, inəyə hücum edib onu sağmaq istəyirdi. Bunlar İngiltərə, Fransa, İtaliya, ABŞ, Rusiya idi.

Karikatura böyük hay-küyə səbəb oldu. Mirzə Cəlil bunlara cavabında deyirdi: "Azərbaycan neftini kəndlərimiz gedib qonşu respublikalardan birə-on qat baha alıb yandırırlar ki, qaranlıqda qalmasınlar..."

Çox danışıqlar getdi, uzun söz-söhbətlər oldu. Mirzə Cəlil seçdiyi haqq yolundan dönmədi, təslim olmadı, həqiqəti yazmaqda davam etdi. Sovet dönəmindən əvvəl olduğu kimi, sonra da onun düşmənləri kifayət qədər çox idi. Bu cəhətdən Mirzə "xoşbəxt" idi.




Dahi Cəlil Məmmədquluzadəni "sındırmaq" istəyən bolşevik məmurlar "dostu" M.S.Ordubadini jurnalın üstündə hərbi komissar təyin etdilər; ondan icazəsiz jurnalda heç bir yazı gedə bilməzdi.

M.S.Ordubadi hələ keçmişdən jurnalın əleyhinə yazanlardan biri idi. Mirzə Cəlil bir dəfə Ordubadiyə yazdığı məktubunda belə deyirdi: "Səid, bildiyini elədin, gələn nömrədən mənim adım redaktor kimi o jurnalda yazılsa, mən bilirəm hara şikayət edəcəyəm".

"Ümumiyyətlə, Mirzə Cəlil və məsləkdaşlarının buraxdığı "Molla Nəsrəddin"in ən qəddar düşməni Ordubadi olub. Sübut üçün 20-30 sənəd göstərə bilərəm". Bu sözləri də Qulam müəllim deyib.

Bəli, bütün bunlar bir tarixdir. Elə kimin haqlı olduğunu da tarix müəyyən edir.

***Firuz MUSTAFA,***
***yazıçı-dramaturq,***
***Əməkdar mədəniyyət xadimi***

## İdman

### Atıcılarımız daha bir medal "ovladılar"

**Komandamız Macarıstanın Dyör şəhərində keçirilən atıcılıq üzrə Avropa çempionatında daha bir medal qazanıb.**



Hacı Musayev, Vladislav Kalmıkov və İmran Qarayevdən ibarət yığma oğlanlar arasında keçirilən komanda yarışlarında 3-cü yeri tutub. Komandamız bu nəticəni 10 metr məsafəyə güllə atma yarışında əldə edib.

Xatırladaq ki, bundan əvvəl Leyli Əliyeva və Vladislav Kalmıkov da qitə birinciliyinin bürünc medalını qazanıblar.

### Millimiz ilk qələbəsini qazanıb

**Azərbaycanın həndbol üzrə qadın millisi Avropa çempionatının seçmə mərhələsində ilk qələbəsini qazanıb.**



V qrupda mübarizə aparan yığma Bakı İdman Sarayında Litva seçməsini qəbul edib. Qarşılaşma komandamızın 35:33 hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, Azərbaycan millisi martın 3-də Litva ilə səfərdə qarşılaşacaq. Yığma qrupda daha əvvəl keçirdiyi oyunlarda Şimali Makedoniya və İspaniya seçmələrinə uduzub.

### Qadın şahmatçılarımız Gürcüstanda

**Qadın şahmatçılardan ibarət Azərbaycan millisi Gürcüstanda yerli komanda ilə yoldaşlıq görüşündə iştirak edir.**



Günay Məmmədzadə, Ülviyyə Fətəliyeva, Gülnar Məmmədova, Gövhər Beydullayeva və Xanım Balacayevadan ibarət Azərbaycan millisi ilk oyun günündə ağ fiqurlarla çıxış edib. Bütün partiyalar heç-heçə başa çatıb: 2,5-2,5.

Razılaşmaya əsasən, şahmatçılar 5 tur çərçivəsində bir-biri ilə mübarizə aparacaqlar. Qeyd edək ki, yoldaşlıq görüşü rəsmi xarakter daşıyır. Nəticələr FIDE reytinqinə hesablanacaq.

Yoldaşlıq görüşü qadın şahmatçılardan ibarət Azərbaycan millisinin Ümumdünya Şahmat Olimpiadasına hazırlıq proqramının bir hissəsidir.

***Leyla SABİRQIZI***
***XQ***

# Bölgə xəbərləri

### Şəmkirdə şəhid ailələri ilə görüş

***Şəmkir rayonunda şəhid ailələri və qazilərlə görüşlər davam etdirilir, onların mövcud problemlərinin həlli istiqamətində işlər görülür.***

Bu günlərdə rayon icra hakimiyyətinin rəhbərliyi Zəyəm qəsəbəsində şəhid ailələri, qazilərlə görüşüb. İcra hakimiyyətinin başçısı bildirib ki, dövlətimiz, xalqımız hər zaman şəhidlərin əziz xatirəsini uca tutacaq, şəhid ailələri, qazilər daim dövlətimizin qayğısı ilə əhatə olunacaqlar.



Bildirilib ki, Şəmkir rayonunda şəhid ailələrinin və qazilərin qarşılaşdıqları problemlər öyrənilir və onların həlli üçün tədbirlər həyata keçirilir.

Torpaqlarımızın azadlığı uğrunda şəhid olan hərbçilərimizin ailələri, qazilərimiz göstərilən diqqətə görə təşəkkür edib, istək və arzularını, problemlərini səsləndiriblər.

### Samuxu "Zəfərə aparan yol..."

***Samux şəhərinin Heydər Əliyev parkında "Zəfərə aparan yol" adlı tədbir keçirilib.***

Tədbirə rayon icra hakimiyyətinin rəhbərliyi, şəhid ailələri, müharibə veteranları, ictimaiyyət nümayəndələri, ümumtəhsil məktəblərinin şagirdləri qatılıb.

Tədbirdə həmçinin "Əsgərə məktub" layihəsi də həyata keçirilib və burada çıxış edən gənclər deyiblər ki, onlar öz vətəndaşlıq borclarını layiqincə başa düşür və bilirlər ki, "Zəfərə aparan yol" Vətənə sevgidən keçir.




Sonra icra hakimiyyətinin başçısı və layihə iştirakçıları tərəfindən Azərbaycan Ordusu sıralarında xidmət edən əsgərlərə məktub vasitəsi ilə ürək sözləri yazılıb və məktəblilərin bağışladığı bədii kitablar "N" saylı hərbi hissənin rəhbərliyinə təqdim olunub.

### Gəncə Texnologiya Universiteti beynəlxalq forumda




***Texnologiya Universitetinin rektoru dosent Yaşar Ömərov Rusiyada ilk Avro-Asiya İT Forumunda məruzə ilə çıxış edib***

"Rəqəmsal suverenlik uzunmüddətli beynəlxalq əməkdaşlığın əsası kimi" ilk Avro-Asiya İT forumunda ATU-ni rektorla birlikdə universitetin strateji inkişaf və rəqəmsallaşma məsələləri üzrə müşaviri Mehman Kərimov təmsil edib.

Yaşar Ömərov iki günlük forum çərçivəsində "Rəqəmsal dövlət idarəçiliyi üzrə kadr hazırlığı" adlı panelin spikeri qismində çıxış edib.

Qeyd edək ki, bir çox ölkələrin ali təhsil müəssisələri rəhbərlərinin iştirak etdiyi forum Moskva şəhərində Rusiya Federasiyasının Rəqəmsal İnkişaf, Rabitə və Kütləvi Kommunikasiyalar Nazirliyinin təşkilatçılığı ilə baş tutub.

### Göygöldə "İrəvanla döyünən ürəklər"

***Göygöl rayonunda Qərbi Azərbaycan və milli rəqslərdən ibarət konsert təşkil olunub.***



Göygöl Rayon İrəvan İdman Klubunun tərkibində fəaliyyət göstərən İrəvan Rəqs bölməsinin təşkilatçılığı ilə "İrəvanla döyünən ürəklər" adlı Qərbi Azərbaycan və milli rəqslərdən ibarət konsert proqramı keçirilib.

Tədbirdə rayon icra hakimiyyətinin rəhbərliyi, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konsertdə 80-dən çox şagirdin rəqs nömrələri nümayiş olunub. Sonra icra hakimiyyətinin başçısı Elvin Paşayev iştirakçılara xoş arzularını çatdıraraq, klubun gələcək fəaliyyətlərində uğurlar diləyib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

## Hava




***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, fevralın 29-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Lakin gündüz bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az çiskinli olacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-8° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 775 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək.Havanın temperaturu gecə 0-5° şaxta, gündüz 5-10° isti, dağlarda gecə 5-10°, yüksək dağlıq ərazilərdə 12-16°, gündüz 0-5° şaxta olacaq. Gecə və səhər bəzi dağlıq ərazilərdə yolların buz bağlayacağı ehtimalı var.

***Q.QASIMOV***
***XQ***

### Yeniyetmə elektromobili

***İsveçrədə 14 yaşdan yuxarı yeniyetmələrin idarə edə biləcəyi elektromobil yaradılıb. Dünən "Micro Mobility Systems" şirkəti tərəfindən yeniyetmələrin idarə edə biləcəyi "Microlino Lite" kompakt elektrik avtomobili təqdim edilib. Avtomobilin mühərriki 12 at gücündədir, maksimal sürəti isə saatda 45 kilometrə çatır.***

Qeyd olunur ki, mini-elektrik avtomobil adi elektromobildən yüngül olduğuna görə daha az enerji sərf edir. Akkumulyatoru bir dəfə doldurulmaqla, təxminən, 100 kilometr yol qət edir.

***XQ***

✓ ***"İmişli Mehmanxana" Açıq Səhmdar Cəmiyyətinə verilmiş özəlləşdirmə planı (emissiya prospekti) itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Yunis Rəhimova həyat yoldaşı

**AFAQ XANIMIN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğluya əzizi

**FƏRQANƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Xalq qəzeti"nin kollektivi iş yoldaşları Hamlet Qasımova bacısı

**ƏSMƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3864
SİFARİŞ 407
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANLI

Çapa imzalanmışdır
00:00